Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

SENTYABR-OKTYABR, 2020 | WWW.MECLIS.AZ

PREZİDENT **İLHAM ƏLİYEV:**

Biz bu bölgədə yeni strateji mənzərə, strateji baxış yaratmalıyıq. Müharibədən sonra Azərbaycanın, bölgənin yeni dövrü başlanacaq

HƏR
ŞEY VƏTƏN
ÜÇÜN!

Milli Məclis
Analitik informasiya jurnalı

Təsisçi:
Azərbaycan Respublikasının Milli Məclisi

Redaksiya Şurasının sədri:
Sahibə Qafarova

Redaksiya Şurasının üzvləri:
Əli Hüseynli, Adil Əliyev, Fəzail İbrahimli, Səfa Mirzəyev, Ziyafət Əsgərov, Zahid Oruc, Sadiq Qurbanov, Tahir Mirkişili, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Siyavuş Novruzov, Bəxtiyar Əliyev, Qənirə Paşayeva, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

Baş redaktor:
Ülviyyə Abdullayeva

Baş redaktorun müavini:
Mübariz Əsgərov

Məsul redaktor:
Aidə Əhmədova

Dizayn:
Vəfadar Əliyev

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq təsis edilib.

Redaksiyanın ünvanı:
Azərbaycan 1152, Bakı, Parlament prospekti 1.
Tel: (+99 412) 510 99 07
(+99 412) 510 67 01
(+99 412) 510 90 01

Milli Məclisin rəsmi web səhifəsi:
www.meclis.gov.az

"Milli Məclis" jurnalının web səhifəsi:
www.jurnal.meclis.gov.az

Jurnal 2007-ci ilin may ayından nəşr olunur

BU SAYDA

BURAXILIŞ: SENTYABR-OKTYABR, 2020

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni şanlı tarixi yazılır 2
Fəzail İbrahimli: "Milli birliyimiz düşmənlə mübarizədə gücümüzə güc qatır" 8
Milli Məclisin Sədri Sahibə Qafarova ilk rəsmi səfərini qardaş Türkiyəyə etdi 12
Milli Məclisin Sədri Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasında çıxış etdi 15
Rəsmi xronika 18
Milli Məclis Sədrinin bir sıra beynəlxalq təşkilatların və parlamentlərin rəhbərləri ilə telefon danışığı olub 19
Milli Məclisin payız sessiyasının ilk iclası keçirildi 24
Milli Məclisin Sədri jurnalistlər üçün brifinq keçirdi 25
Ermənistan sülh danışıqlarını pozmaqla özünü fəlakətə sürüklədi 26
Azərbaycanın siyasi və hərbi qüdrəti müstəqilliyimizin ən mühüm nailiyyətidir 30
Dünyada misli olmayan qardaşlıq 34
Genosid, deportasiya, terror, qəddarlıq... 38
Ermənistan insanlığa qarşı 41
Erməni vandalları mədəni abidələrimizi məhv edir 44
Müharibəyə gedən yol 47
Güclənərək birləşmək və birləşərək güclənmək 50
Türkiyə-Azərbaycan münasibətləri yeni mərhələdə 53
Avropa İttifaqı-Azərbaycan: gələcək perspektivlər 57
Mütərəqqi dövlət siyasəti gənclərə geniş imkanlar yaradıb 60
Yubileylər 62
Sosial sahədə innovativ tətbiqlər 64
Azərbaycan dövlətinin qadın siyasəti: dünən və bu gün 67
Dünya ümumi düşmənlə – COVID-19-la savaşda 70
Banklara etimad artacaq 74
Lombardların fəaliyyəti qanunla tənzimlənəcək 75
Dördüncü Sənaye İnqilabı və Azərbaycan 78
Peşə təhsilinin inkişaf etdirilməsi XXI əsrin çağırışı və milli vəzifədir 81
Məhkəmə-hüquq islahatları: dövlətin əsas hədəfi humanizm və insan hüquqlarının müdafiəsidir 84
Nigar Arpadarai: "Mən hər zaman yeni çağırışlar axtarışında olmuşam" 88
Müasir çağırışlara uyğun və əsaslandırılmış su balansı hazırlanmalıdır 92
İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin fəaliyyəti çoxşaxəlidir 94

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni şanlı tarixi yazılır

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ümummilli lider Heydər Əliyevin 2003-cü ilin oktyabr ayında Azərbaycan xalqına tarixi müraciəti bu sözlərlə tamamlanırdı. Zaman yenə də dahi siyasətçini haqlı çıxardı. Ötən 17 ildə ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi möhtəşəm nailiyyətlər 2003-cü ildə Azərbaycan xalqının bu seçiminin nə qədər mühüm tarixi əhəmiyyətə malik olduğunu, Azərbaycanın davamlı inkişafı üçün Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu bir daha sübuta yetirmişdir.

Heydər Əliyev siyasəti Azərbaycana möhtəşəm uğurlar qazandırır

Ali kürsüdə vəzifəsinin icrasına başladığı ilk gündən: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyə bəyan edərək prinsipial mövqe və lider qətiyyəti göstərən cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalmış, bu siyasi kurs yeni dövrün tələb və çağırışlarına uyğun olaraq müasirləşdirilərək həyata keçirilmişdir.

Əgər 1993-2003-cü illərdə ölkəmizdə Ümummilli liderin zəngin təcrübəsi, yüksək idarəetmə sərişt-əsi, əvəzsiz liderliyi ilə sabitləşmə və müstəqilliyinin sarsılmaz təməllərinin yaradılması mərhələsi uğurla reallaşdırılmışdırsa, 2003-cü ildən sonra möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni və müasir inkişaf erasına daxil olmuşdur. Ölkəmizin hərtərəfli tərəqqisinin dayanıqlı konseptual əsasları yaradılmış, hər bir sahə üzrə siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış bitkin fəaliyyət proqramları həyata keçirilmişdir. Görülən məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu dövr Azərbaycan tarixinə sabitlik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ötən 17 ildə Prezident İlham Əliyevin müəllifliyi və rəhbərliyi ilə həyata keçirilən davamlı islahatlar Azərbaycanın tərəqqisinə və milli gücünün artmasına xidmət etmişdir. Bu islahatlar dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş, Azərbaycanın inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə əhəmiyyətli töhfələr vermişdir. Azərbaycanda demokratik təsisatların fəaliyyəti üçün geniş imkanlar və əlverişli mühit yaradılmış, azad, şəffaf, ədalətli seçki institutu formalaşdırılmış, söz və vicdan azadlığı, siyasi plüralizm yüksək səviyyədə təmin olunmuşdur.

Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biri də, şübhəsiz ki, həyata keçirilən institusional islahatlardır. Bu mənada Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması yeni nəsil islahatların həyata keçirilməsi, vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsi, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsi baxımından mühüm amil olmuşdur. Birinci vitse-prezident təyin edilən Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Başqa sözlə, bu gün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli, ictimai əhəmiyyətli fəaliyyəti ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük önəmə malikdir.

Sahibə Qafarova
Azərbaycan Respublikası
Milli Məclisinin Sədri

Azərbaycan xarici siyasət sahəsində də fəal diplomatik əlaqələrə və geniş imkanlara malikdir

Son 17 ildə Azərbaycanda nəhəng transmilli enerji layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi kimi enerji təhlükəsizliyində mühüm rol oynayan nəhəng layihələr Avropanın enerji xəritəsini dəyişdirmişdir. Bu sahədə əldə olunan nailiyyətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində də rolunu əhəmiyyətli dərəcədə gücləndirmiş, onun qüdrətli aktor kimi proseslərə təsir imkanlarını genişləndirmişdir. Prezident İlham Əliyev təşəbbüskar və yüksək səriştəli təşkilatçı lider kimi regionda ən möhtəşəm transkontinental nəqliyyat, kommunikasiya layihələrinin reallaşdırılmasının da müəllifidir. Onun təşəbbüsü ilə Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması regionda möhkəm təhlükəsizlik və geniş əməkdaşlıq mühitinin formalaşmasına mühüm töhfələr verməkdədir.

Beləliklə, davamlı əsaslara malik ictimai-siyasi sabitliyin hökm sürdüyü, demokratik, hüquqi, sivil, dünyəvi, iqtisadiyyatı inkişaf edən, əhalinin etibarlı sosial müdafiəsini təmin edən müstəqil Azərbaycan xarici siyasət sahəsində də fəal diplomatik əlaqələrə və geniş imkanlara

malikdir. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmiz dünya iqtisadi və siyasi birliyinə uğurla inteqrasiya etmiş, qlobal layihələrin mərkəzinə, dünyanın aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların hörmət və diqqətlə yanaşdığı nüfuzlu dövlətə çevrilmişdir. Azərbaycan işğalçı Ermənistan istisna olmaqla, dünya birliyinə üzv olan bütün dövlətlərlə qarşılıqlı hörmət və etimada söykənən səmərəli münasibətlər qurmuş, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri yaratmışdır. Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü illərdə qeyri-daimi üzvü seçilməsi bunun parlaq təzahürüdür. Ölkəmiz BMT-dən sonra dünyanın ən böyük ikinci təşkilatı olan Qoşulmama Hərəkatının da fəal üzvlərindən biridir və hazırda təşkilata uğurla sədrlik etməkdədir. Eyni zamanda, digər mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanı dərinləşdirməyə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir. Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda uğurlu siyasət aparmaq böyük təcrübə və yüksək diplomatik bacarıq tələb edir. Azərbaycan Prezidenti bu aspektdə də olduqca uğurlu lider və rəhbərdir. Onun sülh və humanizm, birgə geniş əməkdaşlığı təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin təmas nöqtələrinin trayektoriyasını müəyyən edir. Məhz bu nadir siyasi keyfiyyətlər Prezident İlham Əliyevin qətiyyətli və güclü siyasi lider kimi dünyada böyük nüfuz qazanmasını şərtləndirmişdir.

> **“Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”**

Digər tərəfdən, öz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı-faydalı əməkdaşlıq kimi meyarları da əsas götürən Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Bütün bunların müqabilində ayrı-ayrı milli dövlətlər, o cümlədən dünya siyasətinin güc mərkəzləri kimi çıxış edən geosiyasi subyektlər Azərbaycanın beynəlxalq münasi-

bətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirirlər.

Biz zəfər çalacağıq, Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyevin uğur salnaməsinin ən strateji səhifələrindən biri kimi ölkəmizdə ordu quruculuğu sahəsində əldə olunmuş əzəmətli nailiyyətləri xüsusi vurğulamaq lazımdır. Son dövrlər Ermənistanın hərbi təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirilən uğurlu əks-hücum əməliyyatlarının nəticələri fonunda bu nailiyyətlər daha parlaq görünür. Müharibə şəraitində yaşayan Azərbaycanda ötən müddət ərzində silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordunun peşəkar kadrlarla təchizatı, döyüş hazırlığının artırılması dövlət siyasətinin prioritet istiqamətini təşkil etmiş, Azərbaycanda qüdrətli, qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə qadir olan güclü ordu formalaşdırılmışdır. Bu gün Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır.

Sirr deyil ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin prioritetləri sırasında hər zaman ilk yerdə dayanmışdır. Vəzifəsinin icrasına başladığı ilk dövrlərdən: "Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azər-

baycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar", - deyən cənab Prezident ötən 17 ildə bütün beynəlxalq platformalardan istifadə edərək münaqişə ilə bağlı əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmış, Azərbaycanın tarixi ədalətə əsaslanan mövqeyini qətiyyətlə müdafiə etmişdir. Dövlət başçısının "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı münaqişənin həllinin formulunu açıq şəkildə ifadə edir. Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini tapmalıdır və Ali Baş Komandanın bu mövqeyində heç bir güzəştə yer yoxdur.

Münaqişənin həlli ilə bağlı aparılan danışıqlarda Azərbaycanın mövqeyini gücləndirən mühüm amillərdən biri beynəlxalq hüququdur. İndiyədək BMT, ATƏT, İƏT, Qoşulmama Hərəkatı, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar qəbul etdikləri çoxsaylı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə dəstəklərini ifadə etmişlər. Bununla da Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınmış, Minsk qrupuna həmsədrlik edən ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etmişlər.

Lakin ötən müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqeyi, siyasi, hərbi təxribatları danışıqlar prosesinin bu günə qədər heç bir nəticə verməməsinə gətirib çıxarmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, həll olunmamasının məsuliyyəti birbaşa işğalçı ölkənin siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Beynəlxalq hüquqa məhəl qoymayan işğalçı dövlət dəfələrlə substantiv danışıqları pozmağa, status-kvonun saxlanmasına xidmət edən təxribatlara əl atmışdır. Son vaxtlarda isə Ermənistanın rəhbərliyi danışıqların formatını dəyişdirməyə davamlı cəhd göstərmiş, prosesə zərbə vurmaq üçün əsassız iddialar irəli sürmüş, reallığa uyğun gəlməyən bəyanatlar səsləndirmişdir. Hətta bu ölkənin yüksək kürsülərini zəbt etmiş şəxslər məsuliyyətsiz fikirlər ifadə edərək yeni ərazilər işğal etmək üçün müharibəyə başlayacaqlarını açıq şəkildə dilə gətirmişlər.

Hazırda isə elə Azərbaycanın dövlət başçısının təbirincə desək, həqiqət anı yetişib. Bu gün artıq Azərbaycan münaqişənin taleyini özü həll edir. Bunun üçün Azərbaycanın güclü, tam təchizatlı müasir ordusu var. Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və yüksək liderlik bacarığı, xalqımızın sarsılmaz inamı və birliyi, ordumuzun döyüş əzmi və şücaəti sayəsində yeni tarix yazılır. Qurtuluş savaşı aparan şanlı ordumuz 30 ilə yaxındır düşmən işğalında olan torpaqlarımızı düşməndən təmizləyərək zəfər yürüşünü davam etdirir.

Döyüş meydanında, hərb sahəsində ağır məğlubiyyətlər alan Ermənistan isə yenə də çirkin əməllərə, təxribatlara əl atır. İşğalçı ölkənin silahlı qüvvələri tərəfindən Gəncə, Mingəçevir, digər şəhər və rayonlarımızın, mülki əhalinin və mülki obyektlərin hədəfə alınması növbəti vandallıq aktı, erməni faşizminin təzahürüdür. Bu hücumlar müharibə cinayəti olmaqla beynəlxalq hüquqa, o cümlədən 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyasının tələblərinin kobud şəkildə pozulması deməkdir.

“Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar”

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, Milli Məclis Ermənistanın bu təxribatları ilə bağlı milli parlamentlərə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlamışdır. Parlament rəhbərliyinin və dostluq qruplarının adından 88 ölkənin parlamentlərinə 130, həmçinin 11 beynəlxalq təşkilata məktublar göndərilmişdir. Müraciətlərdə baş verənlərlə bağlı geniş məlumatlar verilmiş və beynəlxalq ictimaiyyət tərəfindən bu hadisələrə adekvat münasibətin bildirilməsinə çağırış olunmuşdur. Artıq bəzi ölkələrin parlamentariləri ölkəmizə öz dəstəklərini ifadə etmişlər. Həmçinin bu müddət ərzində mənim bir sıra ölkələrin spikerləri və beynəlxalq təşkilatların rəhbərləri ilə telefon danışıqlarım olmuş, 10-a yaxın ölkənin səfirləri ilə görüşlər keçirmişəm.

Şübhə yoxdur ki, qarşıda bizi yeni böyük uğurlar gözləyir. Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Şuşanın, işğal altında olan digər torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil. Cənab Prezident İlham Əliyevin oktyabrın 4-də xalqımıza müraciətində qeyd etdiyi kimi, biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Azərbaycan bu gün tarixi ədaləti bərpa edir. 30 ilə yaxındır ki, davam edən tarixi ədalətsizlik Azərbaycan Ordusunun əks-hücum əməliyyatları nəticəsində aradan qaldırılır. Ali Baş Komandan xalqımıza müraciətində öz əminliyini bu sözlərlə ifadə edir:

“Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Fəzail İbrahimli:

“Milli birliyimiz düşmənlə mübarizədə gücümüzə güc qatır”

VI çağırış Milli Məclisin fəaliyyətində siyasi partiyaların rolu, eləcə də ölkə siyasətində aparılan iqtidar-müxalifət dialoqu və digər aktual məsələlər barədə fikirlərini öyrənmək üçün parlament Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Vətəndaş Həmrəyliyi Partiyası sədrinin müavini **Fəzail İbrahimli** ilə görüşdük. İlk əvvəl cəbhə xəttindəki vəziyyəti müzakirə etdik.

- Fəzail müəllim, Azərbaycan Ordusu öz torpaqlarını azad etdikcə işğalçı Ermənistan bundan dərs almaq əvəzinə siyasi provokasiyalara əl atır...

- Azərbaycan 30 ilə yaxındır ki, torpaqlarını işğal edən təcavüzkarla sülh dilində danışdı, 30 ilə yaxındır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırılan bu işğalın danışıqlar vasitəsi ilə aradan qaldırılması üçün Minsk qrupu formatına tolerantlıq nümayiş etdirdi. Lakin Ermənistan yola gəlmədi. Nə beynəlxalq hüquqa, nə mütərəqqi bəşəriyyətin çağırışlarına, nə də beynəlxalq qurumların qətnamələrinə məhəl qoymadı. Əvəzində bizi təhqir etmək üçün erməni tərəfi Şuşada yallı getdi və “andiçmə mərasimi” keçirdi.

Ermənistan tərəfi sentyabrın 27-nə qədər atdığı addımları ilə bu ölkənin münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını nümayiş etdirdi, məsələnin hərbi çözümünü alternativsiz varianta çevirdi. Rəsmi Yerevanın, onun nəzarətində olan Qarabağdakı separatçı rejim təmsilçilərinin açıqlamaları savaşı artıq qaçılmaz reallığa çevirdi.

Düşmənin sentyabrın 27-də əl atdığı təxribat isə bizim səbrimizi daşıran son damla oldu. Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlayaraq işğal edilmiş torpaqları addım-addım geri qaytarmağa başladı.

İndiki vəziyyətdə günahkar Ermənistan rəhbərliyidir, sonra da, bu məsələyə biganə yanaşan və daim işğalçı Ermənistana havadarlıq edərək bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələri. Biz burada nə gördük!? Bir daha sübut olundu ki, Ermənistan Azərbaycana qarşı soyqırım, təcavüzkar siyasətini havadarlarına arxalanaraq həyata keçirib.

Xüsusən Fransa ciddi-cəhdlə Ermənistana qahmar çıxır. Halbuki indiyədək Fransa və digər dövlətlərin məsələni hüququn gücü ilə, beynəlxalq və digər vasitələrlə həll etmək üçün kifayət qədər şansları var idi.

Biz Ermənistanı himayə edən dövlətlərdən və Minsk qrupundan haqqımızı tələb edəndə isə deyirdilər ki, özünüz danışın. İndi biz özümüz danışırıq; qananı sözlə, qanmayanı güclə başa salırıq.

Biz Ermənistanı himayə edən dövlətlərdən və Minsk qrupundan haqqımızı tələb edəndə deyirdilər ki, özünüz danışın. İndi biz özümüz danışırıq; qananı sözlə, qanmayanı güclə başa salırıq.

“Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir vətəni vardır - Azərbaycan. Hamımız vətənpərvərik, vətənimizi sevirik. Ola bilər ki, ölkəmizin inkişafı ilə bağlı müxtəlif fikirlərimiz olsun. Bu da təbiidir. Ancaq biz əsas amallar ətrafında daim bir yerdə olmalıyıq”.

İlham Əliyev

Qarabağ Azərbaycandır!

Fransa və digərləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini dəfələrlə bildiriblər. Zatən danışıqların da aparıldığı baza prinsiplərindən biri budur. Elə BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi və Fransanın da imza atdığı qətnamələrin mətni də işğalçı qüvvələrin çıxarılmasını tələb etmirmi?! Məgər Emmanuel Makron Fransanın imzasını inkarmı edir, yoxsa ölkəsinin mövqeyi ilə razı deyil?! Şübhəsiz ki, bu ritorikanın arxasında ermənipərəst qüvvələr və erməni lobbisi durur. Yəqin ki, vaxtilə erməni tərəfini arxayın ediblər, indi də onların zənglərinə nə cavab verəcəklərini bilmirlər. Əgər onlar haqlının tərəfində durub təcavüzkarı qınasaydılar, beynəlxalq hüququ müdafiə edib günahkarı cəzalandırsaydılar, belə vəziyyət yaranmazdı.

Haqq-ədalət bizim tərəfimizdədir, biz ədalətli müharibə aparırıq, torpaqlarımızı işğaldan qurtarırıq, özünə qiymət qoyan bir dövlət kimi vəzifəmizi yerinə yetiririk, vətəndaşlarımızın hüquq və mənafelərini, təhlükəsizliyini təmin edirik.

Kimlərinsə bundan vahiməyə düşməsi isə əsassızdır. Çünki Azərbaycan Ordusunun əks-hücum əməliyyatları beynəlxalq hüquq normalarına uyğun aparılır. Şanlı ordumuz BMT Təhlükəsizlik Şurasının işğal olunmuş Azərbaycan torpaqları ilə bağlı qəbul etdiyi qətnamələri həyata keçirir, suverenliyimizi və ərazi bütövlüyümüzü təmin etmək üçün vətən torpaqlarındakı bütün qanunsuz hərbi birləşmələri, terror qruplaşmalarını, Suriya və digər bölgələrdən gəlmiş yaraqlıları zərərsizləşdirir.

- Fəzail müəllim, yeni seçilmiş parlamentdə bir çox partiyalar təmsil olunub. Bunu ölkəmizdə çoxpartiyalı parlament sisteminin bərqərar olunması kimi qiymətləndirmək olarmı? Yeri gəlmişkən, Milli Məclisdə təmsil olunan siyasi partiyaların iştirakı ilə “Azərbaycanda yeni siyasi konfiqurasiya: pandemiya dövrü və yeni çağırışlar” mövzusunda videokonfransın keçirilməsi də bu istiqamətdə atılan addımların növbəti mərhələsidir desək, yəqin ki, yanılmarıq.

- Çoxpartiyalı sistemə gəldikdə ilk növbədə deyim ki, bizim dövlətimiz Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və bu ənənə bu gün də davam etdirilərək çoxpartiyalı sistemin əsasları möhkəmləndirilir. Bir sıra

yeni partiyaların qeydiyyata alınması, Prezident Administrasiyasında siyasi partiya liderləri ilə görüşlərin keçirilməsi ölkədə çoxpartiyalılıq sistemini və partiyalararası dialoq mühitini daha da inkişaf etdirir.

Onu da qeyd edim ki, bu dialoq mühiti öz-özünə ərsəyə gəlməyib; ölkə rəhbərliyinin apardığı siyasətin, siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara eyni qayğının göstərilməsinin yaratdığı etimad və güvəncdən irəli gəlir. Misal üçün, hökuməti daim tənqid edən partiya liderlərinin, hüquq müdafiəçiləri və QHT mənsublarının səhhətində ciddi problem yarandıqda onların müalicəsini dövlət və ya Heydər Əliyev Fondu öz üzərinə götürür. Bütün bunlar Prezidentin və Birinci vitse-prezidentin yüksək humanizmindən və ali keyfiyyətlərindən xəbər verir.

Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların gətirdiyi dəyişikliklər bütövlükdə ölkədə yeni dialoq və əməkdaşlıq şəraitini daha da möhkəmləndirmiş, sabitliyin, siyasi və milli həmrəyliyin intişar etdirilməsi üçün sağlam zəmin yaratmışdır.

Həyata keçirilən son islahatlar, o cümlədən Milli Məclisə növbədənkənar seçkilər göstərir ki, Azərbaycanda intensiv şəkildə çoxpartiyalı siyasi sistemin yeni konfiqurasiyasının formalaşması prosesi gedir.

VI çağırış Milli Məclisin tərkibində bir çox partiyaların təmsil olunması, ilk dəfə müxalifət düşərgəsi nümayəndəsinin spikerin müavini vəzifəsinə seçilməsi, bununla yanaşı müxalifət nümayəndələrinin həm sədr, həm də müavin vəzifələrində parlamentin komitələrinə rəhbərlik etmələri dövlət idarəçiliyində çoxpartiyalı siyasi sistemin təmsilçiliyinin genişləndiyini və ölkəmizdə çoxpartiyalı parlament sisteminin bərqərar olduğunu göstərir. Bir sözlə, Azərbaycanda siyasi sistemin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar uğurlu nəticələrini verir, siyasi sistem möhkəmlənir, siyasi münasibətlər sağlam zəmində inkişaf edir.

Parlamentdəki müxtəliflik fərqli fikirlərin rəqabətinə meydan açmaqla doğru yolu tapmaqda bizə kömək edir. Parlament plüralizmi demokratik proseslərə stimul verməklə qanunvericilik orqanının fəaliyyətinə də müsbət təsir göstərir.

Qanunverici məclisimiz fikir yeknəsəkliyindən qurtularaq cəmiyyətdəki fikir plüralizminin güzgüsünə, müxtəlif görüşlərin platformasına çevrilib.

Milli Məclis dünyanı bürüyən pandemiya şəraitində fəaliyyətə başladı və işini karantin qaydalarına uyğun uğurla davam etdirdi. Biz İnternet üzərindən videokonfranslar, informasiya mübadilə qrupları və yaxud telefon vasitəsi ilə müxtəlif formalarda işimizi qura bildik. Parlament yaz sessiyası və növbədənkənar sessiya dövründə qarşısına qoyduğu vəzifələri layiqincə yerinə yetirdi.

Artıq başa çatmış yaz və növbədənkənar sessiyalarda parlamentin uğurla fəaliyyət göstərməsi, eləcə də ona ictimai rəyin müsbət olması həyata keçirilən islahatların pozitiv nəticəsi kimi qiymətləndirilə bilər.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin də iştirakı ilə Milli Məclisdə təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri tərəfindən siyasi partiyalar arasında geniş müzakirələrin aparılması məqsədi ilə videokonfrans formatında keçirilən görüşdə müasir çağırışlar fonunda siyasi partiyaların fəaliyyəti müzakirə edildi.

Bu gün biz ölkəmizdə, sizin də qeyd etdiyiniz kimi, yeni siyasi sistemin formalaşmasının şahidi oluruq.

Bu müstəvidə iqtidar-müxalifət dialoqu intensiv şəkildə aparılır. Parlamentdə təmsil olunan partiyalarla deyil, ümumiyyətlə, respublikada mövcud olan bütün partiyalarla münasibətlər müstəqil, sivil formada qurulur. Çünki ölkəmizin geosiyasi vəziyyəti, böyük dövlətlərin Azərbaycandakı marağı, o maraqlar

altındakı məkrli niyyətlər artıq hər birimizə bəllidir. Özümüz özümüzə güvənc və güman yeri olmalıyıq. Biz haradansa, kimdənsə kömək ummaqdan daha çox daxildə Tanrının verdiyi, dövlətimizin yaratdığı siyasi sabitliyi, haqqımızı yaşamalıyıq və birlikdə olub yenə də taleyin bizə qismət etdiyi bədxah qonşularımızın qarşısında güclü olmalıyıq.

Ölkədə siyasi partiyalarla aparılan dialoqun nəticəsində partiyalararası sağlam əməkdaşlıq mühiti yaranmağa, milli həmrəylik möhkəmlənməyə başlayıb. Bu il iyulun 15-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşib və birgə dəstək bəyanatı imzalayıblar.

Siyasi partiyaların Vətən müharibəsinin ilk günündən ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədi ilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləmələri tarixi əhəmiyyət kəsb edən hadisədir. Bu, milli, siyasi birliyimizin, həmrəyliyimizin göstəricisi olmaqla mənfur düşmənə qarşı mübarizədə gücümüzə güc qatır.

Müxalifət - söyən, təhqir edən, aqressiv münasibət bəsləyən qüvvələr demək deyil. Əsl müxalif sağlam düşüncə və fikir sahibləridir. Dövlətin inkişafına qüsur gətirən, cəmiyyətin nəzərində dövləti aşağılayan, dünya ictimaiyyətinin nəzərində mənfi münasibət reallaşdıran addımlara qarşı çıxan qüvvələrdir əsl müxalifət.

> VI çağırış Milli Məclisin tərkibində bir çox partiyaların təmsil olunması, ilk dəfə müxalifət düşərgəsi nümayəndəsinin spikerin müavini vəzifəsinə seçilməsi, bununla yanaşı müxalifət nümayəndələrinin həm sədr, həm də müavin vəzifələrində parlamentin komitələrinə rəhbərlik etmələri, dövlət idarəçiliyində çoxpartiyalı siyasi sistemin təmsilçiliyinin genişləndiyini və ölkəmizdə çoxpartiyalı parlament sisteminin bərqərar olduğunu göstərir.

- Ümumiyyətlə, modern dövlət quruculuğunda müxalifətin rolunu və funksiyasını necə görürsünüz?

- Müxalifətin rolu ondan ibarət olmalıdır ki, hakimiyyət daim məsuliyyət hiss etsin. Müxalifət "Demokl qılıncı" kimi hakimiyyətin başı üzərindən asılıb "sənin çiyninə sancılacam, sənin kürəyinə saplanacam" kimi yox, "məsuliyyət hiss et, mən hər şeyi görürəm" prinsipi ilə yanaşmalıdır. Bu rolu üzərinə götürən adamın özünün tərcümeyi-halı, istəyi, vətənə bağlılığı isə o qədər saf olmalıdır ki, əks tərəfdə qüsur axtarmaq haqqına sahiblənə bilsin, hər hansı bir addım atmağa siyasi və mənəvi haqqı olsun. Bu olur dürüst müxalifətçilik.

Müxalifətin özü də müasir tələblərə uyğun formalaşmalıdır. İndiki məqam bizim hamımızdan şəxsi ambisiyalardan əl çəkib milli maraqlar naminə vahid qüvvə kimi çıxış etməyi tələb edir. Tarixi ədalət və haqq uğrunda aparılan müharibədə xalq, iqtidar və müxalifət həmrəy olmalı, çəkici bir zindana vurmalıdır ki, bu haqq işində mütləq qalib gələk!

Ülviyyə Abdullayeva
Mübariz Əsgərov

Milli Məclisin Sədri Sahibə Qafarova ilk rəsmi səfərini qardaş Türkiyəyə etdi

Sahibə Qafarova:

“Azərbaycanla Türkiyə arasında mövcud olan birlik bizə gələcəyimizi də birgə qurmağa imkan verir”

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti ilk rəsmi səfərini sentyabrın 10-da Türkiyə Respublikasına edib. Nümayəndə heyətinin tərkibinə deputatlar Əhliman Əmiraslanov, Ziyafət Əsgərov, Sevil Mikayılova, Fazil Mustafa, Elşən Musayev, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil idilər.

Sentyabrın 11-də Azərbaycan nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentopla görüşüb.

Söhbət zamanı Mustafa Şentop Türkiyə və Azərbaycanın qardaş ölkələr olduğunu vurğulayıb və qeyd edib ki, Türkiyə və Azərbaycan əsrlər boyu dərin tarixi dostluq və qardaşlıq kökləri ilə bağlı olan iki dövlət, bir millətdir: “Azərbaycanın acısı bizim acımız, Azərbaycanın sevinci bizim sevincimizdir”.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Mustafa Şentop diqqətə çatdırıb ki, Ermənistan təkcə Azərbaycana deyil, bütün bölgəyə təhdiddir. Dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın söylədiyi kimi, biz hər zaman Azərbaycanın yanındayıq və Azərbaycana istənilən məsələdə dəstək olmağa hazırıq.

TBMM-in Sədri qeyd edib ki, Azərbaycan Prezidentinin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər Türkiyənin 83 milyonluq əhalisinin qəlbinə su səpdi.

Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin başçısı kimi ilk olaraq Türkiyəni ziyarət etməsindən məmnunluq duyduğunu bildirib və qeyd edib ki, ölkələrimiz arasında gözəl bir ənənə formalaşıb - yüksək vəzifəli dövlət rəsmilərimiz vəzifələrinin icrasına başladıqda xarici ölkələrə ilk rəsmi səfərlərini bir-birini ziyarət etməklə gerçəkləşdirirlər:

"Mən də bu gözəl ənənəyə sadiq qalaraq ilk rəsmi səfərimi məhz dost Türkiyədən başladım. Bu gün Azərbaycanla Türkiyə arasında əlaqələr strateji müttəfiqlik səviyyəsindədir".

Sədr diqqətə çatdırıb ki, xalqlarımız arasındakı qardaşlıq parlamentlər arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda özünü göstərir. Dostluq qruplarının təmaslarının intensivləşməsi ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsinə mühüm töhfələr verir.

Sədr iyulun 12-də Ermənistan tərəfindən Tovuz istiqamətində sərhəddə törədilən təxribatla bağlı Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanın - AKP, CHP, MHP və İYİ Partinin ortaq bəyanatla çıxışına görə Türkiyə siyasətçilərinə, siyasi partiyalarına bir daha dərin minnətdarlığını bildirib.

Söhbətdə pandemiya ilə mübarizə sahəsində hər iki ölkədə görülən işlər, regional münaqişələrin həlli yolları və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Parlament nümayəndə heyəti həmin gün Türkiyənin ticarət naziri xanım Ruhsar Pekcan ilə görüşüb.

Görüşdə xanım nazir bildirib ki, 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,4 milyard dollar təşkil edib və bu sahədə hədəf Azərbaycanla sərbəst ticarət anlaşması imzalamaqdır. Ruhsar Pekcan pandemiya dövründə daşımalarda Gürcüstan-Azərbaycan-Xəzər istiqamətinin daha böyük önəm qazandığını diqqətə çatdırıb. O, ölkəsinin Naxçıvanla ticarət əlaqələrinin inkişafına da xüsusi diqqət verdiyini söyləyib.

Azərbaycan parlamentinin Sədri Sahibə Qafarova bildirib ki, "bir millət, iki dövlət" sözlərinin arxasında çox böyük həqiqət var: "Azərbaycanla Türkiyə arasında mövcud olan birlik bizə gələcəyimizi də birgə qurmağa imkan verir".

Söhbətdə ölkələrimizin birgə həyata keçirdikləri qlobal neft-qaz layihələrindən, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətindən və digər məsələlərdən danışılıb.

* * *

Səfər zamanı Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyəti Ankaradakı Heydər Əliyev parkında olub.

Sədr iyulun 12-də Ermənistan tərəfindən Tovuz istiqamətində sərhəddə törədilən təxribatla bağlı Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanın – AKP, CHP, MHP və İYİ Partinin ortaq bəyanatla çıxışına görə Türkiyə siyasətçilərinə, siyasi partiyalarına bir daha dərin minnətdarlığını bildirib.

Ümummilli liderin orada ucaldılmış heykəli önünə əklil qoyulub.

* * *

Ankarada parlament nümayəndə heyəti Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib. Azərbaycan parlamentinin Sədri Sahibə Qafarovanın adından məzarın önünə əklil qoyulub. Milli Məclisin spikeri Xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Türkiyəyə səfər çərçivəsində deputatlarımız Ankarada 2016-cı ildə baş vermiş 15 iyul dövlət çevrilişinə cəhd zamanı Türkiyə Böyük Millət Məclisinin inzibati binasının bombalanmış hissəsi ilə tanış olublar. Burada deputatlara o dövrdəki hadisələr barədə geniş məlumat verilib.

* * *

Sentyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində İstanbul şəhərində Prezident Rəcəb Tayyib Ərdoğanla görüşüb.

Görüşdə parlamentin Sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırıb. Spiker bildirib ki, ölkələrimiz bütün taleyüklü məsələlərdə bir-birini dəstəkləyir və bir-birinə arxalanır. O deyib: "Ermənistanın iyulun 12-də Tovuz rayonu istiqamətində törətdiyi təxribatla bağlı şəxsən sizin, xarici işlər naziri cənab Mövlud Çavuşoğlunun, milli müdafiə naziri cənab Hulusi Akarın bəyanatları Azərbaycan xalqı tərəfindən çox böyük təqdirlə qarşılandı. Biz qardaş Türkiyənin dəstəyini hər zaman hiss etmişik və bu dəstəyin birmənalı şəkildə ifadə olunmasına görə sizə və Türkiyə hökumətinin üzvlərinə dərindən təşəkkür edirik".

Söhbətdə Milli Məclisin Sədri Qara dənizdə kəşf edilən təbii qaz yatağı ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik edib və bunun qardaş ölkənin enerji ehtiyaclarının təmin olunmasında əhəmiyyətini vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan yeni seçilmiş Azərbaycan parlamentinə uğurlar arzulayıb. Türkiyə dövlətinin başçısı onun salamlarını və ən xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib.

Prezident bildirib ki, Türkiyə və Azərbaycan iki qardaş ölkədir. "Bu günlərdə Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər buna bariz nümunədir. Buna görə başda Prezident İlham Əliyev olmaqla bütün qardaş Azərbaycan xalqına bir daha təşəkkürümüzü bildiririk", - deyə dövlət başçısı qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını bir daha diqqətə çatdırıb.

> **"Biz qardaş Türkiyənin dəstəyini hər zaman hiss etmişik və bu dəstəyin birmənalı şəkildə ifadə olunmasına görə sizə və Türkiyə hökumətinin üzvlərinə dərindən təşəkkür edirik".**
>
> **Sahibə Qafarova**

İki ölkənin bölgədə birgə həyata keçirdikləri iqtisadi layihələrə toxunan Rəcəb Tayyib Ərdoğan bildirib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri strateji əməkdaşlığımızın bir parçasıdır.

Prezident iki qardaş ölkənin parlamentləri arasındakı münasibətlərdən məmnunluğunu ifadə edərək, hər iki ölkə deputatlarının beynəlxalq təşkilatlarda fəaliyyətlərini təqdir edib.

Sentyabrın 12-də Azərbaycan parlamentinin nümayəndə heyəti vətənə qayıdıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi

Milli Məclisin Sədri Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasında çıxış etdi

Sahibə Qafarova:

“Azərbaycan xalqı tarixi torpaqlarında ikinci bir erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək”

Sentyabrın 21-23-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Rusiya Federasiyasında rəsmi səfərdə olub. Bu, Sahibə Qafarovanın Milli Məclisin Sədri kimi Rusiyaya ilk rəsmi səfəridir.

Nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatları Səməd Seyidov, Nizami Səfərov, Eldar Quliyev, Mixail Zabelin, Əminə Ağazadə, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil idi.

Səfərin ilk günü Milli Məclisin nümayəndə heyəti Azərbaycanın Moskvadakı Səfirliyinə gələrək orada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin barelyefi önünə əklil qoyub.

Sentyabrın 22-də spiker Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb. Müsbət əhval-ruhiyyədə və maraqlı müzakirələr şəraitində keçən görüşdə xanım Matviyenko bu səfərin yüksək qiymətləndirildiyini vurğulayıb. Görüşdə ikitərəfli münasibətlərin bir çox vacib aspektləri müzakirə olunub. Parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilib.

Daha sonra vurğulanıb ki, bu səfər Rusiya parlamenti ilə Azərbaycan Milli Məclisi arasındakı mövcud sıx münasibətləri davam etdirmək baxımından hörmət əlaməti və çox yaxşı niyyətdir. Federasiya Şurasının Sədri Azərbaycanın Rusiya üçün strateji tərəfdaş olduğunu vurğulayaraq, parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin qurulmasında vacib rol oynadığını qeyd edib. Valentina Matviyenko XXI əsrdə bəşəriyyətin bəlası olan COVID-19-la mübarizədə Azərbaycanın atdığı addımları yüksək qiymətləndirərək, bu sahədə ölkəmizin Rusiyaya verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxışında bu səfərin və keçiriləcək



görüşlərin iki ölkənin uğurla inkişaf edən parlamentlərarası münasibətlərinə yeni impuls verəcəyinə əminliyini ifadə edib. Bildirib ki, iki ölkə arasındakı hərtərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında dövlət başçıları İlham Əliyevin və Vladimir Putinin siyasi dialoqu və çoxsaylı qarşılıqlı səfərləri mühüm rol oynayır.

İki ölkənin humanitar və mədəni sahələrdəki münasibətlərindən danışan Sahibə Qafarova qeyd edib ki, bu əlaqələr heç də iqtisadi və siyasi əlaqələrdən az rol oynamır. Milli Məclisin Sədri iki ölkənin humanitar və mədəni sahələrdə əməkdaşlığının inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük töhfələr verdiyini xatırladıb. Bildirib ki, Prezident Vladimir Putin iki ölkə arasındakı humanitar və mədəni əlaqələrin inkişafındakı xidmətlərinə görə Mehriban Əliyevanı 2019-cu ilin noyabrında "Dostluq" ordeni ilə təltif edib.

Sentyabrın 23-də Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının payız sessiyasının açılışında çıxış edib. Qeyd edək ki, ilk dəfədir ki, Azərbaycan Milli Məclisinin Sədri Federal Məclisin Federasiya Şurasında çıxış etmişdir.

İki ölkə arasındakı hərtərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında dövlət başçıları İlham Əliyevin və Vladimir Putinin siyasi dialoqu və çoxsaylı qarşılıqlı səfərləri mühüm rol oynayır.

Milli Məclisin Sədri çıxışında Azərbaycan-Rusiya münasibətlərinin tarixi köklərindən bəhs edib, iki ölkə arasında əlaqələrin mövcud vəziyyəti haqqında məlumat verib. Qeyd olunub ki, Azərbaycan ilə Rusiya arasında stabil, mehriban qonşuluq münasibətləri mövcuddur. Ölkələrimiz arasında 200-dən çox dövlətlərarası, hökumətlərarası və idarələrarası sənəd imzalanıb. Bu sənədlər ən müxtəlif sahələrdə, o cümlədən ticarət-iqtisadi, sosial, humanitar, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın möhkəm hüquqi bazasını təşkil edir.

Daha sonra Milli Məclisin Sədri Federasiya Şurasının yüksək tribunasından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək diqqətə çatdırıb ki, 1805-ci il mayın 14-də Azərbaycanda Gəncə şəhərinin yaxınlığında yerləşən Kürəkçay qəsəbəsində Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında "Kürəkçay" müqaviləsi bağlanıb. Müqavilə Qarabağ xanı İbrahimxəlil xan və Rusiya imperiyasının generalı Pavel Sisianov tərəfindən imzalanıb. Sonralar 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələri əsasında Azərbaycanın digər əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Rusiya imperiyası süquta uğradıqdan sonra 1918-ci ildə Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb və 2 il mövcud olub. 1920-ci ildə məlum olduğu kimi, Azərbaycanda sovet hakimiyyəti qurulub. Bir il sonra isə - 1921-ci ildə Bolşevik Partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul edib. Bəzi saxtakar erməni mənbələrinin əsassız olaraq iddia etdiyi kimi, "təhvil verilməsi" deyil, "saxlanılması" haqqında. 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə qərar qəbul edib. Burada həyat səviyyəsi ölkənin digər regionlarından daha yüksək idi.

Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, Ermənistan Dağlıq Qarabağın ələ keçirilməsi cəhdlərindən heç vaxt əl çəkməyib. XX əsrin 80-ci illərində bu, bir daha baş verdi. Həmin vaxt əsrlər boyunca öz tarixi torpaqlarında yaşamış olan yüz minlərlə azərbaycanlı Ermənistandan qovuldu, 700 min etnik azərbaycanlı isə Dağlıq Qarabağ və ətraf 7 rayonda öz daimi yaşayış yerindən didərgin salındı. Etnik təmizləmə nəticəsində dinc əhali çoxsaylı qurbanlar verdi və işğal edilmiş ərazilərdə müasir beynəlxalq humanitar hüquqa baxmayaraq, qeyri-qanuni olaraq demoqrafik vəziyyət dəyişdirildi.

Ən yüksək səviyyədə - BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Er-

mənistan silahlı birləşmələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etməsinə baxmayaraq, atəşkəs rejimini daim pozan Ermənistan tərəfindən həmin qətnamələrə bu günədək məhəl qoyulmur.

Sahibə Qafarova Ermənistanın son təxribatına diqqət çəkərək bildirib ki, bu hadisə artıq Qarabağda deyil, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verdi. Belə ki, cari il iyulun 12-də Tovuz rayonu istiqamətində yaşayış məntəqələri artilleriya atəşinə tutuldu. Nəticədə azərbaycanlı hərbçilər və mülki şəxslər həlak oldu və yaralandı. Bütün bunlar beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının və 1977-ci il iyunun 8-də qəbul edilmiş Əlavə Protokolun ciddi şəkildə pozulması deməkdir və hərbi cinayət kimi qiymətləndirilir.

Parlamentin Sədri bildirib ki, Azərbaycan münaqişənin danışıqlar masası arxasında, sülh yolu ilə həllinin tərəfdarıdır. O, münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının vacibliyini qeyd edərək Azərbaycan xalqının tarixi torpaqlarında ikinci bir erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyini vurğulayıb.

Parlament nümayəndə heyəti həmin gün Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində Moskva şəhərinin "Aleksandr" bağına gələrək orada "Naməlum əsgər" məzarının önünə əklil qoyub.

Milli Məclisin nümayəndə heyəti növbəti görüşünü sentyabrın 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla keçirib. Söhbət zamanı nazir Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin tarixi, Madrid prinsiplərinin əldə olunması, onların mahiyyəti barədə danışıb. O, eyni zamanda, Rusiya tərəfinin ATƏT-in Minsk qrupunun həmsədri kimi mövqeyini bir daha dilə gətirərək deyib ki, Rusiya münaqişənin sülh yolu ilə, danışıqlar vasitəsi ilə həllini dəstəkləyir. O, ölkəsinin əvvəllər əldə olunmuş razılaşmalar əsasında qarşılıqlı məqbul həll yolunun axtarışını təşviq etməyə davam etdiyini bildirib. Sergey Lavrov ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə tərəflər arasında danışıqların tezliklə bərpa olunmasının vacibliyini qeyd edib. O, həmçinin Rusiyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha diqqətə çatdırıb.

Görüşdə deputatlarla nazir arasında geniş fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti daha sonra Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb. Cənab Volodin də iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyətindən danışaraq, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin yüksək səviyyədə olmasını qeyd edib. Görüşdə tərəflər əlaqələrin daha da inkişafı üçün geniş fikir mübadiləsi aparıb. Milli Məclisin Sədri Sahibə Qafarova Vyaçeslav Volodini Azərbaycana səfərə dəvət edib və bu dəvət qəbul olunub. Həmin səfər zamanı müvafiq yüksək səviyyəli komissiyanın yaradılması barədə razılıq əldə edilib.

Bununla da Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Rusiya Federasiyasına rəsmi səfəri başa çatıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi

Oktyabrın 14-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İsakzai ilə görüşüb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Sədr BMT-nin bu münaqişəyə dair qəbul etdiyi 4 qətnamənin bugünədək yerinə yetirilməməsini təəssüf hissi ilə qeyd edib. Spiker Ermənistan silahlı qüvvələrinin Azərbaycanın iri şəhərlərini, rayon mərkəzlərini və kəndlərini artilleriya atəşinə, raket hücumlarına məruz qoyduğunu, mülki əhalini və mülki obyektləri hədəfə aldığını bildirib.

Sədr deyib ki, Azərbaycan problemin beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır.

Öz növbəsində BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İsakzai problemin tezliklə həllini tapacağına ümidvar olduğunu bildirib. Sonra qonaq qlobal pandemiya - COVID-19-a qarşı mübarizədə Azərbaycanın təşəbbüslərini və gördüyü işləri təqdir edib.

Görüşdə BMT ilə ölkəmiz arasında əməkdaşlığın inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

✓ ✓ ✓

Oktyabrın 9-da Milli Məclisin Sədri Sahibə Qafarova Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada ilə görüşüb. Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibəti ilə təbrik edən Milli Məclisin Sədri ölkələrimiz arasında münasibətlərin uğurla inkişat etdiyini söyləyib. Spiker Azərbaycanla Yaponiya arasında münasibətlərin inkişaf etdirilməsində ölkə parlamentlərinin rolunu vurğulayaraq, sıx münasibətlərin bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında bəzi faktları Yaponiya səfirinin diqqətinə çatdıran Sahibə Qafarova ötən dövr ərzində münaqişəyə dair beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri barədə məlumat verib. Spiker son proseslərə toxunaraq Ermənistanın işğalçılıq siyasətini həm region, həm də digər dünya dövlətləri üçün təhlükə mənbəyi kimi qiymətləndirib.

Azərbaycanın Ali Baş Komandanının rəhbərliyi ilə şanlı ordumuzun həyata keçridiyi əks-hücum əməliyyatları barədə də səfiri məlumatlandıran spiker qeyd edib ki, dünyanın ən güclü orduları sırasında yer alan qüdrətli Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının qarşısını qətiyyətlə alır; işğal altında olan bəzi ərazilərimiz artıq azad edilib. Sahibə Qafarova Ermənistan tərəfindən xarici terrorçu qruplaşmaların üzvlərinin, muzdluların Azərbaycan Ordusuna qarşı döyüşmək məqsədi ilə işğal altındakı torpaqlarımıza göndərilməsi məsələsinə toxunaraq, bunun da beynəlxalq hüquqa zidd olmaqla, beynəlxalq təhlükəsizliyin pozulmasına şərait yaradan amil olduğunu qeyd edib.

Öz növbəsində səfir Cuniçi Vada Azərbaycanın sabit, təhlükəsiz və dinamik inkişaf edən ölkə olduğunu bildirib. Cuniçi Vada ölkələrimiz arasında münasibətlərin məmnunluq doğurduğunu söyləyib.

✓ ✓ ✓

Oktyabrın 8-də Milli Məclisin Sədri Sahibə Qafarova İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb.

Görüşdə iki ölkə arasında olan münasibətlərin hazırkı səviyyəsinə toxunan Sədr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəklədiyinə görə İsrail Dövlətinə təşəkkürünü bildirib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə səfirə məlumat verib.

Milli Məclisin rəhbəri Sahibə Qafarova iki ölkənin parlamentləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq qeyd edib ki, bu baxımdan hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qrupları mühüm rola malikdir.

Öz növbəsində səfir Corc Dik Sahibə Qafarovanı Milli Məclisin Sədri kimi yüksək vəzifəyə seçil-

məsi münasibəti ilə təbrik edib. Azərbaycanda qadınların ictimai-siyasi həyatdakı rolundan danışan səfir qeyd edib ki, Azərbaycan Şərqdə qadına seçki hüququ verən ilk ölkə kimi bu gün də qadınların həyatın müxtəlif sahələrində fəal təmsil olunmasına şərait yaradır.

Diplomat vurğulayıb ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və bu baxımdan digər ölkələrə nümunədir. Ermənistan-Azərbaycan münaqişəsinə toxunan səfir İsrailin məsələnin beynəlxalq hüququn prinsipləri əsasında həllinə tərəfdar olduğunu diqqətə çatdırıb.

Görüşdə iki ölkənin müasir texnologiyalar, energetika və digər sahələr üzrə əməkdaşlığı barədə də fikir mübadiləsi aparılıb.

✓ ✓ ✓

Oktyabrın 8-də Milli Məclisin Sədri Sahibə Qafarova Kolumbiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenasla görüşüb.

Sahibə xanım Qafarova Azərbaycanla Kolumbiya arasında münasibətlərin inkişaf etdirilməsində ölkə parlamentlərinin rolu barədə danışıb.

Spiker Ermənistanın cəbhə xəttinin müxtəlif istiqamətlərində atəşkəs rejimini pozaraq törətdiyi təxribatlarla bağlı Kolumbiya Senatının Xarici Əlaqələr Komissiyası tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən bəyannamənin qəbul edilməsinə görə kolumbiyalı parlamentarilərə azərbaycanlı həmkarlarının minnətdarlığını çatdırmağı səfirdən xahiş edib.

Sahibə Qafarova Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bəzi tarixi faktları, həmçinin BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qətnamələrini, beynəlxalq qurumlar tərəfindən qəbul olunan digər sənədləri səfirin diqqətinə çatdırıb.

Milli Məclis Sədrinin bir sıra beynəlxalq təşkilatların və parlamentlərin rəhbərləri ilə telefon danışığı olub

Oktyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko arasında baş tutan telefon danışığında Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturunun məqsədli şəkildə hədəfə alınması müzakirə olunub. Milli Məclisin Sədri oktyabrın 11-də Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin Ermənistan silahlı qüvvələrinin raket atəşinə tutulması nəticəsində azyaşlı uşaqlar da daxil olmaqla 10 mülki şəxsin həlak olmasını, 30-dan çox vətəndaşımızın yaralanmasını diqqətə çatdırdı. Qeyd olundu ki, Ermənistanın mülki əhalini və mülki obyektləri hədəfə alan bu hücumları müharibə cinayətidir, beynəlxalq hüququn, o cümlədən 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyasının tələblərinin kobud şəkildə pozulması deməkdir. Milli Məclisin Sədri Ermənistanın Gəncə ilə yanaşı, sənaye infrastrukturunun və Cənubi Qafqazın ən böyük elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini və digər yaşayış məntəqələrini də ağır artilleriya atəşinə tutduğunu qeyd edib. Oktyabrın 10-da Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Rusiyanın vasitəçiliyi ilə Moskvada keçirilən görüşündə humanitar atəşkəs barədə razılaşma əldə olunmasından sonra da Ermənistan tərəfinin mülki şəxsləri və mülki obyektləri qəsdən atəşə tutması Federasiya Şurasının Sədrinin diqqətinə çatdırılıb.

Sahibə Qafarova hazırda regionda yaranmış gərgin vəziyyətə görə tam məsuliyyətin Ermənistan siyasi-hərbi rəhbərliyinin üzərində olduğunu bildirib.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko yaranmış vəziyyətdən narahatlığını bildirib və atəşkəsin təmin edilməsinin vacibliyini vurğulayıb.

✓ ✓ ✓

Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Şimali Kipr Türk Cümhuriyyətinin Cümhuriyyət Məclisinin Sədri Teberrüken Uluçay arasında telefon danışığı olub. Telefon danışığı zamanı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar müzakirə edilib. Cümhuriyyət Məclisinin Sədri Teberrüken Uluçay bildirib ki, Şimali Kipr Türk Cümhuriyyəti Azərbaycanın öz torpaqlarını azad etmək üçün başladığı əks-hücum əməliy-

yatlarını dəstəkləyir və tezliklə Azərbaycan torpaqlarının işğalçılardan təmizlənəcəyinə inanır.

✓ ✓ ✓

Oktyabrın 1-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Parlamentlərarası İttifaqın Prezidenti Qabriela Kuevas Barron arasında telefon danışığı olub. Telefon söhbətində Milli Məclisin Sədri Parlamentlərarası İttifaqın Prezidentinə sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən cəbhə xəttində törədilən hərbi təxribatlar barədə məlumat verib. Sahibə Qafarova telefon danışığında beynəlxalq ictimaiyyəti Ermənistanın işğalçı siyasətini sərt şəkildə qınamağa çağırıb.

✓ ✓ ✓

Sentyabrın 29-da Milli Məclisin Sədri Sahibə Qafarova ilə ATƏT Parlament Assambleyasının Prezidenti Georgi Tsereteli arasında telefon danışığı olub.

Telefon söhbətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son vəziyyət, Ermənistanın Azərbaycana təcavüzü müzakirə edilib. Milli Məclisin Sədri bildirib ki, Ermənistan silahlı qüvvələrinin dinc yaşayış məskənlərini və mülki əhalini hədəfə alması 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyası da daxil olmaqla beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır.

✓ ✓ ✓

Sentyabrın 29-da Türkiyə Böyük Millət Məclisinin Parlamentlərarası İttifaqda nümayəndə heyətinin rəhbəri Ravza Kavakçı Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib. Milli Məclisin spikeri telefon danışığında Dağlıq Qarabağ ərazisində məlum hadisələrlə əlaqədar Türkiyə rəsmilərinin və ictimai xadimlərinin Azərbaycana hər cür dəstək verməsinin çox önəmli olduğunu, dost və qardaş xalqın dəstəyinin qürur verdiyini bildirib. Milli Məclisin Sədri qeyd edib ki, Türkiyənin Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi "bir millət, iki dövlət" ifadəsinin real təcəssümüdür. Spiker Sahibə Qafarova TBMM-də təmsil olunan bütün siyasi partiyaların bu sınaq günlərində Azərbaycanla həmrəy olduqlarını öz bəyanatlarında ifadə etməsini təqdirəlayiq hal kimi qiymətləndirib və partiyalara bu ədalətli mövqeyinə görə təşəkkür edib.

✓ ✓ ✓

Sentyabrın 29-da Milli Məclisin Sədri Sahibə Qafarovanın Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin ilə telefon danışığı olub. Tərəflər Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatları müzakirə edib. Sahibə Qafarova bildirib ki, Azərbaycan Ermənistanın yeni torpaqlar işğal etmək üçün müharibəyə hazırlaşdığı barədə beynəlxalq ictimaiyyətə dəfələrlə xəbərdarlıq etmişdi. Ona görə də hadisələrin bu cür inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

✓ ✓ ✓

Sentyabrın 28-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancrani arasında telefon danışığı olub.Telefon söhbətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son vəziyyət, Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatlar müzakirə edilib.

Milli Məclisin Sədri görüşdə həmçinin qaçqın və məcburi köçkünlərimiz haqqında məlumat verərək beynəlxalq hüququn tələblərinə məhəl qoymayan işğalçı Ermənistanın dünya ictimaiyyəti tərəfindən qəti şəkildə pislənilməsinin vacibliyini qeyd edib.

Səfir Luis Kardenas dinamik inkişaf edən Azərbaycanın sülhsevər ölkə kimi regionda digər dövlətlərə nümunə olduğunu vurğulayıb.

✓ ✓ ✓

Oktyabrın 7-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb. Spiker Sahibə Qafarova səfir Bilal Hayeni ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibəti ilə təbrik edib. Milli Məclisin Sədri Pakistanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, ölkələrimiz arasında münasibətlərin dinamik inkişaf etdiyini bildirib.

Görüşdə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə də məlumat verilib.

Səfir ölkəsinin qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ məsələsində həmişə dəstəklədiyini bir daha bəyan edib.

Spiker ədalətli mövqeyinə və Azərbaycana göstərdiyi dəstəyə görə, Pakistan İslam Respublikasına minnətdarlığını bildirib.

Görüşün sonunda səfir Pakistan Milli Assambleyasının Sədri Əsəd Qayser tərəfindən Milli Məclisin Sədrinə ünvanlanmış Pakistan İslam Respublikasına səfərə dəvət məktubunu Sahibə Qafarovaya təqdim edib.

✓ ✓ ✓

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova oktyabrın 7-də Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq ilə görüşüb. Spiker Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, ticarət,

turizm və digər sahələrdə uğurla inkişaf etdiyini bildirib. Sədr deyib ki, Almaniya Azərbaycanın vacib iqtisadi tərəfdaşlarından biridir. Humanitar, mədəniyyət, təhsil sahəsində münasibətlərin də inkişaf etdiyini söyləyən Sahibə Qafarova 200 il bundan əvvəl Azərbaycanda məskunlaşmış almanların mədəni irsinə dövlətimiz tərəfindən qayğı göstərildiyini bildirib.

Görüşdə iki ölkənin parlamentləri arasında əlaqələrin də inkişaf etdiyi vurğulanıb.

Səfir Volfqanq Maniq Almaniyanın münasibətlərin mövcud baza üzərində daha da inkişafında maraqlı olduğunu bildirib.

Spiker səfirlə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş məlumat verib. O, Dağlıq Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu bildirib və əlavə edib ki, beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bununla bağlı, bütün nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul olunub.

Sahibə Qafarova sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti dəfə hərbi təxribatlara əl ataraq müxtəlif istiqamətlərdən bizim kəndlərimizə və hərbi mövqelərimizə hücum etdiyini bildirib. Beynəlxalq hüququn prinsiplərinə əməl etməyən Ermənistan mülki vətəndaşları hədəfə alır. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, digər böyük şəhəri olan Mingəçevir Ermənistan tərəfindən raket atəşinə tutulub. Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Ordusu öz torpaqlarında döyüşür və Azərbaycanın heç kəsin torpağında gözü yoxdur. Azərbaycan xalqı torpaqlarının işğaldan tam azad olunmasını istəyir.

✓ ✓ ✓

Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb.

Söhbət zamanı parlamentin spikeri söyləyib ki, Ermənistanın Azərbaycana qarşı təxribatlarının ilk dəqiqələrindən Prezident Rəcəb Tayyib Ərdoğan birmənalı mövqe ortaya qoydu. "Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop şəxsən mənə zəng edərək öz dəstəyini ifadə etdi. Xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar öz mövqelərini ortaya qoydular", - deyə Sahibə Qafarova vurğulayıb.

Sədr Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanın da Ermənistanın ölkəmizə qarşı təxribatlarını pisləyən birgə bəyanatla çıxış etməsini yüksək qiymətləndirdiyini bildirib.

Sahibə Qafarova vurğulayıb ki, Türkiyənin ölkəmizə hərtərəfli dəstəyi Ulu öndər Heydər Əliyevin dediyi kimi, "bir millət, iki dövlət" fəlsəfəsinə uyğundur.

Milli Məclisin Sədri Ermənistanın təxribatları ilə bağlı Türkiyənin televiziya kanallarının mütəmadi verilişlər hazırladığını, "TRT-Xəbər"in ondan müsahibə aldığını da xatırladıb. Sədr Türkiyə Böyük Millət Məclisinin Parlamentlərarası Ittifaqdakı nümayəndə heyətinin rəhbəri, deputat Ravza Kavakçının da telefon zəngini və ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib.

Bu görüşdən və Milli Məclisin Sədrinin sözlərindən dərin məmnunluq duyduğunu bildirən Erkan Özoral diqqətə çatdırıb ki, Qafqaz İslam Ordusunun 100 illiyinin və Azərbaycanın Dağlıq Qarabağın azad edilməsi uğrundakı zəfər yürüşünün onun səfir olduğu dövrə təsadüf etməsinə görə özünü çox şanslı hesab edir. Səfir bildirib ki, Azərbaycan Türkiyənin qardaşıdır. Türkiyə qardaşlıq borcunu yerinə yetirir və bundan sonra da addımlarını bu istiqamətdə atmaqda davam edəcək.

✓ ✓ ✓

Sentyabrın 5-də Milli Məclisin Sədri xanım Sahibə Qafarovanın Pakistan İslam Respublikası Senatının Sədri cənab Məhəmməd Sadiq Sancrani ilə videokonfrans formatında görüşü keçirilib.

Sahibə Qafarova bildirib ki, bu, Milli Məclisin Sədri vəzifəsinə seçiləndən sonra onun xarici həmkarı ilə videokonfrans formatında ilk görüşüdür.



Milli Məclisin spikeri ölkələrimizin dost və qardaşlıq münasibətlərindən söz açaraq, beynəlxalq müstəvidə Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycana verdiyi daimi dəstəyə və işğalçı Ermənistanı dövlət kimi tanımadığına görə təşəkkürünü bildirib. Xanım Sədr 2013-cü ildə Pakistan Senatının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat verməsini, 2012-ci ildə Senatın Beynəlxalq münasibətlər komitəsinin, 2017-ci ildə isə Pakistan Milli Assambleyasının Xarici əlaqələr üzrə daimi komitəsinin Xocalı soyqırımına dair qətnamələr qəbul etməsini məmnuniyyətlə xatırlayıb.

Spiker Azərbaycanın həmişə Pakistanın yanında olduğunu və ölkəmizin Kəşmir probleminin BMT-nin qəbul etdiyi qətnamələr əsasında həll edilməsini dəstəklədiyini diqqətə çatdırıb.

Pakistan İslam Respublikası Senatının Sədri pandemiya dövründə Prezident İlham Əliyevin tapşırığı ilə Pakistana göstərilən 1 milyon dollar məbləğində yardıma görə Azərbaycana təşəkkür edib.

Məhəmməd Sadiq Sancrani vurğulayıb ki, hər iki ölkənin parlamentində qarşılıqlı işçi qrupları fəaliyyət göstərir və onlar parlamentlərarası əlaqələrin inkişafında yaxından iştirak edirlər.

Senat Sədri bildirib ki, Pakistan da həmişə Azərbaycanın yanındadır və hər zaman olduğu kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT-nin qəbul etdiyi qətnamələr əsasında həllini dəstəkləyir.

Parlament sədrləri bir-birini pandemiyadan sonra öz ölkələrinə səfərə dəvət ediblər.

✓ ✓ ✓

Sentyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova deputat seçildiyi Şəmkir rayonundan ali təhsil müəssisələrinə cari ildə keçirilmiş qəbul imtahanlarında yüksək nəticə əldə etmiş abituriyentlərlə videokonfrans formatında görüş keçirib. Abituriyentləri qazandıqları uğurlu nəticələr münasibəti ilə təbrik edən spiker bildirib ki, onların bu yüksək nailiyyətləri Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin, təhsil sahəsində reallaşdırılan tədbirlərin parlaq nəticələridir.

Spiker vurğulayıb ki, ölkəmizdə təhsil və tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm layihələr həyata keçirilir: "Birinci vitse-prezident, hörmətli Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə fəaliyyətini xüsusi qeyd etməliyik. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr ölkəmizdə təhsilin maddi-texniki bazasının yenilənməsinə mühüm töhfələr verir. İnanıram ki, siz gənclər bu imkanlardan uğurla yararlanaraq yaxşı təhsil alacaqsınız", - deyə Sahibə Qafarova bildirib.

Milli Məclisin Sədri gəncləri ictimai həyatda da fəal olmağa çağırıb.

✓ ✓ ✓

İyulun 24-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Rusiyanın Azər-

baycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu qəbul edib.

Səfir Sahibə Qafarovanı Milli Məclisin Sədri seçilməsi münasibəti ilə təbrik edib. Azərbaycan-Rusiya əlaqələrinin möhkəm dostluğa əsaslandığını söyləyən Mixail Boçarnikov iki ölkə arasında olan münasibətlərin müxtəlif sahələri əhatə etməsindən məmnunluğunu bildirib.

Spiker Sahibə Qafarova mövcud münasibətlərin parlamentlərarası əməkdaşlığın gələcək perspektivi üçün müsbət zəmin yaratdığını qeyd edib, humanitar sahədə əməkdaşlığın vacibliyini vurğulayıb.

Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində iyulun 12-dən etibarən Ermənistanın yaratdığı vəziyyətə xüsusi toxunan Milli Məclisin Sədri bir çox beynəlxalq qurumların və təşkilatların Ermənistan tərəfindən törədilən bu təxribatı pislədiyini bildirib.

Xanım Sahibə Qafarova Ermənistan tərəfindən törədilən təxribata etiraz olaraq son zamanlar dünyanın müxtəlif ölkələrində dinc aksiyalar keçirən azərbaycanlılara qarşı ermənilər tərəfindən hücumların təşkil edilməsini kəskin şəkildə pisləyib.

Səfir Mixail Boçarnikov ATƏT-in Minsk qrupunun üzvlərindən biri kimi Rusiyanın problemin sülh yolu ilə həllinə maksimum səy göstərdiyini bir daha qeyd edib.

✓ ✓ ✓

İyunun 27-də 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat seçilən Milli Məclisin Sədri Sahibə Qafarova seçicilərin videokonfrans formatında növbəti qəbulunu keçirib. Videoqəbulda spiker seçicilərin bir sıra məsələlərlə əlaqədar müraciətlərini dinləyib.

Sahibə Qafarova qeyd edib ki, seçiciləri narahat edən məsələlərin həlli, vətəndaşların layiqli həyat şəraitinin təmin olunması Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin baslıca istiqamətlərindəndir. O vurğulayıb ki, son illərdə ölkəmizdə əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunması, müasir təhsil, səhiyyə, mədəniyyət infrastrukturunun yaradılması, su və kanalizasiya xətlərinin yenilənməsi və bu qəbildən olan digər tədbirlər regionların inkişafında prioritet təşkil edib. O cümlədən, Şəmkir rayonunda da bu istiqamətdə davamlı olaraq genişmiqyaslı işlər görülür.

Milli Məclisin Sədri bütün vətəndaşları Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara və tövsiyələrə əməl etməyə çağırıb.

Görüşdə Şəmkir Rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak edib.

✓ ✓ ✓

İyunun 11-də 98 saylı Şəmkir şəhər seçki dairəsindən millət vəkili seçilən Milli Məclisin Sədri Sahibə Qafarova seçicilərin videokonfrans formatında növbəti qəbulunu keçirib. Videoqəbulda vətəndaşların bir sıra məsələlərlə əlaqədar müraciətlərini dinləyən spiker bildirib ki, bundan öncəki videoqəbullarda seçicilər tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq dövlət qurumlarına sorğular göndərilib, bir qisim məsələlər isə artıq öz həllini tapıb.

Sahibə Qafarova deyib ki, ölkəmizdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların həyat şəraitlərinin yaxşılaşdırılması, geniş sosial-müdafiə tədbirlərinin həyata keçirilməsi istiqamətində mühüm işlər görülür. Vətəndaşların müraciətlərində əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün videokonfransda iştirak edən icra hakimiyyəti nümayəndələrinə yönləndirilib. Digər müraciətlərin araşdırılması üçün aidiyyatı orqanlara sorğular göndərilib.

✓ ✓ ✓

İyunun 11-də Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan beynəlxalq parlament təşkilatları üzrə nümayəndə heyətlərinin rəhbərləri ilə videokonfrans formatında görüşdü.

Milli Məclisdə ilk dəfə baş tutan bu görüşdə çıxış edən Sahibə Qafarova bildirdi ki, VI çağırış Milli Məclisin beynəlxalq təşkilatlar üzrə 12 nümayəndə heyəti mövcuddur: "Əminik ki, işimizi doğru və əlaqələndirilmiş şəkildə quracağımız təqdirdə bütün bu platformalar bizə parlament diplomatiyamızı uğurla həyata keçirmək imkanı verəcəkdir".

Parlamentin Sədri qeyd etdi ki, VI çağırış Milli Məclisin ilk iclasında ölkə Prezidenti cənab İlham Əliyevin nitqində əksini tapan konseptual məsələlər parlamentin beynəlxalq fəaliyyətinin həyata keçirilməsində də yol xəritəsi kimi çıxış edir: "Milli Məclisin Sədri olaraq mənim məsuliyyətim dövlət başçımızın tövsiyələri əsasında beynəlxalq fəaliyyətimizin qurulmasını təmin etməkdir".

Sahibə Qafarova dedi ki, cənab Prezidentin də ifadə etdiyi kimi, beynəlxalq təşkilatlar üzrə nümayəndə heyətlərimizin fəaliyyətləri ölkəmizin milli maraqlarını qorumağa, fərqli gündəlikləri ilə ölkəmizə təzyiq etməyə çalışan qrupların bu cəhdlərinin qarşısının alınmasına yönəlməlidir. Görüşdə nümayəndə heyətlərimiz qarşısında qoyulan hədəflər, gözləntilərimiz və beynəlxalq təşkilatlar üzrə heyətlərin iş prinsipləri, parlamentin beynəlxalq fəaliyyətinin daha səmərəli həyata keçirilməsi və heyətlər arasında əlaqələndirmənin daha yaxşı qurulması ilə bağlı fikir mübadiləsi aparıldı.

Milli Məclisin payız sessiyasının ilk iclası keçirildi

Sentyabrın 30-da Milli Məclisin 2020-ci il payız sessiyasının açılışı oldu. Dövlət himni səsləndikdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova payız sessiyasının başlanması münasibəti ilə deputatları təbrik etdi. Sahibə Qafarova Azərbaycanın zəfər salnaməsinə yeni tarixi səhifələr yazıldığını vurğuladı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, "Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun".

Qeyd edildi ki, bu günə qədər həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün parlament diplomatiyasının imkanlarından istifadə edərək 88 ölkənin parlamentlərinə və 11 beynəlxalq təşkilata 138 məktub göndərilib. Sədr bildirdi ki, Türkiyə parlamentinin Sədri cənab Mustafa Şentop, Pakistan Senatının Sədri cənab Məhəmməd Sadiq Sancrani, Qazaxıstan Parlamenti Məclisinin Sədri cənab Nurlan Niqmatulin, ATƏT Parlament Assambleyasının Sədri Georgi Tsereteli ilə telefonla danışaraq Türkiyənin "TRT-Xəbər" televiziya kanalına canlı yayımda müsahibə verib.

Sədr onu da vurğuladı ki, VI çağırış Milli Məclis öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin martın 10-da parlamentin birinci iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində quraraq önəmli nəticələr əldə edib.

Bildirildi ki, 2020-ci ilin yaz sessiyasında və növbədənkənar iki sessiyasında 23 iclas keçirilib, 164 qanun və qərar, o cümlədən 2 Konstitusiya qanunu qəbul edilib, o cümlədən ölkənin ictimai-siyasi və iqtisadi həyatının mühüm məsələlərinə münasibət bildirilib.

Qeyd edildi ki, sessiyalar arasındakı dövrdə - iyulun 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının müvafiq şöbəsinin rəhbəri Ədalət Vəliyevin iştirakı ilə Milli Məclisdə təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri ilə videokonfrans formatında görüş keçirilib.

Sahibə Qafarova bildirdi ki, yay dövründə Milli Məclisin cari fəaliyyəti ardıcıl davam edib və bir sıra tədbirlər görülüb:

- Milli Məclisin Aparatı və İşlər İdarəsi haqqında Əsasnamə təsdiq edilib;
- Milli Məclisin İntizam komissiyası haqqında Əsasnamə hazırlanıb;
- inzibati binanın iclas salonlarına "İstiqlal", "Qarabağ", "Odlar yurdu", "Xəzər" və digər adlar verilib;
- elektron parlament quruculuğu çərçivəsində görülən işlər davam etdirilir, o cümlədən Milli Məclisin bütün arxivi elektron formata keçirilir;
- Milli Məclisdə akkreditə olunmuş jurnalistlər üçün media mərkəz yaradılıb;
- Milli Məclisin fəaliyyətinin işıqlandırılması üçün İctimai televiziyada format müəyyənləşdirilib. Həftədə bir dəfə telekanal 45 dəqiqəlik veriliş yayımlayacaq.

Daha sonra Milli Məclisin Sədri bildirdi ki, yay dövründə Milli Məclisin Aparatında və İşlər İdarəsində aşkara çıxarılan bəzi çatışmazlıqlar aradan qaldırılıb, bir sıra yeniliklər tətbiq olunub:

- Milli Məclisin Aparatında və İşlər İdarəsində təminedici və yardımçı şöbələrin statusu müəyyən edilib;
- dövlət qulluğunda inzibati vəzifə tutan əməkdaşların dövlət qulluğuna qəbul olunmasında baş vermiş uyğunsuzluqlar aradan qaldırılıb, ilk dəfə olaraq İşə qəbul komissiyası yaradılıb;
- ilk dəfə Milli Məclisin Aparatında və İşlər İdarəsində dövlət qulluğunun inzibati və yardımçı vəzifələrində çalışan əməkdaşlar ilə əmək müqavilələri bağlanıb, onların əmək funksiyaları və iş bölgüsü müəyyənləşdirilib;
- Milli Məclisin struktur bölmələrində xidməti yoxlamaların və araşdırmaların aparılması məqsədi ilə Milli Məclisin Aparatında, Rəhbərliyin katibliyində İcraya nəzarət sektoru yaradılıb;
- "Dövlət satınalmaları haqqında" Azərbaycan Respub-

likasının Qanununa əsasən Tender komissiyası yaradılıb və Milli Məclisin tarixində ilk dəfə olaraq açıq tender elan edilib;

- əmək müqaviləsi əsasında fəaliyyət göstərən əməkdaşların sayı İşlər İdarəsində 23 nəfərdən 2 nəfərə, Aparatda isə 8 nəfərdən 3 nəfərə endirilib;
- 65 yaşına çatmış əməkdaşların əmək fəaliyyətinin uzadılması ilə bağlı razılıq ərizələri alınıb və müvafiq sərəncam və əmrlər ilə onların əmək fəaliyyəti 1 il müddətinə uzadılıb;
- Əmək Məcəlləsinin dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi ilə bağlı maddəsinin tələbinə uyğun olaraq Milli Məclisin komitə və komissiyalarında çalışan 70 yaşına çatmış 3 nəfər ekspertin əmək müqavilələrinə xitam verilib;
- İşlər müdirinin xidmətinin Çapetmə və çoxaltma sektorunun əmək şəraiti ağır və zərərli olan əməkdaşlarının əmək haqqına Əmək Məcəlləsinin 159-cu maddəsinin tələbinə uyğun artım müəyyən edilib;
- Nazirlər Kabinetinin 120 saylı qərarının tələbinə uyğun olaraq avtonəqliyyat vasitələri üçün aylıq yürüş hədləri müəyyən edilib;
- yanacaq və sürtgü yağlarının həmin qərarın tələbinə uyğun istifadəsini təmin etmək üçün müvafiq qrafiklər tutulub, ezamiyyətlər üçün xüsusi cədvəllər tərtib edilib;
- hər bir sürücü ilə maddi məsuliyyət müqaviləsi imzalanıb, avtomobillər sürücülərə təhkim olunub.

Daha sonra Milli Məclisin Sədri qardaş Türkiyəyə və Rusiya Federasiyasına rəsmi səfəri barədə deputatlara məlumat verdi.

Sahibə Qafarova diqqətə çatdırdı ki, cəbhədə yaranmış vəziyyətlə əlaqədar sentyabrın 27-də təcili olaraq Milli Məclisin iclası keçirilərək, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı təsdiq edilib. Milli Məclis Sədrinin çıxışından sonra gündəlikdəki məsələlər müzakirə edilərək səsə qoyulub və qəbul olunub.

Milli Məclisin Sədri jurnalistlər üçün brifinq keçirdi

Növbədənkənar seçkilərdən sonra ölkədə aparılan islahatlar çərçivəsində VI çağırış Milli Məclisin yeni tərkibinin seçilməsi ilə bərabər qanunvericilik orqanının fəaliyyətində də əhəmiyyətli dəyişikliklər baş verdi. Dövlət başçısı İlham Əliyevin Milli Məclisdəki çıxışı deputatların işinin prioritet istiqamətlərini müəyyən edərək islahatların gedişatını sürətləndirdi. Milli Məclis Aparatında, İşlər İdarəsində həyata keçirilən dəyişikliklər parlamentin işinin çevikliyində özünü büruzə verməkdədir.

Sentyabr 30-da VI çağırış Milli Məclisin payız sessiyasının ilk iclasından əvvəl parlamentin Sədri Sahibə xanım Qafarova mətbuat nümayəndələri üçün keçirdiyi brifinqdə bu və digər məsələlərlə bağlı jurnalistlərə məlumat verdi. Spiker parlamentdə akkreditə olunmuş KİV nümayəndələri ilə belə bir görüşün keçirilməsini çoxdan arzuladığını dedi. Sədr qeyd etdi ki, parlamentdə akkreditə olunmuş mətbuat nümayəndələrinin iş şəraitinin yaxşılaşdırılması ilə bağlı müraciətlərini nəzərə alaraq müvafiq tədbirlərin görülməsinə dair göstəriş verib. Bu gün jurnalistlərin rahat işləmələri üçün 16 kompüterlə təchiz olunmuş geniş iş otağı, fotostudiya, eləcə də brifinqlər və jurnalistlərin müsahibə almaları üçün xüsusi otaq istifadəyə verildi.

Brifinqdə Milli Məclisin Sədri Sahibə Qafarova medianın həmişə olduğu kimi, bundan sonra da parlamentin işini dolğun və obyektiv işıqlandıracağına inamını ifadə etdi. Spiker bildirdi ki, torpaqlarımız düşmənlərdən azad edildikdən sonra elə bu foyedə jurnalistlərə geniş müsahibə verəcəkdir.

"Hər birimizin ürəyi Qarabağla döyünür",- deyən Sədr çıxışının sonunda media nümayəndələri üçün bu şəraitin yaradılmasında əməyi olan hər kəsə təşəkkür etdi.

Ermənistan sülh danışıqlarını pozmaqla özünü fəlakətə sürüklədi

Adil Əliyev
Milli Məclis Sədrinin müavini,
Gənclər və idman komitəsinin sədri

Ermənistanın sentyabrın 27-də cəbhə boyu həyata keçirdiyi təxribatın qarşısı şanlı ordumuz tərəfindən qətiyyətlə alındı. Silahlı qüvvələrimizin əks-hücumu zamanı düşmən tərəfi xeyli sayda itkilər verməklə geri çəkildi. Bu, Ermənistanın son üç ayda sayca üçüncü təxribatı idi. Belə ki, mütəmadi olaraq ərazilərimizdə təxribat törətməkdə davam edən düşmən bu il iyulun 12-də Tovuz rayonu istiqamətində həyata keçirdiyi təxribat zamanı 12 nəfər hərbçimiz və 1 nəfər mülki şəxs (76 yaşlı Tovuz rayon sakini) həlak oldu.

Düşmən növbəti dəfə isə Azərbaycan Respublikasının ərazisində yeni təxribatın törədilməsi məqsədi ilə diversiya qrupunu ölkəmizə göndərmişdi. Ələ keçirilən diversiya qrupu komandirinin etirafları bir daha bizi əmin etdi ki, Ermənistan sülh istəmir, sülh danışıqları ilə sadəcə olaraq Azərbaycan tərəfinin səbrini yoxlayır.

Ermənistanın sentyabrın 27-də başlayan yeni təxribatı zamanı hədəf yalnız cəbhəyanı ərazilər deyildi, eyni zamanda, cəbhədən xeyli uzaqda yerləşən Gəncə şəhəri, eləcə də Naftalan, Goranboy, Tərtər, Beyləqan, Ağdam, Ağcabədi rayonlarında dinc əhali və infrastruktur da hücuma məruz qaldı.

Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə ağır artilleriyalardan atəş açması nəticəsində sentyabrın 27-dən oktyabrın 12-i səhər saatlarına qədər 41 nəfər dinc sakin həlak olub, 207 nəfər xəsarət alıb, 1185 ev, 57 çoxmənzilli yaşayış binası, 148 mülki obyekt isə yararsız vəziyyətə düşüb.

Öldürülənlərin arasında bir ailənin 5 üzvünün olması (onlardan ikisi 7-ci və 9-cu sinifdə oxuyan şagirdlər idi) düşmənin əsl simasını bir daha göstərir.

Bu gün beynəlxalq humanitar hüququn bütün prinsiplərini kobud şəkildə pozan Ermənistan məğlubiyyəti qəbul etmək əvəzinə vicdansızcasına mülki əhalinin yaşadığı şəhərləri, hərbi əməliyyatlarda iştirak etməyən dinc insanları və obyektləri əsas hədəf götürür. Son hadisələrə nəzər salsaq bir daha aydın olur ki, məğlub olduqları müharibədə atəşkəsə nail olmaq məqsədi ilə ayrı-ayrı dövlətlərə yalvarışlar edən Ermənistan hakimiyyəti öz maraqları naminə hər şey etməyə hazırdır. Belə ki, atəşkəsə nail olmaq məqsədi ilə bütün xarici dövlətlərdən aman diləyən Ermənistan əllərinə düşən ilk fürsətdə Gəncə şəhərində terror aktı törətdi.

2020-ci il sentyabrın 12-i gecə saat 02 radələrində cəbhə zonasından 60 km kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binalarının Ermənistan tərəfindən raket atəşinə tutulması nəticəsində 4 qadın olmaqla 9 nəfər həlak olub, 35 nəfər yaralanıb, həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəyib. Yaralı şəxslərdən biri 1992-ci il təvəllüdlü Əliyeva Günay Zahid qızı ertəsi gün müalicə olunduğu xəstəxanada vəfat edib. Təbii ki, Ermənistanın cəbhədən kənarda yerləşən ərazilərimizi atəşə tutmaqda əsas məqsədi üçüncü ölkələri öz xeyrinə baş vermiş münaqişəyə cəlb etməkdir. Baxmayaraq ki, 1949-cu il tarixli Cenevrə Konvensiyası müharibədə faktiki olaraq iştirak etməyən mülki vətəndaşlara qarşı

İlham Əliyev @azpresident

Biz işğaldan azad olunmuş torpaqlarda şəhərlər quracağıq, həmin yerləri cənnətə çevirəcəyik. O torpaqlar canlanacaq, ora həyat, uşaqların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar.

hər hansı silahlı hücumu qadağan etmişdir.

Ermənistan Cenevrə Konvensiyasının tələblərini təkcə mülki əhaliyə qarşı həyata keçirdiyi təcavüz faktı ilə pozmamışdır. Onlar konvensiyaya zidd olaraq Dağlıq Qarabağa xarici ölkələrdən ailələr gətirərək yerləşdirmişlər. Eyni zamanda, növbəti təxribata hazırlıq görmək məqsədi ilə xarici ölkələrdən muzdlu döyüşçülər, terrorçular dəvət etmişlər. Ermənistan rəhbərliyi bu faktları etiraf edərək gizlətməyə belə, lüzum görməmişdir. Halbuki Cenevrə Konvensiyası müharibənin tərəfi olmayan dövlətin vətəndaşının qarşı tərəf ilə döyüşməsini birmənalı şəkildə qadağan edir.

Hələ sentyabrın 27-dən əvvəl Birləşmiş Millətlər Təşkilatının 75-ci iclasındakı çıxışında Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunmasının erməni rəhbərliyinin sərsəm bəyanatları ilə heçə çıxardığını, Yerevanın yeni ərazilər işğal etmək xülyası ilə müharibəyə hazırlaşdığını və BMT-nin qətnamələrinə məhəl qoymayaraq, özünün terrorçu siyasətindən əl çəkməyərək təxribatlara və diversiyalara əl atdığını qeyd etməklə, dünya ölkələrini və ictimaiyyətini

Ermənistanı yeni hərbi təcavüzdən çəkindirməyə çağırdı. Bildirildi ki, Ermənistan danışıqlardan imtina edərək atəşkəsi pozur və sülhü zərbə altına qoyur. Azərbaycan tərəfi Ermənistan tərəfinin sürətlə silahlanmasını, işğal etdiyi ərazilərin demoqrafik vəziyyətini dəyişmək üçün qanunsuz məskunlaşdırmanı dünyanın diqqətinə çatdırmasına baxmayaraq, heç kəs Ermənistanı bu çirkin əməlindən çəkindirmək istəmədi. Halbuki Prezident İlham Əliyev Ermənistanın təcavüzkar ritorikasının və təxribatlarının arxasında Azərbaycana qarşı yeni təcavüzə hazırlığın dayandığını xəbər vermişdi.

İyul ayında Azərbaycanın Tovuz rayonu istiqamətində ölkəmizə qarşı törətdiyi uğursuz təxribatdan sonra sentyabrın 27-də Ermənistanın yenidən təcavüz aktı törətməsi artıq səbir kasamızı daşırdı. İşğalçı ölkənin növbəti hərbi təxribatının qarşısını qətiyyətlə alan Azərbaycan Silahlı Qüvvələri bu dəfə düşmənə gözünü açmağa imkan vermədi. Ermənistanın törədə biləcəyi təxribatların qarşısını almaq, Azərbaycanın əzəli və əbədi torpaqlarını düşmən işğalından azad etmək, habelə regionda sülhə və təhlükəsizliyə riayət edilməsini təmin etmək məqsədi ilə Ali Baş Komandanın rəhbərliyi altında əks-hücum əməliyyatlarına başlayan milli ordumuz qısa zamanda Ermənistan hərbi birləşmələrini darmadağın etdi. Elə ilk hücumlarda düşmən tərəfinə ağır itkilər verməklə bərabər kəndlərimizi bir-birinin ardınca işğaldan azad etməyə başladı.

Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən geri çəkilməkdə, döyüş mövqelərini qoyub qaçmaqdadır.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun Ermənistanın hərbi təcavüzlərinə, qəfil hücumlarına cavab olaraq başlatdığı uğurlu əks-hücum əməliyyatları gətirdiyi qələbələrlə xalqımızın eynini açdı, ruhundakı mübarizə əzmini oyatdı.

Xalqımızın ürəyində olan Qarabağ nisgilinə gün keçdikcə son qoyulur, cəbhədən gələn xoş xəbərlər qazanacağımız böyük zəfərlərin ilk

Ermənistanın sentyabrın 27-də başlayan yeni təxribatı zamanı hədəf yalnız cəbhəyanı ərazilər deyildi, eyni zamanda, cəbhədən xeyli uzaqda yerləşən Gəncə şəhəri, eləcə də Naftalan, Goranboy, Tərtər, Beyləqan, Ağdam, Ağcabədi rayonlarında dinc əhali və infrastruktur da hücuma məruz qaldı.



başlanğıcıdır. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan bayrağının yenidən dalğalanmasından hər bir azərbaycanlı qürur hissi keçirir.

Bu gün isə həmin yerlərə baxdıqda fəxrlə demək olar ki, Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu üzərinə düşən şərəfli işin öhdəsindən layiqincə gəlir.

Ermənistan isə bu məğlubiyyətin qarşısında mülki əhaliyə qarşı həyata keçirdiyi hücumlarla özlərinin son çırpınışları olmasını sübut edir və artıq bütün dünya başa düşür ki, Azərbaycan tərəfi müharibənin qalibidir.

Ermənistan humanitar atəşkəs elan edildikdən sonra da özünün silah bazasını təkmilləşdirməkdə davam etdi. Ən narahatedici məqam isə ondan ibarətdir ki, onlar bu silahları humanitar yardım adı altında alırlar. Azərbaycan son hadisələri, xüsusilə də Gəncə şəhərində dinc əhaliyə qarşı baş vermiş silahlı hücumu heç bir halda bağışlamaq niyyətində deyil. Əgər Ermənistan sülh üçün yalvarırdısa, ona təqdim edilən bütün tələbləri sözsüz qəbul etməli, üzərinə qoyulacaq vəzifələrə qeyd-şərtsiz riayət etməli idi. Lakin humanitar atəşkəsin elan edildiyi bir dövrdə bu cür təxribata əl atmaları artıq onların münaqişəni həll etmək niyyətində olmamalarını, sadəcə bir daha vaxt qazanmaq istəklərini göstərdi.

Bu gün hamımızı narahat edən məqam odur ki, bir sıra xarici dövlətlər və beynəlxalq təşkilatlar baş verənlərin fonunda öz ədalət meyarlarından kənara çıxıblar. Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir; həmin ərazilərin ölkəmizə məxsus olması bütün beynəlxalq hüquqi sənədlərdə öz əksini tapıb. Habelə, işğalçı dövlətin qeyd-şərtsiz o əraziləri boşaltmalı olmasını tələb edən və 28 ildir Ermənistanın icra etmədiyi Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi var. Sözügedən qətnamələrin icra edilməməsi ilə yanaşı, Ermənistanın dinc əhaliyə qarşı törətdiyi hücumlara səssiz qalmaları bu dövlətlərin əsl simasını göstərir. Təbii ki, bir çox dövlət və təşkilatlar Azərbaycanın haqq işini tanısalar da, bəzi təşkilatların bu cür riyakar addımları Ermənistan rəhbərliyinin elə bu dairələrdən idarə olunması fikrini yaradır. Ya onlar bu cür qərəzli mövqelərindən əl çəkib, hüququn və haqqın tələblərinə riayət etməklə bizim yanımızda olmalı, ədalətli mövqe bildirməli, ya da baş verənlərin fonunda tarix onların bu riyakar davranışlarını heç zaman unutmayacaq.

Azərbaycanın siyasi və hərbi qüdrəti müstəqilliyimizin ən mühüm nailiyyətidir

İlham Əliyev @azpresident

Status-kvo deyilən məsələ yoxdur. Biz onu döyüş meydanında dəyişdirdik. Təmas xətti yoxdur, biz təmas xəttini yardıq. Bu, bizim tarixi qələbəmizdir!

Ziyafət Əsgərov
Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri

Qədim və keşməkeşli tarixə malik olan Azərbaycan xalqı əsrlər, minilliklər boyu öz azadlığı uğrunda mübarizə aparıb, hərbi təcavüzlərə qarşı daim qəhrəmanlıq nümunələri göstərərək öz mövcudluğunu qoruyub saxlayıb. Həmin zəngin hərbi ənənələri və döyüş ruhunu özündə əks etdirməyi bacaran müasir Azərbaycan Ordusunun qurucusu isə Ulu öndər Heydər Əliyevdir. Uzaqgörən, xalqını sevən və onun yenidən müstəqillik qazanacağına əmin olan Ümummilli lider hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə ölkəmizdə milli hərbi kadr hazırlığı, hərb sənətinin güclənməsi, xalqımızın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi məsələlərini hər zaman diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə rəvac verildi, Azərbaycanda gənclərin hərbi xidmətə hazırlanmasında yeni tələblər irəli sürüldü.

Sovet dövründə Heydər Əliyevin milli zəmində hərbi-təşkilati işinin çox mühüm istiqamətini milli zabit kadrlarının hazırlanması təşkil edirdi ki, onun da zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılması olmuşdur.

Ümummilli lider müstəqil Azərbaycana rəhbərliyi dövründə də kifayət qədər qısa bir zamanda ölkəmizin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün real silahlı qüvvələri formalaşdırmış, Azərbaycan Ordusunu dövlət müstəqilliyinin dəyərli reallıqlarından birinə çevirmişdir.

Müasir hərbi-texniki tələblərə cavab verən Azərbaycan Ordusu Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində daha da möhkəmlənmiş, döyüş qabiliyyətini artırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğunun dövlət quruculuğunun prioriet istiqamətinə çevrilməsi bu prosesin ahəngdarlığına və səmərəliliyinə zəmin yaratmışdır.

Son dövrlərdə baş verən hadisələr, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi genişmiqyaslı təxribatlar bir daha təsdiq etmişdir ki, ordumuz və silahlı qüvvələrimiz daim möhkəmləndirilməli, döyüş qabiliyyəti artırılmalı, hərbi sahədə əməkdaşlıq inkişaf etdirilməlidir. Məhz buna görə də son dövrlərdə Ali Baş Komandanın rəhbərliyi altında dövlətimizin hərbi-siyasi sahədə fəaliyyəti daha da intensivləşmişdir.

Ordumuzun ən son hərbi texnologiyalara yiyələnməsi və modernləşməsi qarşımızda dayanan əsas vəzifələrdən biri olmuşdur. Biz silahlı qüvvələrimizin döyüş qabiliyyətinin artırılması üçün inkişaf etmiş

hərbi sənayesi olan dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçiririk. Təsadüfi deyil ki, ordumuzun arsenalına müasir hərb sənayesinin ən son texnologiyaları cəlb olunmuş və bununla da Azərbaycan Silahlı Qüvvələri modern hərbi gücə çevrilmişdir.

Hərbi əməkdaşlıq sahəsində qardaş Türkiyə Respublikası ilə sıx münasibətlər qurulmuşdur. Geniş tərkibdə hərbi nümayəndə heyətlərinin və müdafiə nazirlərinin qarşılıqlı səfərləri, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi, hərbi məktəblərin proqramlarının formalaşmasına, kadrların hazırlanmasına qardaş ölkənin dəstəyi, hərbi maliyyə əməkdaşlığı sahəsində yeni sazişin təsdiq edilməsi Türkiyə-Azərbaycan birliyinin hərbi sahədə olan təzahürləridir. Yeni sazişə əsasən Azərbaycan Ordusunun inkişafına töhfə vermək məqsədi ilə Türkiyə Respublikasının qanunvericiliyinə uyğun olaraq illər üzrə ayrılacaq, ümumilikdə 200 milyon türk lirəsinin hərbi məqsədlərlə mal və xidmətlərin satın alınmasına yönəldilməsi nəzərdə tutulmuşdur.

Hərbi-siyasi sahədə uğurlu əməkdaşlığın ən mühüm nəticələrindən biri də artıq Ermənistanın və dünya ermənilyinin yalan və saxta iddialarının, əvvəllər olduğu kimi, beynəlxalq səviyyədə ciddi dəstək qazanmamasıdır. Prezident İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyası və Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi dünya çapında erməni yalanlarına böyük zərbə vurmuşdur.

Şübhəsiz ki, hərbi qüdrətimizin ən böyük nailiyyətini bu gün torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız Vətən müharibəsində qüdrətli ordumuzun timsalında görürük. Çünki dövlətimizin, xalqımızın və Prezidentimizin 30 il boyunca səbirlə münaqişənin sülh yolu ilə həll edilməsinə dair ümidləri nəticəsiz qalmışdır. Bütün bu müddət ərzində dünyaya haqq səsimizi çatdırmağımıza və beynəlxalq təşkilatlardan Ermənistanın işğalçılıq siyasətinə son qoymalarını tələb etməyimizə baxmayaraq, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi başda olmaqla, bütün beynəlxalq sənədlər yalnız kağız üzərində qalmışdır. BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxması tələb olunur, lakin qətnamələrə əməl etməməsinə baxmayaraq, bu günə kimi işğalçı dövlətə qarşı heç bir sanksiya, məcburetmə tədbiri görülməmişdir. Münaqişənin həlli üçün yaradılmış beynəlxalq qurum olan ATƏT-in Minsk qrupu da 30 il ərzində heç bir ciddi iş görməmişdir. Həmçinin bu müddət ərzində BMT və ATƏT kimi beynəlxalq təşkilatlar azərbaycanlı qaçqın və məcburi köçkünlərin taleyi ilə maraqlanmamış, Ermənistanın Azərbaycan ərazisində törətdiyi terror hadisələrinə heç bir münasibət bildirməmiş, əsrin ən qanlı hadisələrindən biri olan azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımı ilə əlaqədar belə heç bir tədbir görməmişdir.

Ordumuzun ən son hərbi texnologiyalara yiyələnməsi və modernləşməsi qarşımızda dayanan əsas vəzifələrdən biri olmuşdur. Biz silahlı qüvvələrimizin döyüş qabiliyyətinin artırılması üçün inkişaf etmiş hərbi sənayesi olan dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçiririk.

Ermənilər isə ərazilərimizi işğal etməklə kifayətlənmir, dini və tarixi abidələrimizi məhv edir, üstəlik son zamanlarda ölkəmizə qarşı təxribatlar törətməkdə davam edir-

dilər. Hətta azğınlaşmış düşmən yeni ərazilər işğal etmək arzusuna da düşmüşdür. Bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi genişmiqyaslı təxribatlar da təsdiq edir ki, düşmən yeni torpaqlar ələ keçirmək iddiasındadır.

Belə olan halda Azərbaycan nə etməli idi? Əlbəttə, biz bu təxribatların qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başladıq və bu əməliyyatlar uğurla davam edərək xalqımızın ərazi bütövlüyü, suverenliyi uğrunda, işğalçıları torpaqlarımızdan birdəfəlik silib-təmizləmək uğrunda müqəddəs Vətən müharibəsinə çevrildi. Bu gün qüdrətli ordumuz Ali Baş Komandanın rəhbərliyi altında və xalqımızın dəstəyi ilə uğurla irəliləyir, artıq rayon və kəndlərimiz işğaldan azad olunmağa başlayıb. Bizim mübarizəmiz torpaqlarımızın işğaldan azad olunması uğrunda haqq işimiz olmaqla yanaşı, beynəlxalq hüququn bütün tələblərinə uyğun aparılır. Azərbaycan qoşulduğu bütün beynəlxalq konvensiyalara sadiq qalır, hərbi əməliyyatları döyüş meydanından kənara çıxarmır, dinc əhali, mülki infrastrukturlar hədəfə alınmır. Əslində bizim mübarizəmiz elə beynəlxalq hüququn özünə xidmət edir. Azərbaycan Ermənistanı işğal olunmuş ərazilərimizdən çıxararaq, həm də BMT-nin Təhlükəsizlik Şurasının bu günə kimi icra edilməmiş qətnamələrini icra edir.

Düşmən isə bizdən fərqli olaraq döyüş meydanında uduzur və hər zamankı kimi beynəlxalq hüquqa zidd olan terror və təxribatlara əl atır. Ermənistan muzdlulardan və terrorçulardan istifadə etməklə, həqiqətə uyğun olmayan məlumatlar yaymaqla, dinc əhalini, mülki obyektləri, işğal altında olan torpaqlarımızdan kənarda yerləşən rayonları hədəf almaqla guya xalqımızın mübarizə əzmini qırmaq istəyir. Aciz düşmən həm də üçüncü dövlətləri münaqişəyə cəlb etməklə, savaşın miqyasını genişləndirmək və özünə müttəfiqlər qazanmaq istəyir, bununla həm də Azərbaycan qarşısında məğlubiyyətinin məsuliyyətindən qaçmağa çalışır. Biz isə baxmayaraq ki, BMT-nin nizamnaməsinə əsasən işğala məruz qalan ölkə olduğumuz üçün fərdi və kollektiv şəkildə müdafiə olunmaq hüququna malikik, Türkiyə, Pakistan, Əfqanıstan kimi haqqı müdafiə edən dost dövlətlərə yalnız mənəvi dəstəklərinə görə təşəkkür edirik və heç bir üçüncü dövləti münaqişəyə cəlb etməyə ehtiyacımız yoxdur.

Xalq orduya inanır, ordu xalqa güvənir. Bizim əsas gücümüz və qüdrətimiz Ali Baş Komandanın vahid rəhbərliyi altında formalaşan dövlət-xalq-ordu birliyindədir. Bu birlikdən güc alan hərbçilərimiz istənilən mübarizədə qələbə qazanmaq əzmindədirlər.

Xalqımız əmin olsun ki, silahlı qüvvələrimiz bu günə kimi əldə etdiyi uğurları davam etdirərək Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəkdir. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin və inamın mövcud olması ordumuzun gücünü daha da artırır. Xalq orduya inanır, ordu xalqa güvənir. Bizim əsas gücümüz və qüdrətimiz Ali Baş Komandanın vahid rəhbərliyi altında formalaşan dövlət-xalq-ordu birliyindədir. Bu birlikdən güc alan hərbçilərimiz istənilən mübarizədə qələbə qazanmaq əzmindədirlər. Çünki bu gün hər bir Azərbaycan vətəndaşı ilə Azərbaycan əsgərinin andı birdir:

"Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Dünyada misli olmayan qardaşlıq

"SƏFİR" rubrikasının qonağı Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri **Erkan Özoral**:

"İstər regionumuzda, istər digər coğrafiyalarda heç bir gizli planımız olmadı və olmayacaq"

- XX əsrin əvvəlində baş verən tələtümlü hadisələr zamanı bir-birinə yardım və həmrəyliyi ilə dövlətlərarası əməkdaşlığın dünyada misli görünməyən örnəyini sərgiləyən Azərbaycan və Türkiyə müasir dövrdə də bənzəri olmayan tərəfdaşlıq nümayiş etdirir...

- Ortaq tariximiz, həqiqətən də, dünyada misli olmayan qardaşlıq örnəkləri ilə zəngindir. Bundan bir müddət əvvəl – sentyabrın 15-də Bakının işğaldan azad olunmasının 102-ci ildönümünü qeyd etdik. 1918-ci ildə Türkiyə qardaş Azərbaycanın köməyinə gəldi. Nuri Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu Azərbaycan Ordusu ilə çiyin-çiyinə verərək tarixi qələbəyə imza atdı. Hər il sentyabrın 15-də Bakının işğaldan azad edilməsinin ildönümünü Azərbaycanla birlikdə eyni coşqu və həyəcanla bayram edirik.

Azərbaycan da Milli Mücadiləsinin ən ağır günlərində qardaşına kömək əlini uzatdı. Dövrün ağır siyasi şəraitinə baxmayaraq, Türkiyənin Qurtuluş Savaşına maddi və mənəvi dəstək verdi. Türkiyə və Azərbaycan arasındakı bu qarşılıqlı kömək və həmrəyliyi qardaşlıq münasibətindən kənarda təsəvvür etmək mümkün deyil. Xalqlarımız arasındakı qardaşlıq sevgisi hər zaman səmimi olaraq qaldı. Tarixi prosesdə bütün dünyaya nümunə olan bu qarşılıqlı köməyi sadəcə "dövlətlərarası əməkdaşlıq" kimi xarakterizə etmək böyük haqsızlıq olardı. Buna görə də qardaşlığımızın bənzəri olmadığını hər fürsətdə qürur hissi ilə dilə gətiririk.

- Türkiyə-Azərbaycan hərbi birliyi 100 il öncə regionda sülhü və sabitliyi bərqərar etmişdi. Təsadüfi deyil ki, bu günlərdə Azərbaycan və Türkiyənin birgə keçirdikləri hərbi təlimlər hər birimizi duyğulandırır, qürur verir. Amma nədənsə Türkiyə ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq, ümumiyyətlə, türk dövlətləri arasındakı yaxınlıq bəzilərini təşvişə salır,

başlayırlar "qiyamət ssenariləri" hasil etməyə. Bu fobiya nə ilə bağlıdır?

- Hər şeydən əvvəl, Ermənistanın sentyabrın 27-də səhər bütün cəbhə xətti boyunca Azərbaycan Ordusunun mövqelərinə və mülki əhalinin yaşadığı ərazilərə ağır silahlarla mənfur hücumunu ən kəskin şəkildə pislədiyimizi qeyd etmək istəyirəm. Hücumlar nəticəsində həlak olan azərbaycanlı bacı-qardaşlarımıza Allahdan rəhmət, ailələrinə səbir və yaralılara ən qısa vaxtda şəfa diləyirik. Aralarında iki uşağın da olduğu mülki şəxslərin öldürülməsinə görə dərin kədər hissi keçiririk. Mülki əhalinin qəsdən hədəf seçilməsi hərbi cinayətdir. Ermənistan beynəlxalq hüququ saymadığını bir daha nümayiş etdirdi. Beynəlxalq ictimaiyyəti Ermənistanın hücumlarını pisləməyə, işğal etdikləri ərazilərdən çıxması və humanitar hüquqdan irəli gələn öhdəliklərinə əməl etməsi üçün Ermənistana çağırış etməyə dəvət edirik.

Ermənistanın hücumlarını dəf etmək və mülki əhalini qorumaq üçün qanuni müdafiə hüququna əsaslanaraq Azərbaycanın öz ərazisində həyata keçirdiyi hərbi əməliyyatlara dəstəyimiz birmənalıdır. Hər zaman qeyd etdiyimiz kimi, Azərbaycanın mübarizəsi haqlı mübarizədir. Türkiyə bu haqlı mübarizəsində qardaş Azərbaycana lazım olan hər bir dəstəyi göstərəcək, hər zaman yanında olacaq.

Sualınıza gəlincə qeyd etməliyəm ki, Türkiyə və Azərbaycan olaraq bütün sahələrdə sürdürdüyümüz strateji müttəfiqlik regionda daimi sabitliyin, sülh və rifahın güvənci olmağa davam edir. Azərbaycanla birlikdə ölkələrimiz və regionlarımız üçün strateji layihələr həyata keçirdik. TANAP, BTC, BTQ yalnız öz rifahımız üçün deyil, regionun rifahına, təhlükəsizliyinə və sabitliyinə töhfə verən son dərəcə mühüm layihələrdir. Regionumuzun gələcəyinə daim strateji nöqteyi-nəzərdən baxdıq. Qonşuları-

mızla birlikdə regionumuzu firavan gələcəyə aparmaq üçün böyük səylə çalışdıq. Layihələrimizlə energetika, nəqliyyat sahəsində qitələrarası inteqrasiyanı və bağlılığı təmin etdik. Bütün bu proseslər heç də asan olmadı. Türkiyə və Azərbaycan olaraq regionumuzda sabitlik, rifah və təhlükəsizliyin keşiyində durmağa davam edəcəyik.

Qeyd etdiyiniz kimi, Türkiyə və Azərbaycan olaraq görüşmələr masasında və sahədə bir yumruq kimi olmağımız bəzilərinin narahatlığına səbəb olur. Müəyyən dairələr qardaşlığımızı və həmrəyliyimizi hədəf seçərək "qiyamət ssenariləri" uydururlar. Əvvəlcə Türkiyə və Azərbaycanın məqsəd və hədəflərinin hər zaman açıq və şəffaf olduğunu qeyd etmək istəyirəm.

Biz sırf regionumuzun təhlükəsizliyi, inteqrasiyası və rifahı üçün çalışdıq. İstər regionumuzda, istər digər coğrafiyalarda heç bir gizli planımız olmadı və olmayacaq. Sülhü, haqq-ədaləti və hüququ müdafiə etməkdə gizlədiləsi bir şeyin olmadığı hamıya gün kimi aydındır.

Digər tərəfdən bu gün yaşananlar regional təhlükəsizliyi kimlərin təhdid etdiyini açıq şəkildə ortaya çıxarır. Hərbi əməkdaşlığımızdan "qiyamət ssenariləri" uyduranların əsas etibarilə regionun təhlükəsizliyini oda-alova atan tərəflər olduğunu görürük. Ermənistanın iyul ayında dövlət sərhədindən Tovuza, indi isə işğal etdiyi ərazilərdən bütün cəbhə xətti boyunca Azərbaycana hücumları 30 ildir regionda kimin haqlı, kimin haqsız olduğunu heç bir şübhəyə yol verməyəcək şəkildə açığa çıxarır. "Qiyamət ssenariləri" uyduranlar əslində öz haqsız mövqelərini gizləmək üçün Türkiyə və Azərbaycana qarşı çirkin təbliğat aparmaqdadırlar.

Hər dəfə deyirik, regionda sülhün, sabitliyin və təhlükəsizliyin yeganə yolu Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən çıxmasıdır. Beynəlxalq təşkilatların qərarlarında da qeyd edildiyi kimi, yeganə həll yolu budur. Beynəlxalq ictimaiyyət BMT Təhlükəsizlik Şurasının və ATƏT-in münaqişə ilə bağlı qəbul etdikləri qərarlarına artıq sahib çıxmalıdır. Bu qərarların nəyə görə bu günə kimi tətbiq olunmamasının hesabı sorğu-sual edilməlidir. BMT-nın qərarları yerinə yetirilməyənə qədər regionda daimi sülh, təhlükəsizlik və sabitlikdən danışmaq faydasızdır. Beynəlxalq ictimaiyyət artıq bu həqiqəti görməlidir. Haqlını haqsızdan ayırmadan problemin birdəfəlik həlli mümkün deyil. Türkiyə Prezidentinin də qeyd etdiyi kimi, Azərbaycanın haqqına, hüququna, ərazilərinə yönəlmiş hər cür təcavüzün qarşısında durmağa, bütün siyasi, diplomatik, sosial əlaqələrimizi bu istiqamətdə səfərbər etməyə davam edəcəyik.

> Biz sırf regionumuzun təhlükəsizliyi, inteqrasiyası və rifahı üçün çalışdıq. İstər regionumuzda, istər digər coğrafiyalarda heç bir gizli planımız olmadı və olmayacaq. Sülhü, haqq-ədaləti və hüququ müdafiə etməkdə gizlədiləsi bir şeyin olmadığı hamıya gün kimi aydındır.

- Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Bu əməkdaşlığı hansı formada daha yüksək səviyyəyə çıxarmaq olar?

- Hərbi əməkdaşlığımız onsuz da mümkün olan ən yüksək səviyyədədir. Silahlı qüvvələrimiz hər il birgə təlimlər keçirir. Hərbi təlim proqramları, yüksək rütbəli ordu mənsublarının səfərləri və məsləhətləşmələri hərbi əməkdaşlığımızın gələcək inkişafı üçün zəmin yaradır. Bu sahədəki müsbət tempin müdafiə sənayesi sahəsinə də sirayət etməsinin şahidiyik. Xüsusən də Türkiyənin son illərdə müdafiə sənayesində nail olduğu böyük sıçrayışdan qardaş Azərbaycanın da faydalanmasını arzu edirik. Azərbaycan üçün yaxın dost və qardaş olan Türkiyənin müdafiə sənayesi sahəsində də etibarlı tədarükçü olacağını bilirik.

- Nailiyyətlərimiz dostlarımıza güvən, düşmənlərimizə isə göz dağı verir. Nə vaxt uğurlarımız çoxalsa, gözü götürməyənlərin bizə qarşı hücumları kəskinləşməyə başlayır. Xüsusən media platformasında eyni təhdidlərə və böhtanlara məruz qalırıq. Yaradılması planlaşdırılan ortaq media platforması bu istiqamətdə nə kimi işlər görə bilər?

- Ortaq media platforması ilə iki ölkə arasındakı televiziyadan başlamış film istehsalına qədər bütün sahələrdə birgə layihələrin qəbulu, təhsil və mübadilə proqramlarının hazırlanması, texnologiya və infrastruktur ortaqlığı ilə Türkiyə və Azərbaycan əleyhinə aparılan qarayaxma təbliğatına qarşı mübarizə məsələlərində birgə addımlar atılmaqla media sahəsində əməkdaşlığımızın inkişaf etdirilməsi hədəflənir.

Qeyd edildiyi kimi, Türkiyə və Azərbaycan olaraq ortaq təhdidlərlə qarşı-qarşıyayıq. Bunlar yalnız hərbi və təhlükəsizlik sahəsində qarşımıza çıxmır. Eyni zamanda, həm Türkiyə, həm də Azərbaycana yönəlmiş etimadın zədələnməsi və mənfi rəy yaratma cəhdləri edilir. Sentyabrın 27-dən bu günə qədər mətbuatda və sosial mediada çox sayda saxta xəbərlər yayımlanır. Bunlara qarşı birgə mübarizə aparmalıyıq. Türkiyə-Azərbaycan Ortaq Media Platforması da buna xidmət edəcək. Bu platformanın köməyi ilə iki ölkə mediasının əlaqələndirilməsi, xalqların effektiv şəkildə məlumatlandırılması, xüsusilə də sosial mediadan və

xarici dünyadan gələn qarayaxma təbliğatına qarşı mübarizədə birgə strategiyalar işləyib hazırlanması üçün lazımi addımları atacağıq.

- Dövlətlərarası əlaqələrdə iqtisadi blok xüsusi çəkiyə malikdir. Qarşılıqlı sərmayə qoyuluşlarının örnək uğur hekayələri bu sahədə böyük potensialın mövcudluğundan xəbər verir. Bu potensialdan tam istifadə etmək üçün nə kimi işlər görülməlidir?

- Türkiyə idxal və ixrac sahələrində Azərbaycanın tərəfdaşları sırasında ikinci yerdədir, eyni zamanda, Azərbaycanın ikinci ən böyük xarici ticarət tərəfdaşıdır. Engerektika sahəsi üzrə göstəricilərin daxil edilmədiyi Türkiyə Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-iyul aylarında ikitərəfli ticarət həcmi 1,35 milyard ABŞ dolları təşkil etmişdir. Engerektika sahəsi üzrə göstəricilərin daxil edildiyi Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə isə cari ilin ilk yeddi aylıq dövründə ikitərəfli ticarət həcmi keçən ilin eyni dövrü ilə müqayisədə 10% artaraq 2,6 milyard ABŞ dollarına çatmışdır. COVID-19 pandemiyasına rəğmən, ölkələrimiz arasında ticarət həcminin artması sevindiricidir.

Digər sevindirici hal isə Azərbaycanın Türkiyənin təbii qaz idxalında birinci yerə çıxmasıdır. Bunda TANAP-ın da böyük payı var. İkitərəfli ticarət həcminin dövlət başçılarımız tərəfindən irəli sürülən 15 milyard dollarlıq hədəfi mövcuddur. Bu mühüm məqsədə çatmaq üçün səylərimizi davam etdiririk.

Son dövrlərdə münasibətlərimizdə çox əhəmiyyətli irəliləyişin şahidi olduq. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, TANAP-ın, SOCAR-ın Türkiyədəki ən mühüm investisiyası olan "Star" Neftayırma Zavodunun açılışı bunlardan ilk sırada olanların bəziləridir. Sonuncu dəfə 2020-ci il fevralın 25-də prezidentlərimizin həmsədrliyi ilə Bakı şəhərində keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII İclasında ümumilikdə 14 sənəd imzaladıq və beləcə əməkdaşlıq perspektivimizi daha yüksək səviyyəyə çatdırdıq. Bu sənədlər ticarətdən energetika və nəqliyyata, hərbi əməkdaşlıqdan vizadan azad olma məsələlərinə kimi çox geniş spektri əhatə edir.

Dövlət başçılarımızın sərgilədikləri güclü siyasi iradə və yaxın dostluq çərçivəsində müəyyənləşdirdikləri yüksək hədəflər istiqamətində təkcə ikitərəfli siyasi münasibətlərimiz deyil, eyni zamanda, bir çox sahələrdə əməkdaşlığımız daha da inkişaf edəcəkdir.

- XXI yüzilliyin əvvəllərindən başlayaraq Türkiyə dünya siyasətində əsas aktora çevrilib. Suriya, İraq, Aralıq dənizinin şərqi kimi məsələləri də göz önündə tutaraq Türkiyənin izlədiyi bu siyasətin qayəsini necə anladardınız?

- Əvvəla, Türkiyənin dünya siyasətində öz gücünü davamlı olaraq kompromissiz şəkildə həyata keçirdiyi prinsipial siyasətindən aldığını qeyd etmək istəyirəm.

Türkiyə Suriya və İraqla ən uzun sərhədlərə sahib olan qonşudur. Aralıq dənizi ilə ən uzun sahilə malik ölkədir. Türkiyə bu coğrafiyada qonaq deyil, region ölkəsidir. Atdığımız hər addım hüquq və mənafelərimizin tələblərindən irəli gəlir. Heç kimin haqq və hüququnu tələb etmirik. Türkiyənin Suriya, İraq və Aralıq dənizi məsələsində atdığı addımlar heç bir vəchlə neft və təbii qaz geosiyasətinə hesablanmayıb. Türkiyə bölgədə sülh və təhlükəsizlik görmək dilər. Türkiyə yerləşdiyi coğrafiyada və digər regionlarda həmişə əməkdaşlığın, sülhün və ədalətin tərəfdarı olmuşdur. Şərqi Aralıq dənizindəki əsas gözləntimiz dəniz yurisdiksiyası sahələrinin düzgün və ədalətli şəkildə müəyyənləşdirilməsi, ikincisi isə adanın ortaq sakinləri olan Kipr türklərinin hüquq və mənafelərinin qorunmasıdır. Türkiyə bu məsələlərin haqlı və ədalətli şəkildə həll olunduğu təqdirdə Aralıq dənizinin barışıq dənizinə çevriləcəyinə inanır.

Biz xarici siyasətimizdə ədalət meyarını əsas götürürük. Azərbaycana dəstəyimizin əsaslarından birini də məhz bu prinsip təşkil edir. Azərbaycan həm bizim qardaşımızdır, həm də haqlı olan tərəfdir. 1 milyondan çox bacı-qardaşımızın 30 ildir doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycan torpaqlarının işğal altında saxlanılması haqsızlıqdır və ədalətsizlikdir. Bu, ən qısa zamanda aradan qaldırılmalıdır və ədalətsizliyə son qoyulmalıdır.

Mübariz Əsgərov
"Milli Məclis" jurnalı
baş redaktorunun müavini

Genosid, deportasiya, terror, qəddarlıq...

erməni şovinizminin cinayətləri bitmir

Ermənistan dinc insanları və şəhərləri atəşə tutmaqla barbarlığını təsdiq etdi

Naqif Həmzəyev
Milli Məclisin deputatı

"Böyük Ermənistan" xəstəliyinə tutulmuş erməni daşnakları ilə qonşuluqda yaşamaq, öz ərazimizdə - dədə-baba torpağımızda bu namərdlərə yer vermək xalqımızın taleyinə terror, işğal, soyqırım, deportasiya kimi faciələrin, dəhşətlərin yazılmasına səbəb oldu. Mənşə etibarı ilə Qafqaz xalqları sırasına mənsub olmayan ermənilər sabun köpüyünə bənzəyən niyyətlərinin puçluğunu göstərməmək üçün illərdir dəridən-qabıqdan çıxır, ən alçaq və rəzil üsullardan istifadə edərək qonşu xalqların torpaqlarını zəbt etmək, onları özlərinin dədə-baba yurdu adlandırmaq üçün hər cür riyakarlıqdan çəkinmirlər. Tarix boyu ölkəmizə qarşı etnik təmizləmə, soyqırım və işğalçılıq siyasəti həyata keçirən Ermənistan faşist ideologiyasından əl çəkmək istəmir.

Azərbaycanın 20 faiz torpağını işğal edərək 1 milyondan çox əhalisini öz doğma yurdundan didərgin salan faşist niyyətli ermənilər bir çox beynəlxalq təşkilatların çağırışlarına, BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə məhəl qoymayaraq hələ də işğalçı mövqeyində qalır. XX əsrin Katın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı ermənilər üçün yetərli olmadı. "Dənizdən dənizə" kimi sarsaq xülyaları naminə insanlığa qarşı ən ağır cinayətlərə - dinc əhalinin vəhşicəsinə kütləvi qırğınına əl atmaqdan usanmayan erməni faşistləri yeni qətliamlara qərar verdilər.

Erməni terrorçuları Xocalı soyqırımından 28 il sonra azərbaycanlılara qarşı növbəti soyqırım törətməkdədirlər. İşğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarını, habelə 2020-ci il oktyabrın 10-da saat 12:00-dan etibarən başlayan humanitar atəşkəs rejiminin tələblərini pozaraq, dinc sakinlərimizi bilərəkdən hədəfə almaqda davam edir.

Azərbaycan ilə Ermənistan arasında humanitar əsasda atəşkəs elan edilməsinə baxmayaraq, erməni tərəfi öz riyakar xislətinə və təcavüzkar mahiyyətinə uyğun olaraq imzalanan razılaşmanın bütün maddələrini kobud şəkildə pozaraq Azərbaycanın həm cəbhəboyu rayon və kəndlərini, həm də cəbhədən uzaqda yerləşən şəhərlərini ağır artilleriya və raket atəşinə tutur. Ən acınacaqlısı isə odur ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan, 500 mindən çox əhalinin yaşadığı və cəbhə xəttindən uzaqda yerləşən Gəncə dayanmadan erməni vandalları tərəfindən raket və artilleriya atəşinə məruz qalır. Oktyabrın 11-də gecə saatlarında Ermənistanın siyasi-hərbi rəhbərliyinin əmri ilə atılan qadağan olunmuş raket 3 yaşayış binasını dağıtdı. Ermənistanın dinc və günahsız azərbaycanlılara qarşı törədilən növbəti terror hücumu nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 40 nəfər yaralandı. Uzaqmənzilli raketlə əhalinin sıx yaşadığı Gəncə şəhərini vurmaları onların xain planlarının bir hissəsi idi.

Hiyləgər, məkrli siyasətindən geri qalmayan düşmən Gəncəni ilk dəfə oktyabrın 4-də raket hücumuna məruz qoymuşdu. O zaman 1 nəfər həlak olmuş, 20-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarət almışdı. Bütün dəyərləri ayaq altına almış çox radikal bir düşmənlə üz-üzə dayanan qədim Gəncə şəhəri erməni terrorizminə, qəddarlığına qarşı müqavimətin mətin qalasına çevrilib.

Heç bir beynəlxalq konvensiya və hüququ tanımayan, başəri dəyərləri tapdalayan, əldə olunmuş razılaşmanı, atəşkəsi xaincəsinə pozan Ermənistanın əməllərinə, Gəncədə törədilən vandalizmə, soyqırımına 28 il əvvəl olduğu kimi yenə də dünya birliyi, beynəlxalq təşkilatlar səssiz qalır. Dünya səsini çıxarmadıqca daha da azğınlaşan erməni hakimiyyəti cəbhədəki uğursuzluqlarını ört-basdır etmək üçün dinc sakinləri daha intensiv atəşə tutur, vətəndaşlarımız arasında təşviş yaşatmağa çalışır. Ön cəbhədən uzaq yaşayış məntəqələrinə, mülki obyektlərə, dinc əhaliyə, o cümlədən uşaq, qadın və qocalara atılan raketlər sübut edir ki, gözünü qan örtmüş düşmən öz arzu və xain niyyətlərini reallaşdırmaq üçün ən şərəfsiz addımlara belə hazırdır. Döyüş meydanında uduzmağın əvəzini Azərbaycanın dinc əhalisinə, mülki obyektlərinə zərbə endirməklə çıxmaq istəyən Ermənistan rəhbərliyinin cəbhədən uzaq Gəncə və Mingəçevir şəhərlərini vurması dövlət terrorizmi və başəri cinayətdir. Ermənistanın son aqressiyası və soyqırım aksiyası insanlıq prinsiplərinə açılan amansız atəş, beynəlxalq normalara açıq meydan oxumaqdır. Dünyada sülhün və təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunmasına; beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsinə; mülki əhalinin öldürülməsini qadağan edən beynəlxalq konvensiyaların yerinə yetirilməsinə məsuliyyət daşıyan, buna nəzarət etməli olan beynəlxalq təşkilatlar Ermənistanın başəriyyətin gözü qarşısında bu qədər açıq və birmənalı şəkildə müharibə cinayəti törətməsinə laqeyd qalmamalıdır.

Azərbaycan xalqına qarşı iki əsrdən artıq davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı yüzillərlə ölçülən tarixi-mədəni abidələrimiz, müqəddəs ocaqlarımız, məbədlərimizdir. Tarixdə vandalizmdən, barbarlıq, terror əməllərindən başqa heç bir izi olmayan Ermənistan uzun illərdir Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə yönələn əməllər törədir, saxtakarlıqla məşğul olur. Bu gün "əsirlikdə" olan tarixi abidələrimizlə yanaşı, döyüş bölgəsindən xeyli aralıda yerləşən ölkə və yerli əhəmiyyətli tarixi abidələr, dini məbədlər də erməni barbarlığından, vandallığından əziyyət çəkir. Ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində "İmamzadə" Dini-Me-

marlıq Abidə Kompleksi zərər görüb. Vaxtı ilə "Kişi gimnaziyası" kimi fəaliyyət göstərən, hazırda isə Azərbaycan Dövlət Aqrar Universitetinin istifadəsində olan yerli əhəmiyyətli tarixi abidə hesab edilən bina da raket zərbəsinin təsirindən yayına bilməyib. Gəncədəki Aleksand Nevski Rus Pravoslav Kilsəsi də erməni vandalizminin hədəfinə çevrilib.

Göründüyü kimi, Ermənistan tərəfi nə tarixi, nə mədəni, nə də dini dəyərlərə məhəl qoymur. Əslində infrastrukturuna qarşı həyata keçirdiyi raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olmaq üçün Gəncəyə səfərə gələn ölkəmizdəki diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərləri erməni vəhşiliyini dünyaya bəyan edəcəklər. Mülki əhaliyə qarşı törədilən vandalizm aktını şəkillərdən, videolardan deyil, canlı izləyən dünya xalqlarının nümayəndələri hərbi cinayətlər törədən, dinc əhalini Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutur.

Dağıntıların altından çıxarılan yaralı uşaqlardan biri olan Ömər Nəsirovun dili söz tutar-tutmaz öz xilaskarlarına dediyi: "Bu, mənim yadımdan çıxmayacaq" sözləri ermənilərə, erməni vandalizmini dolayısı ilə dəstəkləyənlərə bir mesaj oldu. Azyaşlının üz-gözünə bulaşan qanlı göz yaşları, baxışları arxasından təbəssümlə birlikdə düşmənə nifrət

QEYD: Jurnalımız çapa gedərkən bizlər növbəti erməni terrorunun şahidi olduq. Oktyabrın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri növbəti dəfə raket atəşinə tutuldu. Ermənistanın gecə saatlarında törətdiyi bu hərbi cinayət nəticəsində dinc sakinlər arasında ölən və yaralananlar var. Baş Prokurorluq həlak olmuş şəxslərdən 6-nın kişi, 4-nün qadın, 3-nün isə azyaşlı olduğunu bildirib. Başını itirmiş Paşinyan hökumətinin bu cinayətinin cavabı isə daha ağır oldu. Azərbaycan Prezidenti xalqa müraciət edərək ordumuzun qazandığı uğurlardan danışdı və Füzuli şəhərinin və rayonun bir sıra kəndlərinin düşmən işğalından azad olunduğunu elan etdi. Bu düşmənə ən layiqli cavab idi. Ali Baş Komandan bildirdi ki, bizim məqsədimiz işğal altında olan torpaqlarımızın azad edilməsidir və ordumuz düşmənə layiqli cavabı döyüş meydanında verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "İnstaqram" səhifəsində paylaşım edib: "Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir – mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir. Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"

təəccüblü deyil. Öz sabit coğrafiyası, konkret bir tarixi yurdu olmayan və ona dəstək olan, qol-qanad açan bütün qonşularının da yurduna xaincəsinə göz dikən, dinc sakinlərinə hücum edənlərdən bundan artıq nə gözləmək olar?! Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayətlər, qanlı terror aktları hərbi və siyasi təxribat kimi qiymətləndirilməli, dünya birliyi erməni azğınlıqlarına səssiz qalmamalıdır. İnanırıq ki, oktyabrın 12-də Ermənistanın günahsız mülki insanlara və enerji hədəfə alan Ermənistanın vandallığını, barbarlığını, səngimək bilməyən faşist azğınlığını beynəlxalq ictimaiyyətə çatdıracaqlar.

Dünya şahid olsun ki, faşist xislətli erməni daşnakların saxta torpaq iddiası altında Azərbaycan xalqı soyqırıma məruz qalır, evləri yerlə yeksan edilir, dinc sakinlər qətlə yetirilir. Beynəlxalq ictimaiyyət görsün ki, bir tərəfdən işğalçı Ermənistan Moskvada sülh danışıqlarına gedir, guya humanist dövlət olduğunu göstərir, digər tərəfdən isə gecə saatlarında boylandı. Gecə yatdığı yerdə dinc sakinləri, şəhərləri atəşə tutmaqla Ermənistan adi humanizm prinsiplərindən çox uzaq olduğunu, barbarlığını növbəti dəfə təsdiq etdi.

Regionda sülh və sabitliyə ciddi təhlükə yaradan işğalçı erməni hakimiyyətinin təxribatçı əməllərinin şahidi olan dünya, beynəlxalq ictimaiyyət Azərbaycana qarşı yönələn işğalçılıq siyasətini kəskin şəkildə qınamalı, gözünü qan örtən Ermənistanı beynəlxalq hüquqa, humanitar öhdəliklərə əməl etməyə məcbur etməlidir.

Ermənistan insanlığa qarşı

Mülki əhalinin qadağan olunmuş silahlarla hədəfə alınması müharibə, eyni zamanda, insanlıq əleyhinə cinayətlərdir

Bəhruz Məhərrəmov
Milli Məclisin deputatı, hüquq üzrə fəlsəfə doktoru

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin artilleriya atəşinə tutulması, ballistik mərmi və kasetli başlığa malik raketlərlə vurulması heç bir dəyərə və hərbi-siyasi əxlaqa sığmamaqla bərabər, həm də müharibə, eyni zamanda, insanlıq əleyhinə cinayətlərdir. Üstəlik, elə erməni tərəfinin özünün mənbələri - müsahibələr, memuarlar, video çəkilişlər birmənalı olaraq onu deməyə əsas verir ki, cinayətlərin subyektiv cəhəti bölgədə azərbaycanlı kimliyinin məhvi və ərazinin tam olaraq "təmizlənməsinə" yönəlmiş çirkin niyyətdən ibarətdir. Ermənistanın sabiq prezidenti Serj Sarkisyan britaniyalı jurnalist Tomas de Vaalın 2003-cü ildə dərc olunmuş "Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında" əsərində yer almış müsahibəsində açıq şəkildə qeyd edir ki, "Xocalıdan qabaq azərbaycanlılar düşünürdü ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq".

Əlbəttə, şəxslər və hakimiyyətlər dəyişsə də, ideologiyanın dəyişməməsi, eyni təfəkkürün bu gün də davam etməsi və cəbhə xəttindəki təxribatlar Vətən müharibəsinin alovlanmasına səbəb oldu.

Yeni müharibəni qaçılmaz edən faktlardan biri də Paşinyan-Tonoyan cütlüyünün "Yeni müharibə və yeni ərazilər" doktrinası idi. Bu təcavüzkar proqramın ilkin mərhələsi kimi ölkədə "Müdafiə haqqında" Qanuna dəyişiklik edildi. Livan və Suriyadan muzdlular, habelə PKK təşkilatına mənsub terrorçular işğal altında olan Azərbaycan ərazilərində qanunsuz məskunlaşdırılmağa başladı.

Təcrübəli və peşəkar diplomat, sərişteli rəhbər kimi Prezident İlham Əliyev hadisələrin inkişafını zamanında çevik və dəqiq qiymətləndirərək hücum diplomatiyasına üz tutdu, habelə BMT Baş Assambleyasının 75-ci yubiley sessiyasında dünya ictimaiyyətini Ermənistanın yeni müharibə planları barədə xəbərdar etdi. Planetar qurumların ənənəvi hərəkətsizliyi və cəzasızlıq şəraitindən istifadə edən erməni ordusunun növbəti hücumu cənab İlham Əliyevin qətiyyətli komandanlığı, formalaşan hakimiyyət, ordu və xalq vəhdəti sayəsində dayandırıldı, ordumuzun əks-hücumu ilə düşmən darmadağın edildi.

Əlbəttə, bütün bunların fonunda İrəvanın yeganə çarəsi Ermənistanın öz ərazisindən atdığı raketlərlə mülki insanları hədəfə almaqla Azərbaycan tərəfini təxribata çəkmək, münaqişənin mahiyyətini dəyişmək cəhdləri idi. Qarşı tərəf mülki insanlara, yaşayış məntəqələri, təhsil müəssisələri də daxil olmaqla inzibati binalara hücumları ilk günlər boyunlarına almasalar da, Ermənistan baş nazirinin baş müşaviri Vaqarşak Arutunyan oktyabrın 5-də "Rossiya 1" telekanalına müsahibəsində mülki insanları əhali arasında çaxnaşma yaratmaq məqsədi ilə hədəfə aldıqlarını bəyan etməklə, həmin əməllərin heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilmədiyini etiraf etmiş oldu.

Göründüyü kimi, dinc sakinləri hədəfə almaq həm niyyət meyarı ilə bağlıdır, həm də öz xarakterinə görə şüurlu, bilərəkdən və iradə ilə diktə olunan əməllərdir. Müasir dövrdə "yolunu azmış mərmilər" belə onu atmış dövlət üçün ən yaxşı halda üzrxahlıq öhdəliyi ilə yanaşı, mülki məsuliyyət yaratdığı bir şəraitdə mülki əhalinin qəsdən və planlı şəkildə artilleriya atəşinə tutulma-

sı heç şübhəsiz ağır bəşəri cinayət hesab edilməlidir. Belə ki, 1998-ci il Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8-ci maddəsində müharibə cinayətlərinin "plan, yaxud siyasət çərçivəsində törədilməsi" xüsusi təhlükəli hal kimi qəbul edilir. Bu, ilk növbədə silahlı münaqişələrdə tətbiq olunan qanun və adətlərin, habelə 12 avqust 1949-cu il "Müharibə zamanı mülki əhalinin mühafizəsi haqqında" IV Cenevrə Konvensiyasının 147-ci, "Beynəlxalq xarakterli silahlı münaqişələrə dair" I Əlavə Protokolun 11 və 85-ci maddələrinin, habelə 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, "Uşaq hüquqları haqqında" Konvensiya və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın köklü şəkildə pozuntusudur.

Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı hərbi güc tətbiq etməsi, təcavüz zamanı beynəlxalq humanitar hüququ ciddi şəkildə pozması BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələri, Baş Assambleyanın 14 mart 2008-ci il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsi, BMT Təhlükəsizlik Şurası sədrinin 7 bəyanatı kimi sənədlərdə çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəti şəkildə pislənmiş; işğalçı Ermənistandan hərbi əməliyyatların dayandırılması, hərbi birləşmə və texnikanın Azərbaycanın zəbt olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Həmçinin 20-ə qədər dövlətin milli qanunvericilik orqanı Ermənistanın soyqırım və insanlıq əleyhinə cinayətin subyekti kimi tanınmasına dair çoxsaylı qərarlar qəbul etmişdir.

Habelə 2015-ci il iyunun 16-da İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Böyük Palatası "Çıraqov və başqaları Ermənistana qarşı" şikayət ərizəsi üzrə qərarı ilə Azərbaycan ərazisinin işğalı faktını tanımış və dinc sakinlərin Avropa Konvensiyasının müxtəlif maddələri üzrə hüquqlarının pozulduğu qeyd edilmişdir.

Lakin bütün bu qərar, qətnamə və bəyanatlarda əks olunan tələblər işğalçı Ermənistan tərəfindən yerinə yetirilməmiş, sanksiya və məcburi icra mexanizmlərinin işə düşməməsi cəzasızlıq mühiti yaratmış, Ermə-

nistanın əməllərini davam etdirməsinə rəvac vermişdir.

Sentyabrın 27-dən sonra başlanan müharibədə Ermənistanın siyasi-hərbi rəhbərliyi beynəlxalq humanitar hüquq normalarının açıq-aşkar pozulması ilə nəticələnən cinayətlər törətməkdə davam edir. Cəbhəyanı

ərazilərdən kilometrlərcə kənarda yerləşən Gəncə, Mingəçevir, Goranboy kimi iri yaşayış məntəqələrinin və dinc insanların hədəfə çevrilməsi beynəlxalq cinayətlərin ideal məcmu formatını meydana çıxarmaqdadır və təcavüzkar bu əməllərlə yalnız müharibə cinayətləri deyil, paralel olaraq həmçinin insanlıq əleyhinə cinayətlər törətməkdədir.

Beynəlxalq cinayət hüququna əsasən müharibə cinayətləri dedikdə bura müharibə qanun və ya adətlərini pozmaq, bu pozuntularla işğal olunmuş ərazinin mülki əhalisini öldürmək, işgəncə vermək, qula çevirmək və ya başqa məqsədlə aparmaq, hərbi əsirlər və ya dənizdə olan şəxsləri öldürmək və ya onlara işgəncələr vermək, girovları öldürmək, ictimai və ya şəxsi əmlakı talamaq, şəhər və kəndləri əsassız olaraq dağıtmaq, hərbi zərurət olmadan talançılıq və başqa cinayətlər başa düşülür. İnsanlıq əleyhinə cinayətlərin tərkibini isə müharibəyə qədər və ya müharibə zamanı adam öldürmə, işgəncə vermə, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani hərəkətlər və ya siyasi, irqi və ya dini motivlərə əsasən mülki əhalini təqib etmə yaradır. Həmçinin Nürnberq Tribunalı Nizamnaməsinin 6-cı maddəsinə görə, insanlıq əleyhinə cinayətlərə müharibəyə qədər və ya müharibə dövründə mülki əhaliyə qarşı törədilmiş adam öldürmə, əhalini məhv etmə, kölə vəziyyətinə salma, deportasiya, zorlama, işgəncələr, siyasi, irqi və ya dini səbəblərə görə təqib etmələr aiddir.

> Müasir dövrdə "yolunu azmış mərmilər" belə onu atmış dövlət üçün ən yaxşı halda üzrxahlıq öhdəliyi ilə yanaşı, mülki məsuliyyət yaratdığı bir şəraitdə mülki əhalinin qəsdən və planlı şəkildə artilleriya atəşinə tutulması heç şübhəsiz ağır bəşəri cinayət hesab edilməlidir.

Bundan başqa, Ermənistan həmçinin dinc sakinlərə qarşı 1949-cu il Cenevrə Konvensiyası, 1980-ci il IV Protokol, 2008-ci il Dublin Konvensiyası, habelə Tərksilah üzrə Konfrans tərəfindən bəşəriyyət üçün təhlükə hesab etmiş silahlardan - kaset başlıqlı raketlərdən, habelə sərt üzlüyü, yaxud kəsikləri olan örtüklü güllələr tipli asan parçalanan, yaxud insan bədənində yastılanan sursatlardan istifadə etməkdədir.

Hesab edirik ki, əməllərin beynəlxalq səviyyədə ictimai təhlükəli xarakter daşımasına və etiraflara baxmayaraq, bu günə qədər Ermənistan hərbi-siyasi rəhbərliyinin məsuliyyətə cəlb olunmaması aktual məsələlərdən biri olmalıdır.

Roma Statutunun 8-ci maddəsinin tələblərinə görə də, mülki əhaliyə zərbə endirmək, habelə hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə qəsdən hücum etmək, hərbi məqsədlər daşımayan dini, təhsil, incəsənət, elm və ya xeyriyyəçilik məqsədləri üçün təyin olunmuş binalara, tarixi abidələrə, xəstəxanalara, eləcə də xəstələrin və yaralıların cəmləşdikləri yerlərə qəsdən zərbələr endirmək kimi əməllərdən hər hansı biri geniş miqyasda və dövlət siyasəti formasında törədildikdə, proses Beynəlxalq Məhkəmənin yurisdiksiyasına aid olur.

Düzdür, belə dilemma vardır ki, xidməti funksiyanı yerinə yetirən vəzifəli şəxs və ya hərbi qulluqçu xidməti və ya vəzifə fəaliyyətinə görə məsuliyyət daşımır. Lakin BCM Statutunun 25-ci maddəsində aydın göstərilir ki, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətmiş şəxs fərdi qaydada məsuliyyət daşıyır və cəzalandırılmalıdır. Ratifikasiya edilib-edilməmə ilə bağlı məqama gəlincə isə statuta uyğun olaraq məhkəmənin yurisdiksiyası bütünlükdə beynəlxalq ictimaiyyətin narahatlığına səbəb olan təhlükəlilik dərəcəsinə görə mövcud cinayətlərlə məhdudlaşır və bu mənada Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə görə mühakimə edilərək cəzalandırılması tamamilə mümkündür.

Erməni vandalları mədəni abidələrimizi məhv edir

Qənirə Paşayeva
Milli Məclisin Mədəniyyət komitəsinin sədri

Ermənistanın öz dövlət müstəqilliyini elan etməmişdən əvvəl Azərbaycana qarşı başladığı təcavüzkarlıq siyasəti müstəqillik illərində, necə deyərlər, yalnız siyasi-nəzəri görüş olmaqda qalmadı, gerçək müstəvi üzərində qanlı praktikaya keçdi. Öncələr daha çox sosial-məişət, incəsənət aləmində Azərbaycan mədəniyyət örnəklərinin "ermənileşdirilmə"sinin şahidi olurduqsa, həmin o "qanlı praktika" dövründə erməni üzü daha çox dağıntılar, yoxetmə, özününküləşdirmə kimi vandallıqlarla müşahidə olundu. Yalnız "Sarı gəlin"imiz, dolmamız, lavaşımız, qara zurna, kaman və tütəyimiz... deyil, azərbaycanlıların tarix boyu yaratdığı, yaşatdığı və 90-cı illərdə işğala məruz qalan hər daş, hər tikili... ermənileşdirməyə (yaxud ermənicə dağıdılmağa) məruz qaldı. Min bir bəhanə və "bəzəmə" ilə müharibə cinayətlərindən yayınma cəhdlərində bulunsa da, Ermənistan dövlətinin işğal bölgəsindəki maddi mədəniyyət abidələri ilə davranışı tam bir insanlıq cinayətidir. Yalnız yerli əhəmiyyətli abidələrin deyil, dünya əhəmiyyətli mədəniyyət incilərinin də erməni vandallığından öz nəsibini alması, bizim necə bir zehniyyətlə, daha doğrusu, zehniyyətsizliklə üzüzə qaldığımızı bir daha göstərir. Biz ermənilərin təkcə hərbçilərlə deyil, dinc əhali ilə, körpələrlə, qocalarla da elan olunmamış müharibə apardıqlarını bilirik; lakin dünya bunu anlamalıdır ki, ermənilər yalnız diri azərbaycanlılarla deyil, bizim ölülərlə də müharibə edir. Cəsədlər üzərində eksperimentlər aparılmasını, ölülərin təhqir edilməsini, qəbiristanlıqların dağıdılmasını başqa cür necə izah etmək olar?!

Bütün bunlar azmış kimi, hər kəsin bildiyi beynəlxalq hüququn məşhur "işğalçı işğalın nəticələrindən öz xeyrinə istifadə edə bilməz" prinsipi Ermənistan tərəfindən hər gün (işğal bölgəsinin hər yerində) pozulur. İşğal altındakı torpaqların altında, üstündə ələ keçən hər şeyi talamağı (şəxsi mülklərə, işğalçı ordunun təminatına və işğalçı dövlətin nəfinə daşımağı) XXI yüzillikdə ancaq ermənilər özlərinə yaraşdırar... Bu, dünya mültikulturalizm çağırışları ilə, sivilizasiyalararası dialoqla necə uzlaşdırıla, necə izah edilə bilər?

İnsan cəmiyyətinin böyük bir mədəni irsə malik olduğu XX yüzilliyin sonları XXI yüzilliyin əvvəllərində də yenə işğalçılıq, soyqırım aktı törətmək, hərbi cinayətlər etmək özlüyündə bəşər mədəniyyətinə qarşı çıxmaqdır. Əlbəttə, bu hərbi cinayətlər tam haqsız yerə edilib, dinc insanların – körpələrin, qadınların, qocaların qanı tökülüb, minlərlə cavan ömürlük şikəst edilib...

Beynəlxalq ictimaiyyət mədəniyyət, maarif və elm sahələrində əməkdaşlığı dünyada sülhü və təhlükəsizliyi təşviq etmək üçün önəmli bir yol hesab edərkən, Ermənistan tam yolsuzluğu seçib. Belə bir yolsuz, hüquqtanımaz zehniyyətlə mədəni mübadilə - məsələn, sülh mədəniyyətini təşviq etmək mümkündürmü? İlkin olaraq, nifrət nitqindən imtina etməyi belə bacarmayan, mədəniyyət düşməni Ermənistan hakimiyyətinin qəbul etdiyi, anladığı bir dil, bir üslub var: silah dili, müharibə üslubu!

Ermənistan dövlətinin "xarakter"i başqa mədəniyyətlərə qarşı dözümsüzdür. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev işğalçı Ermənistanı "Failed state" - uğursuz dövlət adlandırıb.

Biz hələ onu demirik ki, Ermənistan faktiki monoetnik dövlətdir və onunla həmhüdud dövlətlərin heç birində belə etnik mənzərə, daha doğrusu, mənzərəsizlik yoxdur; hətta dünyanın başqa bir coğrafiyasında da hazırda monoetnik dövlət təsəvvür etmək çətindir. Üstəlik, həmin o monoetnik dövlətin işğala məruz qoyduğu tərəf etnik mənzərə baxımından bölgənin ən zəngin ölkəsidir.

Vicdanı olan heç kəs inkar edə bilməz ki, məhz Azərbaycan Respub-

likası sivilizasiyalar və mədəniyyətlərarası dialoqun əsas ünvanlarından biridir. Ölkəmizdə insanlar dini, milli mənsubiyyətdən asılı olmayaraq, min illər boyu sərbəst yaşayıb, yaşayır və yaşayacaq; burada heç bir abidə dini, milli məzmununa görə mənfi münasibət görmür, tam əksinə, dövlət tərəfindən qorunur, gərəkirsə, təmir-bərpa işləri aparılır. (Bunun "qarşılığında", dünyaca məşhur Azərbaycan sənətkarları Bülbül, Natəvan və Üzeyir bəy Hacıbəylinin Şuşadakı bürünc büstlərinin Ermənistan silahlı qüvvələri tərəfindən güllələbaran edildiyi dünyanın bildiyi acı bir gerçəkdir...)

Bu sətirlərin yazıldığı günlərdə ölkəmizin musəvi və pravoslav dinigörüşlü vətəndaşlarının sinaqoq və kilsələrdə Azərbaycan Ordusunun qələbəsi üçün dualar etməsi də ölkəmizdə sivilizasiyalar və dinlərarası dialoqun, həmrəyliyin səviyyəsini göstərməkdədir. Bu gözəl mənzərə önündə bir də qarşı tərəfi təsəvvür edin: qriqorian məzhəbindən kənar dini abidələr ya barmaq sayı qədər qalıb (ona da məcbur olublar), ya da dağıdılıb və ibadət yeri kimi deyil, heyvan saxlama məntəqəsi kimi istifadə edilir. Belə bir ortamda nəinki digər din mənsubları Ermənistan silahlı qüvvələri üçün dua edər, hətta heç qriqorian məzhəbi mənsublarının duası da Tanrı qatında qəbul görməz.

Gəlin Ermənistanın bədnam işğalçılıq praktikasının mədəniyyət planındakı acı gerçəkliyinin statistikasına diqqət yetirək. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin ən yeni rəsmi açıqlamasına görə, işğal edilmiş ərazilərdə viran edilmiş yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən:

- 4,6 milyon kitab fondu olan 927 kitabxana,
- 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi,
- 85 musiqi və rəssamlıq məktəbi işğaldan və işğalçılardan "nəsibini" alıb...

Bununla yanaşı,

- 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı,
- 4 rəsm qalereyası,
- 4 teatr müəssisəsi,
- 2 konsert müəssisəsi,
- 8 mədəniyyət və istirahət parkı,
- işğaladək dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi,

o cümlədən:

- Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII yüzillər),
- Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri (XIII əsr),
- Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə (XIV əsr),
- Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən olan Azıx mağarası,
- Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu və s. erməni vandalizminin acı zərbələrinə məruz qalıb.

Müzəffər ordumuz sentyabrın 27-dən bəri bir çox ərazilərimizi işğaldan azad etdiyi, bir çox məntəqəni nəzarət altına götürdüyü üçün hazırda işğalçı yalnız Ermənistan silahlı qüvvələrinin tam nəzarəti altında qalmış abidələrə zərər vermək imkanına malikdir; lakin biz tam əminik ki, çox yaxın günlərdə torpaqlarımızın hamısını dövlətimizin tam nəzarətinə qaytarıb, oradakı bütün maddi mədəniyyət abidələrini də vandallıqdan qurtaracağıq.

Onu da qeyd edək ki, Ermənistanın Azərbaycan mədəni irsinə vandallığı yalnız işğal altındakı Qarabağ torpaqlarında baş verməyib, Ermənistan Respublikasının hüdudları daxilindəki bütün maddi-mədəniyyət abidələrimiz də ağır müdaxilələrə məruz qalıb, yaxud dağıdılıb. İşğalçı dövlətin ərazisində çox sayda tarixi-memarlıq abidələrimiz - karvansaralar, imarətlər, məscidlər, mavzoleylər, məqbərələr, qəbirüstü abidələr və s. mövcud olub.

XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid mövcud olub və onların hamısı memarlığı ilə seçilib. İrəvan qalasındakı bütün tarixi abidələr, o cümlədən İrəvan xanının sarayı və unikal Sərdar (Abbas Mirzə) məscidi məhv edilib.

Bu gün Ermənistan Respublikası hüdudları daxilində azərbaycanlılara məxsus iki tarixi-memarlıq abidəsi qorunsa da, erməni hiyləgərliyi onlardan da yan keçməyib - İrəvandakı ünlü Göy məscidi "fars məscidi", İrəvan yaxınlığındakı Əmir Səəd məqbərəsini isə "türkmən abidəsi" kimi "sertifikatlaşdırıb".

Ermənistan ərazisindəki qəbiristanlıqlarımız vandalcasına dağıdılıb. Azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə yanaşı, bizə məxsus toponimlərə qarşı da vandallıq edən ermənilər tarix

PƏNAHƏLI XAN SARAYI (ŞUŞA)

boyu azərbaycanlıların yaşadığı 703 yaşayış məntəqəsinin adını rəsmən dəyişdirib, ermənileşdirib.

Hazırda əsas hədəfimiz Ermənistanın işğalına və terroruna son verərək, BMT tərəfindən tanınmış ərazilərimizdəki abidələrimizi qoruma altına almaq, onları bərpa etmək olsa da, beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan ərazisindəki abidələrimizə də yönəltməkdə fayda var. Ortaya məntiqi sual çıxır:

- Tarix boyu öz dədə-baba torpaqlarında yaşamış azərbaycanlılar necə ola bilər ki, Ermənistan Respublikasının hüdudları daxilində qalmış ərazidə bir ədəd belə abidə yaratmamış olsun?

- 102 il öncəyədək mövcud olan abidələrimiz bir yana, bəs 1988-ci ilədək qorunub-saxlanmış abidələrimiz ötən illər ərzində hara qeyb olub?!

Cavab birdir:

- Monoetnik bir dövlətin ərazisindəki bütün qeyb olmaların məsuliyyətini məhz ermənilər və Ermənistan dövləti daşıyır.

Onu da unutmuruq ki, Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi nəticəsində həyatını itirmiş neçə sənət adamı, mədəniyyət xadimi və gələcəyi parlaq istedadlar vardı... Uzaq 1919-cu ilin soyuq fevral ayının 5-də erməni polkovnikinin başçılığı ilə "Küllü təpə" deyilən yerdə belinə odlu samovar bağlanaraq, beş oğlu ilə birlikdə vəhşicəsinə

Ermənistanın Azərbaycan mədəni irsinə vandallığı yalnız işğal altındakı Qarabağ torpaqlarında baş verməyib, Ermənistan Respublikasının hüdudları daxilindəki bütün maddi-mədəniyyət abidələrimiz də ağır müdaxilələrə məruz qalıb, yaxud dağıdılıb.

öldürülən Aşıq Nəcəf... nə birinci, nə də sonuncu şəhid edilən mədəniyyət xadimi olmayıb, təəssüf ki!

Təsəllimiz odur ki, hazırda dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur yeri olan qüdrətli müstəqil dövlətimiz var və müzəffər ordumuz düşmən tapdağı altındakı torpaqlarımızı işğaldan azad etməkdədir.

DÖVLƏTİMİZ VAR OLSUN!

Müharibəyə gedən yol

Sevil Mikayılova
Milli Məclisin deputatı

Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsi tarixində, nəhayət, ciddi dönüş mərhələsi yaşanmaqdadır. İşğalçı Ermənistanın kəskin və miqyaslı təxribatları Dağlıq Qarabağ münaqişəsi ilə bağlı davam edən sülh danışıqlarının bütün perspektivlərini heçə endirmişdi. Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Azərbaycan ərazisində mülki vətəndaşları nişana almaqla düşmən tərəf faktiki ölkəmizi əks-həmlə tədbirləri görməyə vadar etdi. Ermənistan "sülh"ə yox dedi – düşmən müharibəni seçdi.

Müharibəyə aparan prosesləri təhlili göstərir ki, Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayan Ermənistan son dönəmlərdə öz təxribatçı əməllərinin miqyasını genişləndirmişdı. Ermənistanın ifrat dərəcədə hərbiləşdirilməsi və silahlandırılması yeni müharibə ocağını alovlandıracaqdı və nişangahda kimin olduğu hər kəsə aydın idi - hədəf Azərbaycan idi.

Ermənistanda siyasi, iqtisadi və sosial vəziyyətin böhran həddinə çatması baş nazir Nikol Paşinyanı ölkədaxili siyasi müstəvidə ağlasığmaz manevrlərə məcbur edirdi. Onun addımları getdikcə daha çox xaotik xarakter alırdı və bütün hüquqi çərçivələri aşırdı. İntensiv müharibəyə cağırışlar əslində əhali arasında artan narazılıqları örtbasdır etmək, yalançı "patriotizm" görüntüsü yaratmaqla məsələlərin mahiyyətini təhrif etmək istəyindən doğurdu.

Təəssüf ki, 1992-ci ildən davam edən sülh danışıqları ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi bir irəliləyiş əldə olunmadı. ATƏT-in Minsk qrupunun həmsədrliyi ilə aparılan danışıqlar işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından dalana dirəndı. Məsələni qəlizləşdirən məqam isə o idi ki, sülhün əldə olunmasını gözlədiyimiz halda, düşmən tərəfi heç bir məntiqə sığmayan maneələrlə bütün ümidləri heçə endirdi. Son dövrdə Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətindəki dövlət sərhədində törətdiyi təxribatın ardından ölkənin sürətli silahlanması və hərbiləşdirilməsi əslində Nikol Paşinyanın hakimiyyətinin məkrli planlarının olmasından xəbər verirdi. Bəli, düşmən sülhə yox, müharibəyə hazırlaşırdı.

Açıq-aşkar müharibəyə çağırışlar var idi. Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal altında olan ərazilərinə qeyri-qanuni səfərlər etməsi və burada hərbi hissələrə baş çəkməklə vəziyyətə nəzarət olunması kimi görüntü yaratmaq cəhdlərinin əslində haradan qaynaqlanması da hər kəsə aydın idi. Bu cür səfərlərin mütəmadi hal alması ilə yanaşı, N.Paşinyanın həyat yoldaşı Anna Akopyanın Qarabağa gələrək "Qadınlar sülh naminə" çətiri altında yerli qadınları hərbi təlimlərə cəlb etməsi isə münaqişənin inkişafında tamamilə yeni istiqamətləndirmə idi. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan öz qoşunlarını çıxarmaq əvəzinə qadınları da hərbiləşdirmək planları Ermənistanın işğalı möhkəmləndirməkdə israrlı olduğunu bir daha göstərirdi.

Sülh danışıqlarında vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistanın təxribatçı əməllərinə susqunluq nümayiş etdirərək seyrçi mövqedə dayanması isə, zənnimizcə, münaqişənin belə idarəolunmaz vəziyyətə gəlib çıxmasına əsas səbəb oldu.

Millətçilik və faşizm kimi təhlükəli meyilləri özünün dövlət siyasətinə çevirmiş Ermənistanın beynəlxalq hüququn bütün norma və prinsiplərinə meydan oxuması hec də yeni deyildi. Paşinyanın muzdlu dəstələrin yaradılması ilə bağlı müdafiə barədə qanuna etmək istədiyi dəyişikliyin mahiyyətində öz ordusunu necə olursa-olsun möhkəmləndirmək niyyəti dayanırdı. Bundan başqa, işğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşma aparmaqla Ermənistan beynəlxalq hüquq normalarını bir daha kobudcasına pozur, Cenevrə konvensiyalarının, eləcə də 4-cü Cenevrə Konvensiyasının işğal altında olan ərazilərdə məskunlaşmanı qadağan edən müvafiq müddəalarına zidd fəaliyyət göstərərək dünya birliyinin gözü qarşısında qanunsuz əməllərini davam etdirirdi.

Sülh danışıqlarında vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistanın təxribatçı əməllərinə susqunluq nümayiş etdirərək seyrçi mövqedə dayanması isə, zənnimizcə, münaqişənin belə idarəolunmaz vəziyyətə gəlib çıxmasına əsas səbəb oldu. ABŞ, Rusiya və Fransanı təmsil edən və kifayət qədər təcrübəsi olan diplomatların belə "qeyri-diplomatik" davranışı təəccüblü idi və problemin çözülməsində nə dərəcədə maraqlı olmaları isə sual yaradırdı.

Hazırda baş verən böhranlı vəziyyətin yetişməsində qeyri-effektiv vasitəçilik missiyası həyata keçirən ATƏT həmçinin məsuliyyət daşıyır. Zamanında işğalçıya qarşı lazımi tədbirlərin görülməsi üçün mövcud qanuni çərçivələrə əsaslanaraq tədbirlər görülsə idi, münaqişənin həlli prosesində etinasız münasibət sərgilənməsə idi, eləcə də təxribatlara adekvat cavab verilsə idi, sülh prosesi iflasa uğramazdı.

Çox təəssüf ki, Ermənistan tərəfi danışıqlar prosesində əsas baza sənədləri hesab edilən və Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən və birmənalı şəkildə Ermənistanın işğalçı ordusunun Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, eləcə də Avropada təhlükəsizliyin təmin edilməsi üçün qəbul olunmuş və ölkələrin ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipini əks etdirən Helsinki Yekun Aktını heçə saydı.

Tarixi təcrübə dünya düzəninə təhdid yaradan və beynəlxalq əməkdaşlığa zərbə vuran münaqişələrin həllinə etinasızlığın ağır fəsadlarının olduğunu dəfələrlə göstərib. Öz yurd-yuvalarında qaçqın və köçkün vəziyyətinə düşən 1 milyondan artıq azərbaycanlının fundamental insan haqları ötən üç onillik ərzində kobudcasına pozulub. Ermənistanın dağıdıcı və vəhşi əməlləri işğal altında olan ərazilərdə maddi-mədəni irsin məhvinə yönəlib və göz bəbəyi kimi qoruyub bu günümüzə çatdırdığımız tarixi-mədəni varidatımız, xüsusilə İslam abidələri elə hamının gözü qarşısında xüsusi amansızlıqla dağıdılıb. Ermənilərin ətraf mühitə, bu yerlərin fauna

Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin məqbul olduğunu bəyan edib və Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın hüquqi ərazilərindən birmənalı və qeyd-şərtsiz çıxması münaqişənin tarixi həlli üçün yeganə şərtdir.

və florasına vurduğu ziyan təbiət üçün sağalmaz yaradır və ümumilikdə, bəşəriyyətə qarşı işlədilən ağır cinayətdir. Nadir meşə zolaqlarının məhv edilməsi, su ehtiyatlarının çirkləndirilməsi, yeraltı və yerüstü sərvətlərin israfçılıqla dağıdılması əslində ciddi həyəcan siqnalı olmalı idı. Beynəlxalq birliyin bu məsələdə soyuqqanlılığı anlaşılmaz idi.

Azərbaycan dövləti beynəlxalq qanunun aliliyinə və ədalətinə inanaraq öz haqq işini davam etdirir və bütün yüksək kürsülərdən işğalçı Ermənistanın bəşəriyyəti və regional təhlükəsizliyi təhdid edən təcavüzkar siyasətini və əməllərini ifşa edir. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin məqbul olduğunu bəyan edib və Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın hüquqi ərazilərindən birmənalı və qeyd-şərtsiz çıxması münaqişənin tarixi həlli üçün yeganə şərtdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə real təhdid mənbəyidir. Bu təhdidin birdəfəlik və qəti şəkildə aradan qaldırılması, tarixi ədalətin bərpa olunması üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında nizami silahlı qüvvələrimiz uğurlu əks-hücum tədbirləri həyata keçirməkdədir. Azərbaycan torpaqlarının düşmən tapdağından tam və birdəfəlik azad olunacağı tarixə isə az qalıb.

Beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda, iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaq.

Hər gün cəbhədən aldığımız xoş xəbərlər hər kəsi ruhlandırır, vətən torpaqlarında sərbəst gəzəcəyimiz gün uzaqda deyil. Qarabağ Azərbaycandır!

Güclənərək birləşmək və birləşərək güclənmək

Cavanşir Feyziyev
Milli Məclisin deputatı, fəlsəfə üzrə fəlsəfə doktoru

Geniş Avrasiya ərazisində yaşayan türk xalqları tarix boyu özlərinin çoxsaylı dövlətlərini yaradıb, zaman-zaman bir-biri ilə birləşib, ayrılıb və bu günümüzə zəngin tarixi dövlətçilik təcrübəsi ilə gəlib çatıblar. Türklərin dövlətçilik ənənələri dünya siyasi tarixinin inkişafına böyük töhfələr verib və hazırda mövcud olan xalqların böyük bir qismi bu təcrübədən bəhrələnərək öz dövlətlərini qura biliblər. Bu gün dünyanın siyasi xəritəsində 6 müstəqil türk dövləti, başqa dövlətlərin tərkibində isə onlarca müxtəlif siyasi, iqtisadi və mədəni muxtariyyət statusları ilə yaşayan türk toplumları və onların yerli özünüidarə qurumları var. Bunlarla yanaşı, bir sıra dövlətlərin ərazilərində hələ də öz fundamental haqlarını reallaşdıra bilməyən çoxsaylı türk toplumu var ki, onlar da öz haqlarının tanınması uğrunda tərkibində yaşadıqları dövlətlərin rejimlərinə qarşı mücadilə aparırlar.

Son onilliklərə qədər uzun müddət türk xalqlarının yaşadığı geniş coğrafi məkanda bu və ya digər formada, lakin ardıcıl olaraq imperializm siyasəti yeridilib; bu xalqların nəinki əraziləri, həm də milli, mədəni, intellektual sərvətləri də zəbt olunub, bütün maddi və mənəvi ehtiyatlar həmin siyasətin maraqlarına xidmət edib. Lakin müstəqilləşmə ilə başlayan və suveren türk respublikalarının öz iradəsini ortaya qoymaq imkanlarını açan yeni geosiyasi şərait bu siyasətin təsirlərini kifayət qədər azaltdı. XX əsrin 90-cı illərində SSRİ-nin tərkibindəki türk respublikalarının müstəqilləşməsi türk dünyası üçün böyük perspektivlər açdı və sovet imperiyasının tərkibindən çıxmış Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan bu gün milli müstəqillik dayaqlarını möhkəmləndirməklə məşğuldurlar. Bu xalqların hər biri öz dövlətlərini daha güclü, daha müasir bir quruluşa çatdırmağa səy göstərirlər.

Əlbəttə, güclü olmaq bir zərurətdir, amma güclü olmaq heç də hər şeyin həllinə nail olmaq demək deyil. Əslində güclü olmaq həmişə diqqət mərkəzində olmaq, rəqabətdə olan digər dövlətlərin maneələri ilə üzləşmək və bu maneələri dəf etmək məcburiyyətində qalmaq deməkdir. Güclü olmaq savaşların mərkəzində olmaq, daim gözlənilməz təhlükələrlə üzbəüz qalmaq deməkdir.

Deməli, sadəcə müstəqil və güclü olmaq milli-azadlıq idealarımızın tam qələbəsi hesab oluna bilməz. Burada çatışmayan daha bir komponent var. Bu gün gücün birliklə tamamlanması həqiqəti türk dünyasının gələcəyini müəyyən edən əsas şərtə çevrilməkdədir. Müstəqil olmaq və güclü olmaqla yanaşı, eyni zamanda, birlikdə olmaq həm müstəqilliyimizin, həm də güclü olmağımızın ən etibarlı zəmanətidir. Artıq bütün müstəqil türk dövlətlərində bu paradiqma dərk edilməkdədir. İndiyədək bu istiqamətdə müəyyən addımlar atılıb, amma daha qətiyyətli addımların atılmasına ehtiyac var.

Müstəqillik dönəminin başlanğıcından türkdilli ölkələr arasında davamlı olaraq keçirilən dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları, dövlət başçılarının zirvə toplantıları, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iclasları, TÜRKSOY çərçivəsində həyata keçirilən tədbirlər, Türkdilli Ölkələrin Parlament Assambleyasının sessiyaları və digər bu kimi tədbirlər böyük türk dünyasını bütövləşdirməyə yönələn fəaliyyətlərin meydanını gündən-günə genişləndirir. Bu gün türk dövlətlərinin qarşılıqlı münasibətləri ilə bağlı olan sənədlər siyasətdən iqtisadiyyata, mədəniyyətə, elm və təhsilə qədər bütün istiqamətlərdə əlaqələrimizin real əsasını təşkil edir. Belə çoxtərəfli əsaslar üzərində

müasir türk respublikalarının müştərək siyasi platforması, iqtisadi coğrafiyası və milli-mədəni identifikasiyası formalaşır. Bu genişlənmə getdikcə daha çox siyasi-iqtisadi və ictimai-mədəni məzmun alır və daha çox beynəlxalq əhəmiyyət kəsb edir.

Bu gün Avrasiya məkanında suveren türk milli dövlətlərinin daha sıx müttəfiqliyinə doğru aparan yeni geosiyasi vəziyyət yaranıb. Türkiyə və Avropa Birliyi arasında onillərlə uzanan danışıqların dayandırılması, artıq 30 ildən çox kənar güc mərkəzləri tərəfindən Azərbaycana qarşı hibrid müharibənin aparılması və Qarabağ münaqişəsinin başımız üzərində "Domokl qılıncı" kimi saxlanması, Mərkəzi Asiya türk respublikalarının keçmiş imperiyanın təsirindən tam azad ola bilməməsi biz türkləri daha mütərəqqi və doğru bir yola - türk dövlətləri arasında müttəfiqliyin dərinləşdirilməsinə və onun işlək siyasi əsaslarının yaradılmasına yönəldir. Bu, bizim üçün tarixi bir fürsət, dünya üçün isə Avrasiyada sülhün və sabitliyin təmin olunmasına böyük bir töhfə imkanıdır.

Türk birliyini mümkün və zəruri edən ilkin əsaslar tarixən mövcuddur və bu gün də öz aktuallığını qoruyub saxlayır. Eyni sivilizasiya koduna mənsubluq, dil, din və mədəniyyət eyniliyi, eləcə də müstəqil türk milli dövlətləri arasında birbaşa coğrafi bağlılıq və ən başlıcası, bütün türk dövlətlərində xalqın özündən gələn qarşılıqlı cazibə qüvvəsi - bütün bunlar beynəlxalq birlik yaratma təcrübəsində öz təsdiqini tapmış ilkin şərtlərdir. Bu gün dünyada gedən qloballaşma prosesləri türk birliyinin siyasi əsaslarını təşkil edir. Avropa ölkələrinin AB şəklində siyasi ittifaq səviyyəsinə qədər inkişaf edə bilməsi türk dövlətləri arasındakı münasibətlərin də analoji vektor üzrə siyasi müttəfiqlik statusuna yüksəlməsi üçün nümunə və təcrübə yaradıb. Bu təcrübənin müsbət və mənfi xüsusiyyətlərini nəzərə almaqla türk dövlətləri öz aralarında siyasi birliyin daha mükəmməl formasına nail ola bilərlər.

Türk Dövlətləri Birliyinin (TDB) təsis edilməsi heç də milli müstəqilliyin itirilməsi hesabına deyil, əksinə dövlətlərüstü siyasi qurumun hesabına milli dövlətçiliyin daha da möhkəmləndirilməsinə və hər bir türk dövlətinin xarici təzyiqlərə qarşı müqavimət gücünün artırılmasına xidmət etməlidir.

Dövlətlərarası siyasi birliyin digər bir mühüm şərti də ortaq iqtisadi bazarın mövcudluğudur. Bu baxımdan da türk dövlətlərinin ayrı-ayrılıqda mövcud iqtisadi potensialı kumulyativ şəkildə analoji birliklərin iqtisadi potensialını üstələyir. Belə ki, hazırda təxminən 250 milyon türk əhalisinin yaşadığı Avrasiya türk arealında mövcud olan təbii resursların təsdiq olunmuş həcmi 500 milyon əhalisi olan AB-nin toplam təbii resurslarından 2 dəfə çoxdur. Deməli, türk coğrafiyasında təbii resursların adambaşına düşən xüsusi çəkisi Avropaya nisbətdə 4 dəfə çoxdur. Belə zəngin iqtisadi potensiala malik olan bir ərazidə eyni etnik kökə sahib olan xalqlar arasında qarşılıqlı siyasi-iqtisadi, mədəni-

Müstəqil olmaq və güclü olmaqla yanaşı, eyni zamanda, birlikdə olmaq həm müstəqilliyimizin, həm də güclü olmağımızın ən etibarlı zəmanətidir. Artıq bütün müstəqil türk dövlətlərində bu paradiqma dərk edilməkdədir.

sosial münasibətlərin yeni əsaslar üzərində, yəni ittifaq əsasları üzərində qurulması dünyada birlik yaratma təcrübəsinin ən uğurlu nümunəsi ola bilər.

Müasir türk respublikalarının öz aralarında onları ciddi şəkildə toqquşduracaq "daxili ziddiyyətlər təhlükəsi" də yoxdur. Lakin türk dünyasının bütövlüyünü sarsıtmaq istəyənlər tərəfindən "xarici təhlükə" həmişə bu ərazilərin başı üzərində qara bulud kimi dolaşıb və dolaşmaqdadır. Hər cür təhlükəyə qarşı səfərbər olmaq, güclənərək birləşmək və birləşərək güclənmək zərurəti bu gün türk dünyasının var olmaq gerçəkliyidir. Bu gün hər bir türk dövlətinin öz ərazisində milli hegemonluğunu qoruyub saxlaya bilməsi bütün türk coğrafiyasında türk hegemonluğunun təmin edilməsindən birbaşa asılıdır.

Hadisələrin bu günə qədərki inkişafı göstərir ki, türk dövlətlərinin öz aralarında siyasi birlik yaratması üçün ilkin mərhələ artıq geridədir. İndi dövlətlərarası münasibətlərin elə bir mərhələsinə keçid etmək lazımdır ki, orada bütün türk dövlətlərinin problemləri bir arada müzakirə olunsun və dünya siyasətinə vahid platformadan - ortaq türk mövqeyindən bəyan edilsin. Bu mərhələyə keçidin ilk addımları isə Azərbaycan-Türkiyə münasibətlərinin dinamikasından çox asılıdır. Hazırda bu iki dövlət "bir millət, iki dövlət" paradiqması əsasında özlərinin daxili və xarici siyasətlərini uğurla uzlaşdırırlar. Bu yanaşma beynəlxalq müstəvidə hər iki dövlətin mövqeyini möhkəmləndirən ən səmərəli yanaşmadır. Son 30 ildə Türkiyə-Azərbaycan münasibətlərinin qardaşlıq münasibətlərinə yüksəlməsi onların beynəlxalq siyasətdə vahid platformadan çıxış etməsini təmin edib və hər iki ölkənin milli təhlükəsizlik məsələləri ən vacib ortaq məsələ olaraq dəyərləndirilir.

Qarabağ münaqişəsinin həlli ilə bağlı Türkiyənin mövqeyi, eləcə də Türkiyəyə qarşı təcrid siyasətinə Azərbaycan dövlətinin reaksiyası bu münasibətlərin açıq görünən tərəfləridir. Bölgədə hərbi-siyasi vəziyyətin mürəkkəbləşəcəyi halda isə bu qarşılıqlı dəstəyin bəyanatlardan əməli müstəviyə keçəcəyi artıq heç kimə sirr deyil.

Amma türk dövlətlərinin problemləri yalnız Qarabağ və Kipr münaqişəsi ilə, eləcə də Türkiyənin regionda sıxışdırılması ilə qurtarmır. Mərkəzi Asiya türk respublikaları da ərazilərini və iqtisadi potensiallarını öz xalqlarının mənafeyinə uyğun istifadə etməkdə böyük çətinliklərlə üzləşirlər. Türkmənistanın, Özbəkistanın, Qazaxıstanın və Qırğızıstanın ayrı-ayrılıqda öz gücünə müstəqil siyasət yürütmək imkanları məhduddur. Onlar nə qədər müstəqil siyasət yürütməyə çalışsalar da, böyük güclərin təzyiqləri qarşısında bəzən beynəlxalq siyasətin konyunkturasına tabe olaraq öz milli maraqlarını güzəştə getməli olurlar. Bütün bu amillər türk dövlətləri arasında daha optimal inteqrasiya zərurətini - ittifaq zərurətini doğurur.

> Azərbaycan-Türkiyə münasibətlərinin ittifaq səviyyəsinə yüksəldilməsi həm də bütün türk dünyasını bir-birinə bağlayan cazibə mərkəzi rolunda çıxış edə bilər. Bu missiyanın uğurla həyata keçməsi isə bütün türk dövlətlərində türk birliyinə doğru atılacaq addımların qətiyyətindən və ardıcıllığından asılıdır.

Bu prosesdə Azərbaycan türk dünyasının qərbi ilə şərqini bir-birinə bağlayan ən vacib həlqə rolunu oynayır. Xəzər dənizi sahillərində Avrasiya üçün əvəzsiz strateji əhəmiyyət daşıyan bir bölgədə yerləşən Azərbaycan öz ərazisində geniş türk coğrafiyasında yaşayan insanların, mal və əmtəənin qarşılıqlı hərəkətini təmin edən beynəlxalq nəqliyyat kommunikasiyalarının qovşağını yaradıb. Qərblə Şərq məhz Azərbaycan üzərindən bir-biri ilə təmas qurur, ticarət edir, elmi-texniki təcrübələrin və eləcə də malik olduğu mədəni dəyərlərin mübadiləsini həyata keçirir. Bu baxımdan Azərbaycan-Türkiyə münasibətlərinin ittifaq səviyyəsinə yüksəldilməsi həm də bütün türk dünyasını bir-birinə bağlayan cazibə mərkəzi rolunda çıxış edə bilər. Bu missiyanın uğurla həyata keçməsi isə bütün türk dövlətlərində türk birliyinə doğru atılacaq addımların qətiyyətindən və ardıcıllığından asılıdır.

Türk Dövlətləri Birliyinin yaradılması və möhkəmlənməsi digər dövlətlərə və onların birliklərinə qarşı deyil. Belə bir müttəfiqlik, öz növbəsində, dünya birliyini də gücləndirən, beynəlxalq aləmə yeni enerji verən, qlobal siyasətin qeyri-bərabərlik, dominantlaşma, bloklaşma, separatizm, təcridçilik və s. kimi neqativ tendensiyalarına qarşı müqaviməti artıran bir prosesdir. XX əsrdə Avropa Birliyi bəşəriyyətin tarixi-siyasi həyatında, beynəlxalq sülhün təminatında hansı rolu oynamışdısa, XXI əsrdə yaranan Türk Dövlətləri Birliyi də eyni funksiyanı, lakin daha böyük siyasi təcrübə və potensialla yerinə yetirmək imkanları qazana bilər.

Bu gün birlik qlobal və regional siyasətin oriyentasiyalarını müəyyən edən ən başlıca amildir. Birlik imkanlarından rasional şəkildə istifadə edilmədiyi təqdirdə isə suveren türk milli dövlətlərinin hansısa bir superdövlətin və ya güc mərkəzinin "himayəsi" altına keçməsi qaçılmaz ola bilər.

Türkiyə-Azərbaycan münasibətləri yeni mərhələdə

Fazil Mustafa
Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini,
Böyük Quruluş Partiyasının sədri

Tarix boyu Azərbaycanın, eyni zamanda, bütün Qafqazın taleyində əhəmiyyətli rolu üç əsas region dövləti olan Türkiyə, Rusiya və İran oynamışdır. Bu ölkələrin hər biri özünün Qafqaz siyasətinə çox ciddi diqqət yetirmiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir. Fərqli dövrlərdə üstünlük bu və ya digər dövlətə keçmiş olsa da, son əsrlərdə Rusiyanın bölgə üzərində siyasi və hərbi hegemonluğu daha bariz şəkildə özünü göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması prosesində bir müddət Türkiyə faktoru bölgədə ciddi ağırlıq qazansa da, sonradan bolşevik Rusiyasının hər üç Cənubi Qafqaz ölkəsinin işğalı ilə yenidən hegemonluq imkanları uzun müddət Rusiyanın əlində cəmlənmişdir. Ancaq Azərbaycan xalqı üçün Türkiyənin bu qısamüddətli xilaskarlıq missiyası əsrlərə sığmayan bir hadisə olaraq yaddaşlarda yer almışdır.

Rusiyadan fərqli olaraq Azərbaycan ilə Türkiyə arasında əlaqələrin daha sabit təməlləri mövcuddur. Ortaq soykökü, dil, din birliyi, oxşar mədəni miras, adət-ənənələr bu əlaqələri şərtləndirən amillər kimi xarakterizə olunur. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun gərgin siyasi mübarizələr və ağır döyüşlər nəticəsində Bakını erməni-bolşevik hərbi birləşmələrinin işğalından xilas etməsi Azərbaycan üçün dövlət quruculuğu prosesini sürətləndirən önəmli dönüş nöqtəsi idi. Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli-azadlıq mübarizəsinə Azərbaycan oğullarının maddi və mənəvi yardım göstərməsi də unudulmaz tarixi epizodlardan biri olaraq xatırlanmaqdadır.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə olmuşdur. 1992-ci il yanvarın 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır.

Məhz bu dövrdən dünya coğrafiyasında iki qardaş dövlətin vahid platformadan çıxışı hər kəs tərəfindən təbii bir durum kimi qəbul olunur. Azərbaycan Türkiyə üçün Qafqazda olduğu kimi, həm də Orta Asiya və Xəzər bölgəsində digər dövlətlərlə, xüsusən başqa türk dövlətlər ilə əlaqələr qurmaq üçün mühüm vasitə rolunu oynayır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artırması deməkdir. Ona görə də hər iki dövlətin münasibətləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etdirilməkdədir.

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin deyil, həm də regionun ümumi tərəqqisinə, sülhün və iqtisadi inkişafın bərqərar olmasına mühüm töhfələr verir.

Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir:

“Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk”.

Hazırda siyasi müstəvidə ölkələrimiz arasında yüksək səviyyədə münasibətlər formalaşsa da, iqtisadi sahədə əlaqələrin gücləndirilməsinə də xüsusi diqqət yetirilməkdədir. Çünki Azərbaycan və Türkiyənin mövcud potensialı iqtisadi sferada əlaqələrin, xüsusən də qarşılıqlı ticarət dövriyyəsinin həcminin indiki ilə müqayisədə xeyli dərəcədə artırılmasına imkan verir. İndiyədək bu istiqamətdə bir sıra mühüm addımlar atılıb.

Azərbaycan-Türkiyə əməkdaşlığı Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı üçün daha böyük önəm kəsb edir.

1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi”ndə “Türk petrolları” şirkətinin xarici neft şirkətləri konsorsiumunda təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi.

2006-cı il iyulun 13-də Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəməri işə salınmış və bununla iki ölkənin iştirak etdiyi beynəlxalq transkontinental layihə həyata keçirilmişdir. 2007-ci ilin yanvar ayında Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir.

Azərbaycan-Türkiyə əməkdaşlığı Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı üçün daha böyük önəm kəsb edir.

Azərbaycan bir-birinin ardınca qlobal siyasətə ciddi təsir edən beynəlxalq layihələr həyata keçirir. Burada ilk növbədə vurğulana bilər ki, Bakı-Tbilisi-Qarsın açılışından sonra qlobal enerji təhlükəsizliyi üçün prinsipial əhəmiyyət daşıyan TANAP-ın işə salınması özlüyündə əhəmiyyətli hadisə kimi qəbul edilməkdədir. Bu mənada TANAP-ı haqlı olaraq “enerjinin İpək Yolu” adlandırırlar.

Bu faktorun ardınca qeyd olunmalıdır ki, Azərbaycan və Türkiyə silahlı qüvvələri terrorla mübarizə aparırlar. Onlar uzun illərdir ki, bütün regiona təhlükə törədən terror ünsürlərinin qarşısını kəsiblər. Başqa heç bir region ölkəsi bu cür ardıcıllıqla terrorla mübarizə aparmır. Deməli, regionun separatizmdən və terrordan xilası Türkiyə-Azərbaycan əməkdaşlığının güclənməsi ilə birbaşa bağlıdır.

Digər tərəfdən, dünya üçün böyük əhəmiyyəti olan iki əməkdaşlıq dəhlizi Azərbaycan və Türkiyədən keçir. Onlardan biri “Bir qurşaq, bir yol” layihəsi ilə bağlıdır. Bir sıra dairələrin müqavimətinə baxmayaraq, bu layihənin Cənubi Qafqazda ana xətti Azərbaycan oldu. Azərbaycan hazırda Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat marşrutlarının qovşaq məkanıdır. Bakı artıq Avrasiyanın əsas nəqliyyat qovşağı funksiyasını yerinə yetirir. Digər əməkdaşlıq sahəsi Cənub Qaz Dəhlizidir. Bu marşrut Avropanın enerji təhlükəsizliyində ciddi rol oynayacaq.

Başqa bir amil isə Türkiyənin artıq dünya miqyasında sözünü deyən və bir sıra aspektlərdə qlobal siyasətin gündəmini müəyyənləşdirən dövlət olması ilə bağlıdır.

Burada Azərbaycan qazının Türkiyəyə və Avropanın digər ölkələrinə satışının artıq reallaşmasını da vurğulamaq mümkündür. Bu layihələr Azərbaycanın və Türkiyənin, eləcə də Avropanın və digər regionların enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Bakı-Tbilisi-Qars xətti, Marmaray və tikintisi davam

edən sürətli qatar layihələri ilə yalnız Türkiyə deyil, Gürcüstan və Azərbaycan da Asiya-Avropa dəhlizinin ən sərfəli və etibarlı variantı halına gələcək.

Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün hər iki ölkənin rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni mərhələyə keçməkdədir.

Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına etiraz əlaməti olaraq o ölkə ilə sərhədlərini bağlamış Türkiyə beynəlxalq təşkilatlarda Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını, bu məsələ ilə bağlı BMT-nin müvafiq qətnamələrinin həyata keçirilməsini tələb edir.

2020-ci ilin iyulunda Ermənistanın Tovuz təxribatı zamanı Türkiyənin birmənalı dəstəyini bildirməsi, ardınca avqust ayında Türkiyə və Azərbaycan ordularının 10 gün davam edən müxtəlif bölgələrdəki təlimləri həm təcrübə qazanmaq, həm də bu iki ölkənin qardaşlığını nümayiş etdirmək baxımından böyük önəm daşıyır.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarının qarşısını almaq məqsədi ilə əks-hücuma keçərək işğal olunmuş torpaqlarımızı azad etmək istəyən Azərbaycanın yanında tərəddüdsüz dəstəyini ifadə edən, öz istənilən resurslarını bu dəstəyi möhkəmlətmək üçün verməyə hazır olduğunu bəyan edən bir Türkiyə gücü dayanırdı; istər döyüş sahəsində, istərsə də diplomatik cəbhədə Azərbaycanın problemini birbaşa öz problemi olaraq görən bir Türkiyə qardaşlığı dayanırdı.

Bütün bunlar - ölkələrimiz arasında əldə olunan yeni razılaşmalar, imzalanan müqavilələr bir daha xalqlarımızın dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir.

İki ölkə arasında münasibətlərin xarakterindən danışarkən bir məsələyə də diqqət yetirmək istərdik. Türkiyənin və Azərbaycanın dövlət və hökumət başçılarının xaricə ilk rəsmi səfərlərinə biri-birini ziyarət etmələri ilə başlamaları artıq xoş ənənəyə çevrilib. Ölkə Prezidenti İlham Əliyev iki il öncə yenidən bu yüksək məqama seçildiyində ilk rəsmi xarici səfərini Türkiyə Cümhuriyyətinə etdi. Bu ənənəni Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova da davam etdirərək 2020-ci il sentyabrın 10-12-də ilk rəsmi səfərini

hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də xüsusi fəallıq göstərir, bu məsələdə ölkəmizin ədalətli mövqeyinə tam dəstək verir. Ümumi şəkildə deyə bilərik ki, beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər uzrə Azərbaycanla Türkiyənin mövqeləri çox yaxındır; tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparır, bir-birinə qarşılıqlı dəstək verir. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində Türkiyə ilə faydalı əməkdaşlıq edir. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. Türkiyə ardıcıl olaraq bütün

Türkiyəyə etdi və bu ölkənin ali rəhbərliyi ilə qardaşlıq münasibətlərinin inkişafına faydalı olan görüşlər keçirdi. Eyni ənənəyə sadiqlik hər zaman Türkiyə rəhbərliyi tərəfindən də qorunmaqdadır.

Yekun olaraq Türkiyə və Azərbaycan münasibətlərinin ən yeni mərhələsinin mahiyyətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox dəqiq ifadə etməkdədir: "Türkiyə-Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır".

European Union
Avropa İttifaqı

Avropa İttifaqı-Azərbaycan: gələcək perspektivlər

Ölkəmizin Aİ ilə əməkdaşlığı bərabərhüquqlu və qarşılıqlı-faydalı tərəfdaşlığa əsaslanır

Emin Hacıyev
Milli Məclisin deputatı, iqtisad elmləri üzrə fəlsəfə doktoru

Azərbaycan dövləti milli maraqlara əsaslanan müstəqil xarici siyasət yürüdür. Bu siyasətin əsasını beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri təşkil edir. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu yeni reallıqlar müstəvisində uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsi, uzaqgörənliyi və yüksək diplomatik məharəti sayəsində Azərbaycan beynəlxalq münasibətlərin güclü aktoruna çevrilib, etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Nəticədə bu gün ölkəmiz yalnız regionda deyil, beynəlxalq aləmdə də cərəyan edən proseslərə təsir göstərmək imkanı əldə edib. Burada yalnız Azərbaycanın zəngin karbohidrogen ehtiyatları və ixrac imkanları, əlverişli coğrafi vəziyyəti yox, həmçinin tərəfdaşlarla bərabərhüquqlu münasibətlər yarada bilməsi, beynəlxalq əməkdaşlığa, sülhə və təhlükəsizliyə verdiyi töhfə, ölkə daxilində mövcud olan ictimai-siyasi sabitlik, rasional inkişaf və digər amillər böyük rol oynayır.

İstər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə uğurla həyata keçirilən xarici siyasət kursunun prioritetlərindən biri də beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsidir. Hazırda Azərbaycan bütün nüfuzlu beynəlxalq və regional təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO və digər təşkilatlarla müxtəlif proqramlar çərçivəsində fəal əməkdaşlıq edir. Bu əməkdaşlıq Azərbaycanın dünya birliyinin bərabərhüquqlu üzvü olmasını təmin etməklə yanaşı, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalı, 1 milyondan çox insanın qaçqın və məcburi köçkün düşməsi ilə bağlı həqiqətləri dünyaya çatdırmaq, ərazi bütövlüyümüzün bərpası üçün beynəlxalq səyləri artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

> Prezident İlham Əliyevin siyasi iradəsi, uzaqgörənliyi və yüksək diplomatik məharəti sayəsində Azərbaycan beynəlxalq münasibətlərin güclü aktoruna çevrilib, etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Nəticədə bu gün ölkəmiz yalnız regionda deyil, beynəlxalq aləmdə də cərəyan edən proseslərə təsir göstərmək imkanı əldə edib.

Rəsmi Bakının əməkdaşlıq əlaqələrinə böyük önəm verdiyi nüfuzlu təşkilatlardan biri də Avropa İttifaqıdır. Dünyada baş verən siyasi və iqtisadi proseslərdə fəal iştirak edən, əsas güc mərkəzlərindən sayılan Avropa İttifaqı ilə münasibətlərimizin hüquqi çərçivəsini 1996-cı il aprelin 22-də Lüksemburqda imzalanan və 1999-cu il iyunun 22-dən qüvvəyə minən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi təşkil edir. Sazişdə Aİ ilə Azərbaycan arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, ölkə qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapıb. 2004-cü ildə qurumun Şərqə doğru genişləndirilməsi ilə Azərbaycanın Cənubi Qafqaz ölkəsi olaraq Avropa Qonşuluq Siyasətinə daxil edilməsi

Avropa İttifaqı-Azərbaycan əlaqələrində yeni səhifə açıb.

Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın digər bir istiqaməti Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində həyata keçirilir. 2008-ci ildə rəsmi Bakı sözügedən proqrama qoşulmaqla tərəflər arasında siyasi-iqtisadi əməkdaşlıq daha da genişlənib, keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Şərq Tərəfdaşlığının əsas məqsədləri tərəfdaş ölkələr və Avropa İttifaqı arasında azad ticarət məkanının formalaşdırılması, viza rejiminin sadələşdirilməsi və tədricən ləğvi, tərəfdaş ölkələrlə münasibətin dörd platforma - demokratiya, səmərəli idarəçilik və sabitlik; Avropa İttifaqının siyasətinə yaxınlaşma və iqtisadi inteqrasiya; enerji təhlükəsizliyi; insanlararası təmaslar çərçivəsində çoxtərəfli əməkdaşlıq strukturunun qurulmasıdır.

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və genişlənən əlaqələr siyasi, iqtisadi, o cümlədən enerji, ticarət, investisiyalar və digər sahələrdə inkişaf edir. Məlumdur ki, ölkəmiz bu gün ittifaqın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Azərbaycan hazırda birliyin neft tələbatının 5 faizini ödəyir. Bakı həmçinin Xəzər dənizinin qaz resurslarının Avropanın yeni "enerji damarı" hesab olunan Cənub Qaz Dəhlizi vasitəsi ilə Avropa bazarlarına çatdırılmasında həlledici rola malikdir. Azərbaycanın neft-qaz potensialı, yeni yataqların aşkar olunması onu deməyə əsas verir ki, respublikamız hələ uzun müddət Avropanın enerji təchizatçısı olacaq.

Avropa İttifaqı ilə Azərbaycan nəqliyyat, o cümlədən beynəlxalq yükdaşımalar sahəsində də əməkdaşlıq edir. Belə ki, Azərbaycan həm də qlobal nəqliyyat-kommunikasiya dəhlizlərinin reallaşması ilə Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən mühüm nəqliyyat qovşağı, tarixi İpək Yolunun üstündə yerləşən ölkə olmaqla qitələrarası logistikada cəlbedici mövqeyə sahibdir. "Dəmir İpək Yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu isə quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradır.

Hazırda Avropa İttifaqı Azərbaycanın ticarət tərəfdaşları arasında birinci yeri tutur. Respublikamızın ümumi ixracatının 60 faizə yaxını, eyni zamanda, xarici ticarət dövriyyəsinin 40 faizindən çoxu təşkilat üzvü olan ölkələrin payına düşür. Quruma üzv dövlətlər iqtisadiyyatımıza, enerji və qeyri-neft sektoruna sərmayə qoyuluşlarını artırmaqdadır. İndiyədək Avropa İttifaqı Azərbaycan iqtisadiyyatına 33 milyard dollar, Azərbaycan isə Aİ-yə 15 milyard dollar sərmayə yatırıb. Ölkəmizdə təşkilata üzv ölkələrin 1600 şirkəti fəaliyyət göstərir. Qərbdən yeni texnologiya və innovasiyanın transferində maraqlı olan Azərbaycan Avropa İttifaqı ilə kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı əməkdaşlıq edir. O cümlədən:

- 23 ölkə ilə ikiqat vergitutma aradan qaldırılıb;
- 18 ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanıb;
- 14 ölkə ilə hökumətlərarası komissiya yaradılıb.

Həmçinin tərəflər arasında vizaların sadələşdirilməsi və icazəsiz

yaşayan şəxslərin readmissiyası haqqında sazişlər imzalanıb. Azərbaycan Avropa İttifaqı ilə "Tvininq", "TAIEX", "SIGMA", Texniki Dəstək, Büdcəyə Dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir.

Lakin tərəflər arasında münasibətlərin sınağa çəkildiyi vaxtlar da olub. Azərbaycan-Avropa İttifaqı münasibətlərindən narahatlıq keçirən müəyyən dairələr zaman-zaman fəallaşaraq tərəflər arasında anlaşılmazlıq yaratmağa çalışıb.

Qeyd edək ki, Avropa İttifaqının Şərq Tərəfdaşlığı və Aİ ölkələrinin dövlət və hökumət başçılarının, Avropa Komissiyası və Aİ Şurası rəhbərlərinin, həmçinin Avropa Parlamenti və Aİ-nin digər strukturlarının yüksək vəzifəli rəsmilərinin iştirakı ilə 2015-ci ildə Riqada keçirilmiş zirvə görüşündən sonra Avropa İttifaqı-Azərbaycan münasibətlərində mahiyyətcə yeni mərhələ başlayıb. Dövlətimizin göstərdiyi israrlı mövqe nəticəsində Aİ rəhbər şəxslərinin ölkəmizə səfərləri təşkil edilib və qurum tərəfindən Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini əvəzləyəcək yeni ikitərəfli saziş layihəsi üzrə danışıqlara mandat verilib. Bununla da, Avropa İttifaqı ilə dialoqda daha optimal və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan əməkdaşlığın bünövrəsi qoyulub. Strateji Tərəfdaşlıq Sazişi kimi yeni və hərtərəfli sazişin hazırlanması üçün təşkilatla danışıqlara başlanılıb.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun dəvəti ilə 2017-ci il noyabrın 24-də keçirilən Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında iştirak edən cənab Prezident İlham Əliyev çıxışında deyib: "Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc, müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, biz Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmanı strateji əlaqələrin gücləndirilməsində daha mühüm bir mərhələ hesab edirik".

Xüsusi olaraq vurğulamalıyıq ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyir. Quruma üzv ölkələrin heç biri Dağlıq Qarabağdakı terrorçu rejimi tanımır. V Şərq Tərəfdaşlığı Sammitinin Birgə Bəyannaməsində (2017-ci il) Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha dəstəklənib. Sənədin digər bəndində Şərq Tərəfdaşlığı ölkələrinin ərazilərində baş verən bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması vurğulanıb. Ermənistan tərəfinin bu bəndə onun işğalçı maraqlarına cavab verən maddələrin əlavə edilməsi cəhdləri puça çıxıb.

2018-ci il iyulun 11-də Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq Prioritetləri" adlı mühüm sənəddə də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə edilib. 2019-cu il iyulun 9-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun ölkəmizə səfəri zamanı keçirilən görüşdə cənab Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim böyük əhəmiyyət verdiyini vurğulayaraq, "Tərəfdaşlıq Prioritetləri"ni mühüm sənəd adlandırıb.

Ermənistandan Azərbaycanın işğal edilmiş ərazilərinə magistral yolun çəkilməsi ilə əlaqədar bu il mayın 11-də Avropa Parlamenti üzvlərinin birgə bəyanatı isə öz konkretliyi və dəqiq mövqeyi ilə fərqlənib. Sənəddə Avropa Parlamentinin məruzəçiləri Ermənistan tərəfindən verilən bu qərarı beynəlxalq hüququn pozulması kimi qiymətləndirib. Beləliklə, işğal faktı Avropa qurumları tərəfindən növbəti dəfə təsdiq olunub.

Bütün bu addımların davamı olaraq, Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaş kimi iqtisadi və siyasi əməkdaşlığı gücləndirmək əzmindədir. Cənab Prezident İlham Əliyev iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitindəki çıxışında bir daha vurğulayıb ki, yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqlar yekun mərhələdədir, mətnin 90 faizi artıq razılaşdırılıb. Dövlət başçısı 2018-ci ildə Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq Prioritetləri"ndə hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiqliyinin əks olunduğunu xatırladaraq bildirib ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Cənab Prezident İlham Əliyev bəyan edib ki, danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistan baş nazirinin dediyinin əksinə olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır!

Ümumilikdə, Azərbaycan-Avropa İttifaqı münasibətləri hər şeydən əvvəl bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığa əsaslanır. Əgər gələcəkdə təşkilat ölkəmizə qarşı ikili standart siyasətinə baş vurmasa, qəbul edilən qərarlarda təzyiq elementləri olmasa, Azərbaycanla münasibətlərin daha sürətli inkişafının şahidi olacağıq.

Demokratik inkişaf yolu tutan, insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsini təmin edən Azərbaycan qlobal məkanda özünün müstəqil xarici siyasətini yürütmək iqtidarındadır. Suverenliyimizin təminatçısı isə xalqa arxalanaraq, heç bir xarici dövlətdən asılı olmayan müstəqil daxili və xarici siyasət həyata keçirən Prezidentimiz cənab İlham Əliyevdir.

Mütərəqqi dövlət siyasəti gənclərə geniş imkanlar yaradıb

Azərbaycan gəncliyinin sağlam, vətənpərvər, bilikli böyüməsi və yeniləşən dünya ilə ayaqlaşa bilməsi üçün lazım olan bütün addımlar atılır

Vüqar İskəndərov
Milli Məclisin deputatı

İnkişafına görə regionun lider dövləti olan Azərbaycan həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətə, həmçinin ən ağır məqamlarda belə vətəndaşların sağlamlığının və təhlükəsizliyinin qorunması, o cümlədən sosial müdafiəsinin təmin olunması istiqamətində atılan addımlara görə dünya üçün nümunə təşkil edir. Dünya ölkələrinin aylardır yeni növ koronavirus (COVID-19) infeksiyası ilə apardığı mübarizə fonunda ölkəmizdə görülən işlərin timsalında biz bir daha bunun şahidiyik. Belə ki, pandemiya nəticəsində iqtisadiyyatı mənfi təsirə məruz qalan əksər ölkələr maliyyə yardımı üçün müvafiq beynəlxalq qurumlara müraciət edir, lakin Azərbaycan pandemiyanın yaratdığı bütün çətinlikləri öz iqtisadi imkanları hesabına dəf edə bilir. Heç şübhəsiz, bu imkanları əldə etmək məhz düşünülmüş və məqsədyönlü siyasət, cəmiyyətin bütün sektorlarını ehtiva edən mütərəqqi islahatlar, o cümlədən sosial iqtisadi həyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı yerinə yetirilən müvafiq dövlət proqramları nəticəsində mümkün olub.

Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanda bütün sahələrdə uğurlar əldə edilir. Ölkəmizdə qazanılan bu uğurlardan gənclərə xüsusi pay düşür desək, heç də yanılmarıq. Əslində, gənclərin bu məsələdə fərqləndirilməsi, onların irəli çəkilməsi heç də təsadüfi deyil. Bu, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin, ənənənin uğurla davam etdirilməsinin nəticəsidir.

Əlbəttə, həm Ümummilli lider, həm də cənab Prezidentin gənclərlə bağlı imzaladıqları fərmanlar, sərəncamlar, təsdiqlənən müvafiq dövlət proqramları barədə saatlarla, bəlkə də günlərlə danışmaq, yazmaq olar. Ancaq hesab edirəm ki, sadəcə Ulu öndərin 1994-cü ildə "Gənclər və İdman Nazirliyinin yaradılması haqqında" Fərman imzalamasını, həmçinin bu gün gənclərə bütün sahələrdə öz imkanlarını nümayiş etdirmək üçün hər cür şəraitin yaradılmasını, müxtəlif vəzifə təyinatlarında bacarıqlı gənc kadrlara xüsusi önəm verilməsini xatırlatmaqla ölkəmizdə gənc nəslə hansı dəyərin verildiyini qeyd etmək olar.

Onu da deməyi özümə borc bilirəm ki, Azərbaycan dövləti, eyni zamanda, gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunması məsələsinə xüsusi həssaslıqla yanaşır. Yəni dövlətin siyasəti ondan ibarətdir ki, Azərbaycan gəncləri bilikli, savadlı, vətənə bağlı olsunlar və ölkəmizin gələcək inkişafına töhfələrini versinlər.

Öz növbəsində gənclərimiz də dövlətimiz, şəxsən cənab Prezident İlham Əliyev tərəfindən onlara bəslənən ümidləri doğruldurlar. Yəni Azərbaycan gəncləri vətənpərvərdir, milli ruhda tərbiyə alır və son hadisələr də bunu bir daha təsdiq etdi. Məlumdur ki, Azərbaycan özünün ərazi bütövlüyünün pozulması faktı ilə heç vaxt barışmayıb və bundan sonra da barışmayacaq. Ölkəmiz bizim üçün bir nömrəli milli məsələ olan Dağlıq Qarabağ probleminin həllində belə prinsipial yanaşma sərgiləyərkən ilk növbədə özünün ordusuna arxalanır.

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində işğalçı dövlətin hərbi bölmələrinin iyulun 12-də və sonrakı günlərdə törətdikləri təxribatların qarşısının qətiyyətlə alınması silahlı qüvvələrimizin zəfər tarixinə növbəti şanlı səhifə kimi yazılıb. Təbii ki, ordumuzun bu uğurları həm də orduda xidmət edən gənclərin vətənpərvərlik ruhundan asılıdır.

Bütün sahələrdə hərtərəfli inkişaf edən gənclərimiz bu gün ölkəmizin ən şərəfli anında da - Vətən müharibəsində də üzərinə düşən məsuliyyəti hiss edir və ön sıralarda dayanmağı özlərinə şərəf bilirlər. Ali Baş Komandan İlham Əliyevin çağırışına cavab verən on minlərlə gəncimiz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək könüllü şəkildə döyüşlərdə iştirak etmək istəyini bildirib. Belə vətənpərvər gənclərimizin sayının çox olması, əlbəttə, ordumuzun rəşadətini artırır; bunun nəticəsidir ki, deqredasiyaya uğramış Ermənistan hərbi qüvvələrinə göz açmağa imkan vermirlər. Əlbəttə, müasir gənclərimiz dərk edir ki, bu gün apardıqları mübarizə haqq mübarizəsidir. Onlar torpaqlarımızın azad olunması, Şuşada, Xankəndidə Azərbaycan bayrağının dalğalanması yolunda canlarından belə keçməyə hazırdırlar. Ona görə də bizim düşmənlərimiz kimi muzdlu döyüşçü axtarmağa ehtiyacımız yoxdur. Belə gəncləri olan ordu, əlbəttə, dünyanın ən güclü ordularından biridir. Onların Ali Baş Komandanın ətrafında sıx birləşməsi, hər an döyüşə hazır olması bizi bir daha əmin edir ki, tezliklə düşmənlərimizə elə dərs verəcəyik ki, onlar bir daha bizim torpaqlara göz dikə bilməyəcək.

Təsadüfi deyil ki, Azərbaycan cəmiyyəti, o cümlədən də gənclərimiz həmin vaxt düşmən təxribatının qarşısını rəşadətlə alan ordumuza qətiyyətli dəstək göstərdilər.

Gənclərimizə yaradılan hərtərəfli şəraitdən danışarkən, təbii olaraq onların təhsili məsələsinə, daha doğrusu, dövlətimizin bu sahədə atdığı addımlara da diqqət yetirmək yerinə düşər. Məlum olduğu kimi, ölkəmizdə hər bir sahədə müşahidə olunan dinamik inkişaf təhsil sektorunda da aşkar şəkildə nəzərə çarpır. Onu da qeyd edim ki, təhsilin inkişafı istiqamətində həyata keçirilən işlər davamlı xarakter daşıyır və pandemiya dövründə atılan addımlar bunu bir daha təsdiqləyir.

Digər tərəfdən cənab Prezident İlham Əliyevin, o cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı sayəsində ölkəmizdə idmanın inkişafı istiqamətində də önəmli addımlar atılıb ki, bu da yenə gənclərimizin daha sağlam böyüməsinə hesablanan uğurlu bir siyasətdir. İdmançılarımızın nüfuzlu beynəlxalq idman yarışlarında uğurlar qazanmaları isə bu sahədə çəkilən zəhmətin hədər getmədiyini təsdiqləyir.

Fikrimcə, yuxarıda sadalananlar ölkəmizdə gənclərə yaradılan şərait, onlara göstərilən etimad barədə dəyərli oxucularımızda müəyyən təsəvvür formalaşdıracaq və əslində, burada nöqtə qoymaq olardı. Lakin bu, bir həqiqətdir ki, dünya sürətlə yenilənir, dəyişir və bu dəyişimdən kənarda qalmamaq üçün ölkəmizdə digər sahələrlə yanaşı gənclər siyasətində, bununla bağlı qərar və qanunlarda da davamlı yeniliklərin edilməsi vacibdir. Təbii ki, bu işdə əsas məsuliyyət bizlərin - Milli Məclisin Gənclər və idman komitəsinin üzərinə düşür. Biz də bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün davamlı olaraq gənclər və idman təşkilatları, həmçinin dövlət orqanları ilə yaxından əməkdaşlıq edirik. Bir sözlə, Azərbaycan gəncliyinin sağlam, vətənpərvər, bilikli böyüməsi və yeniləşən dünya ilə ayaqlaşa bilməsi üçün lazım olan bütün addımlar atılır.

AFƏT HƏSƏNOVA

Hörmətli Afət xanım!

Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai xadimi yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycanın dilbər guşələrindən olan Qubada dünyaya göz açmış, burada böyümüş və orta təhsil almısınız. İlk əmək fəaliyyətinə də doğma rayonunuzda sadə zəhmət adamı kimi başlamısınız. Gənc yaşlarınızdan elmə, təhsilə, ictimai işlərə böyük maraq göstərdiyinizdən böyük arzularla Moskva şəhərinə yollanmış, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı (ÜLKGİ) Mərkəzi Komitəsi yanında Ali Komsomol Məktəbinə daxil olmuş, tarixçi ixtisasına yiyələnmisiniz.

Təhsilinizi başa vurduqdan sonra doğma el-obanıza qayıdaraq komsomol və partiya işində təqdirəlayiq fəaliyyət göstərmiş, gənclərin ictimai-siyasi proseslərdə fəal iştirakı üçün böyük əmək sərf etmisiniz.

Siz həyatınızın bir neçə ilini şərəfli müəllimlik peşəsinə həsr etmiş, gənc nəslə tarix elminin sirlərini öyrətmisiniz. Bakı Slavyan Universitetinin "Türk-slavyan əlaqələri" elmi-tədqiqat laboratoriyasının elmi işçisi olaraq çalışmısınız.

Sonralar Quba və Suraxanı rayonları icra hakimiyyətləri başçılarının müavini kimi fəaliyyətinizi davam etdirmisiniz. İşlədiyiniz və rəhbərlik etdiyiniz bütün kollektivlərdə vicdanlı, məsuliyyətli, zəhmətsevər bir insan kimi tanınmış, insanlara fərdi yanaşma tərziniz, səmimi və mehriban münasibətinizlə hər bir kəsin dərin rəğbətini qazanmısınız.

Bu kimi keyfiyyətləriniz sayəsində ölkə həyatında baş verən hadisələrə yüksək vətəndaşlıq mövqeyindən yanaşan YAP üzvü kimi seçicilərin etimadını qazanaraq VI çağırış Milli Məclisə deputat seçilmisiniz. Siz doğma Azərbaycanımızda həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edir, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya, Elm və təhsil komitələrinin üzvü kimi qanun yaradıcılığına layiqli töhfələr verirsiniz.

Milli Məclisin Çexiya, İspaniya, İtaliya, Rusiya, Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi parlamentin beynəlxalq əlaqələrinin inkişafında səylərinizi əsirgəmirsiniz. Seçicilərinizlə mütəmadi olaraq görüşür, onların qayğıları ilə maraqlanır, problemlərinin həllinə köməklik göstərirsiniz.

Hörmətli Afət xanım!

Sizi bir daha yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, ailə səadəti, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,

SAHİBƏ QAFAROVA

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 3 sentyabr 2020-ci il

ƏZİZ ƏLƏKBƏROV- 60

Hörmətli Əziz müəllim!

Sizi - Milli Məclisin deputatını, tanınmış ziyalını, filologiya üzrə fəlsəfə doktorunu anadan olmağınızın 60 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Siz hələ tələbəlik illərindən elmə marağınızla fərqlənmiş, Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra müəllim kimi əmək fəaliyyətinə başlamısınız. Lakin 1988-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Siz də minlərlə soydaşımız kimi Ermənistanın Vedi rayonundan - doğma yurdunuzdan deportasiya edilmiş, Bakı şəhərində məskunlaşmısınız.

Siz Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda fəaliyyətə başlamış, elmi araşdırmalar aparmısınız. Uğurlu elmi araşdırmalarınızın nəticəsi olaraq 1992-ci ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi (filologiya üzrə fəlsəfə doktoru) elmi dərəcəsini almısınız. Siz AMEA-nın Ədəbiyyat İnstitutunda elmi işçi, böyük elmi işçi, bölmə müdiri vəzifələrində çalışmış, bu elm ocağının Folklor İnstitutunun şöbə müdiri olmuş, hazırda həmin institutun aparıcı elmi işçisi kimi fəaliyyətinizi davam etdirirsiniz. Bu sahədəki uğurlu fəaliyyətiniz nəticəsində 2012-ci ildə folklorşünaslıq üzrə dosent elmi adına layiq görülmüsünüz. Azərbaycanlıların qaçqınlıq tarixi, deportasiya və soyqırım tarixi, xalqımızın mədəniyyəti, folkloru və "erməni məsələsi"nin ifşası ilə bağlı elmi araşdırmalarınız çox dəyərlidir.

Ölkənin elmi-ədəbi ictimaiyyəti Sizi onlarla kitabın, yüzlərlə elmi, elmi-publisist məqalənin müəllifi kimi yaxşı tanıyır.

1991-1998-ci illərdə mətbuatda çalışarkən Siz "Ana vətən", "Ağrıdağ" qəzetlərinin baş redaktoru, "Xalq qəzeti"nin şöbə müdiri olmuş, "Həsən bəy Zərdabi", "Qızıl qələm" media mükafatlarına layiq görülmüsünüz. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüsünüz.

Siz həm də Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri, Azərbaycan Milli Ensiklopediyasının həmmüəlliflərindən biri, "Ağrıdağ" Nəşriyyatının direktoru və Ermənistan tərəfindən ərazilərimizin işğalı nəticəsində Azərbaycana dəymiş ziyanın hesablanması üzrə İşçi Qrupunun üzvüsünüz.

Xalqın ziyalısı kimi qazandığınız hörmət və ehtiram Sizə VI çağırış Milli Məclisə seçkilərdə deputat mandatı qazandırıb. Bu gün müstəqil Azərbaycan parlamentinin deputatı, Milli Məclisin Əmək və sosial siyasət və Mədəniyyət komitələrinin üzvü kimi qanun yaradıcılığı işində yaxından iştirak edir, Türkiyə, İran, Macarıstan, Özbəkistan və Türkmənistanla parlamentlərarası əlaqələr üzrə işçi qruplarında fəaliyyət göstərirsiniz.

Hörmətli Əziz müəllim!

Görkəmli alim, fəal ictimai xadim, Ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının üzvü kimi Siz geniş ictimaiyyətin rəğbətini qazanmısınız.

Sizi 60 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı arzulayır, çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

SAHİBƏ QAFAROVA

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 5 oktyabr 2020-ci il

Sosial sahədə innovativ tətbiqlər

Musa Quliyev
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

Ümummilli lider Heydər Əliyevin başladığı sosial siyasəti uğurla davam etdirən cənab Prezident İlham Əliyevin sosial siyasətinin təməlində iki əsas prinsip dayanır: sosial ədalət və sosial rifah. Heç təsadüfi deyildir ki, bizim dövlət büdcəmizdə sosial xərclərin payının 30%-dən yüksək olması artıq ənənə halını almışdır.

Prezident İlham Əliyevin sosial siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi iştirakını qeyd etməliyik. Bütün ictimai-siyasi fəaliyyəti boyu humanitar, sosial sahələri daim diqqət mərkəzində saxlayan Mehriban xanım Əliyeva ölkə Prezidenti İlham Əliyevin sosial siyasət kursunun uğurla reallaşmasında ən böyük silahdaşıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir çox sosial, humanitar layihələrin, o cümlədən ailə quran şəxslərin nikah öncəki icbari tibbi müayinəsinin həyata keçirilməsi, ana və uşaqların mühafizəsi, talassemiya və hemofiliya xəstələrinə dəstək haqqında, habelə valideyn himayəsindən məhrum uşaqların, eləcə də I və II qrup əlil uşaqların təhsil haqlarının ödənilməsinin dövlət büdcəsi tərəfindən həyata keçirilməsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi olduqca əhəmiyyətlidir.

Cənab Prezidentin müvafiq fərmanı ilə 2016-cı ildə qəbul edilmiş "Milli iqtisadiyyatımızın perspektivi üzrə strateji yol xəritəsi" 11 prioritet istiqaməti müəyyənləşdirdi və sosial iqtisadi inkişafımızın yeni mərhələsinə qədəm qoyduğumuzu bəyan etdi.

İlham Əliyev hər zaman söyləyir ki, bizim siyasətin mərkəzində Azərbaycan xalqı və onun sosial rifah halı dayanır. Azərbaycan Prezidenti sözün əsl mənasında həmişə aztəminatlı insanların yanındadır. 2018-ci ilin sonunda ölkə başçısı öz ad günündə 1000 nəfərlik məcburi köçkün ailəsi üçün Abşeron rayonunda salınmış yaşayış kompleksinin açılış mərasimində iştirak etdi. Daha sonra 2019-cu ilin ilk ayında bir qrup şəhid ailəsini qəbul etdi, onlarla görüşdü və bu görüşdən sonra imzaladığı sərəncamla 1997-ci ilə qədər şəhid olmuş 12 min 750 nəfərə 11 min manatlıq birdəfəlik müavinətin verilməsi ilə bağlı sərəncam imzaladı.

İlham Əliyevin 2018-ci ildə iqtisadi sahədə başladığı islahatların davamı olaraq 2019-cu ildə dərin sosial, idarəetmə və struktur islahatları aparılmışdır. Cənab Prezidentin 30-a yaxın fərman və sərəncamını əhatə edən 2 sosial islahatlar zərfi 4,2 milyon vətəndaşımızın sosial rifah halının ciddi şəkildə yaxşılaşmasına maddi təminat yaratmışdır.

Ötən il pensiya təminatı sahəsində aparılan islahatlar nəticəsində Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 364,4 milyon manat artaraq 4 milyard 116 milyon 700 min manat təşkil etmiş, ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği 256 manatdan 295 manata yüksəlmiş, başqa sözlə, 15,3% artmışdır. Əmək pensiyalarının minimum məbləği isə 119 manatdan 200 manata yüksəlmiş, başqa sözlə, 72% artmışdır. Bu artım 600 min nəfər pensiyaçının həyat səviyyəsinin yüksəlməsinə xidmət etmişdir. İslahatlar nəticəsində minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerə yüksəlmişdir.

Aparılan islahatlar nəticəsində ölkə üzrə minimum əmək haqqının məbləği 2 dəfəyə yaxın artaraq 130 manatdan 250 manata çatdırılmışdır. Ölkə üzrə 1 milyon 350

min işçinin əmək haqqı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Problemli kreditlərin həlli ilə bağlı dövlət büdcəsindən 640 milyon manat məbləğində vəsait ayrılmış, 900 minə qədər vətəndaşın kredit borcu dövlət tərəfindən qarşılanmışdır.

Özünəməşğulluq proqramının genişlənməsini, 132 növ xidmət təklif edən "DOST" mərkəzlərinin yaranmasını, 21 sosial təminat növü üzrə elektron təyinat sistemlərinin istifadəyə verilməsini, ünvanlı sosial yardım və əlillik təyinatı sahəsində şəffaflığın təmin edilməsini, əhalinin həssas qrupları olan şəhid ailələrinin, Qarabağ əlillərinin, məcburi köçkünlərin mənzil təminatının yaxşılaşdırılması sahəsində görülən işləri də sosial sahədə hökumətin uğurlu fəaliyyəti siyahısına əlavə etmək yerinə düşərdi.

Qeyd edək ki, əhaliyə göstərilən sosial xidmətlərin elektronlaşdırılması, operativləşdirilməsi və bu sahədə vətəndaşlara dəstək verilməsi istiqamətində dünyanın ən qabaqcıl təcrübələri öyrənilir və tətbiq edilir. Xüsusən də "DOST" mərkəzlərinin mahiyyəti vətəndaşlara qısa müddət ərzində layiqli, mədəni xidmət göstərmək, onların sosial ehtiyaclarını öyrənmək və bu ehtiyacların təmin olunması istiqamətində işlər görməkdir. Bu, ən yeni yanaşma üsuludur, dünyada heç yerdə belə mərkəz yoxdur.

Sosial qanunvericiliyin davamlı təkmilləşdirilməsi daim gündəmdədir. Ünvanlı yardım proqramının təkmilləşdirilməsi, sosial müavinət növlərinin restrukturizasiyası, ehtiyac meyarının yaşayış minimumuna çatdırılması, minimum istehlak səbətinə daxil olan mal və xidmətlərin çeşidinin və miqdarının artırılması məsələləri, sosial ipoteka şərtlərinin yumşaldılması və əhatə dairəsinin genişləndirilməsi problemlərinin həlli indi daha çox aktuallıq kəsb edir. Əminəm ki, yaxın dövrlərdə bu məsələlər də öz həllini tapacaqdır.

Dünyanı cənginə almış koronavirus pandemiyası 2020-ci ildə bütün dövlətləri və xalqları sınağa çəkdi. Bir çox ölkələrin liderləri "öncə iqtisadiyyatı, yoxsa insanları xilas etməli" dilemmasını müzakirəyə çıxaranda Azərbaycan Prezidenti öz doğma xalqının əsl lideri kimi birmənalı və qəti şəkildə söylədi: "Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı!"

Cənab Prezidentin sərəncamı ilə koronavirus pandemiyasının mənfi təsirinin azaldılması ilə bağlı həyata keçirilən tədbirlər sırasında əhalinin sosial müdafiəsinin qorunmasına da ciddi önəm verildi.

Daxili siyasətində vətəndaşlarının sosial müdafiəsini və sosial rifahını prioritet istiqamət kimi müəyyən edən Azərbaycan dövləti hər zamankı kimi bu çətin vaxtlarda da xalqın yanında olduğunu öz əməli fəaliyyəti ilə bir daha təsdiq etdi.

Hər şeydən öncə bildirim ki, koronavirusla mübarizə çərçivəsində həyata keçirilən sosial müdafiə tədbirləri çoxşaxəlidir, 4 istiqaməti, 10 tədbiri nəzərdə tutur və 3.500.000 insanı əhatə edir, maliyyə tutumu isə 600 milyon manata yaxındır.

Aparılan islahatlar nəticəsində ölkə üzrə minimum əmək haqqının məbləği 2 dəfəyə yaxın artaraq 130 manatdan 250 manata çatdırılmışdır. Ölkə üzrə 1 milyon 350 min işçinin əmək haqqı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

2,3 milyon insanı əhatə edən pensiya, müavinət və təqaüdlərin verilməsində nəinki ləngimə olmadı, əksinə, təyinatlar və ödənişlərin vaxtından əvvəl və hər yerdə əlçatan olmaqla həyata keçirilməsi təmin edildi:

- 65 yaşdan yuxarı, tənha insanların evdən çıxmaması üçün onlara göstərilən bütün sosial və məişət xidmətlərini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz üzərinə götürdü və bu xidmətlər gündəlik olaraq sosial işçilər və könüllülər tərəfindən ləyaqətlə həyata keçirildi;

- sosial təcrid rejimi ilə əlaqədar 360 min nəfəri əhatə edən ünvanlı dövlət sosial yardımının verilməsi sadələşdirilərək, yardım almaq müddəti isə avtomatik olaraq uzadıldı. Karantin günlərində ünvanlı sosial yardım alan ailələrin sayı daha 10 min artaraq 82 minə çatdırıldı.

Prezident İlham Əliyevin sərəncamı ilə koronavirus pandemiyasının fəsadlarının azaldılması məqsədi ilə hökumətə büdcədən ayrılmış vəsaitin xeyli hissəsi vətəndaşlarımızın fəaliyyətini dayandırmış müəssisələrdəki iş yerlərinin qorunub saxlanılmasına, ixtisar hallarına yol verilməməsinə, əmək haqlarının karantin şəraitində də verilməsinə yönəldilmişdir. Bu tədbirlər sayəsində 300 min iş yeri qorunmuş, dövlət büdcəsindən maaş alan 910 min, özəl sektorda çalışan 680 min işçinin orta aylıq əmək haqqı saxlanılmışdır.

Eyni zamanda, aylıq əmək haqqı 250 manat olmaqla 50 min sosial iş yeri açılmış, 600 min şəxsə isə yaşayış minimumu (190 manat) məbləğində aylıq müavinət verilməsi təmin edilmişdir.

Cənab Prezident İlham Əliyevin dövlət quruculuğu və idarəçiliyi sahəsində uğurlarını şərtləndirən amillərdən biri də dövlət başçısının mütərəqqi yeniliklərə daim açıq olması, ən müasir texnologiyaların tətbiqinə önəm verməsidir. Bu baxımdan sosial müdafiə və sosial xidmət sahəsində innovativ yanaşmaların və texnologiyaların uğurlu tətbiqini bütövlükdə dövlət idarəetməsi sisteminin uğurları kimi xarakterizə etməliyik. Bu sahələrdə idarəçiliyin və əhaliyə xidmətlərin elektron infrastrukturunun qurulması, innovativ yeniliklər olaraq proaktiv xidmətlərin yaradılması və dairəsinin getdikcə genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hazırladığı "e-sosial" portalı geniş funksional imkanlara malik olmaqla, pandemiya dövründə sosial dəstək tədbirlərinin təşkilində mühüm rol oynadı.

Sosial təcrid rejimi ilə əlaqədar 360 min nəfəri əhatə edən ünvanlı dövlət sosial yardımın verilməsi sadələşdirilərək, yardım almaq müddəti isə heç bir diaqnostika aparılmadan avtomatik olaraq uzadıldı. Karantin günlərində ünvanlı sosial yardım alan ailələrin sayı daha 10 min artaraq 82 minə çatdırıldı.

Portal birdəfəlik ödəmə ilə bağlı yüz minlərlə müraciətin müxtəlif dövlət orqanlarına məxsus elektron informasiya bazalarından inteqrasiya şəraitində emalını, təhlil və qiymətləndirilməsini təmin etdi. Beləliklə, portal heç bir məmur-vətəndaş təması olmadan istifadəçilərinə onlar barədə toplanmış sosial məlumatlara çıxış və 100-dən çox sosial xidmət növündən yararlanmaq imkanı verir.

Ötən il tam şəkildə istifadəyə təqdim edilən "Məşğulluq" altsistemi dövlət məşğulluq xidmətlərinin çevikliyini və əmək bazarı iştirakçıları üçün real vaxt rejimində əlçatanlığını, effektivliyini, əmək bazarında rolunun artırılmasını təmin edir. Bütün işsiz və işaxtaran vətəndaşlar və vakansiyalar barədə məlumatları özündə əhatə edən bu altsistem işsiz və işaxtaran vətəndaşlara qısa müddətdə iş yeri əldə etmək, işəgötürənlərə isə lazımi peşə və ixtisaslara malik işçi qüvvəsi ilə təmin olunmaq imkanı yaratmışdır. Hazırda əmək, məşğulluq, sosial müdafiə üzrə 22 "e-xidmət" hazırlanır, onlardan 7 "e-xidmət"in bu ilin sonlarına qədər işə salınması planlaşdırılır.

Sosial müavinət və təqaüdlərin təyinatı sistemi tam proaktiv qaydada qurulacaq və bu prosesin gələn il başa çatdırılacağı və nəticə etibarı ilə əmək, məşğulluq, sosial müdafiə üzrə xidmətlərin (132 xidmət) elektronlaşdırılması səviyyəsinin 2021-ci ildə 76%-ə çatacağı nəzərdə tutulur.

VI çağırış Milli Məclisin yaz və növbədənkənar sessiyalarında sosial sahəni əhatə edən bir neçə qanuna vətəndaşların sosial müdafiəsini daha da gücləndirən dəyişikliklər edilmişdir.

Azərbaycan Prezidentinin sosialyönümlü siyasətinin məğzi də ondan ibarətdir ki, iqtisadiyyatımız inkişaf etdikcə, əhalimizin sosial müdafiəsi də gücləndirilsin, yəni iqtisadiyyatdan əldə olunan gəlirlər əhalinin sosial müdafiəsinə, sosial rifah halının güclənməsinə yönəldilsin.

Ona görə də:

...Bu gün Azərbaycan vətəndaşı inamlı və sabahından arxayındır.

...O, inanır ki, Azərbaycan dövləti hər an Azərbaycan vətəndaşının yanındadır.

...O, inanır ki, cənab Prezident hər an Azərbaycan vətəndaşının sosial rifahının güclənməsi barədə düşünür və sosial müdafiə dövlət başçısının diqqəti və nəzarəti altındadır.

Azərbaycan dövlətinin qadın siyasəti:

DÜNƏN VƏ BU GÜN

Tamam Cəfərova
Milli Məclisin deputatı

Qadın hüquqlarının təmin olunması, qadınların cəmiyyətdə və siyasi hakimiyyətdə təmsilçiliyi hüquqi dövlət quruculuğunun, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişaf səviyyəsinin mühüm meyarı kimi qəbul edilir. Azərbaycan da bu baxımdan istisna deyildir. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz faktdır. Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırmışdır. Ulu öndərin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra qadınlarımızın ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, xanımların bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyamız qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır.

1998-ci il yanvarın 14-də Ulu öndərin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış; həmin il Azərbaycan qadınlarının ilk qurultayı keçirilmişdir.

Qurultayın qərarlarında diqqət çəkən məqamlardan biri də qadın siyasətinin artıq yetkinləşməsi və gerçəkləşməsi tələbatı olmuşdur. Məhz bu istək və zərurətin nəticəsi kimi Ulu öndər Heydər Əliyev 2000-ci il martın 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalamışdır. Fərmanda xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsilçiliyi təmin edilməlidir. Sözügedən fərman dövlət həyatının bütün sahələrində qadınlarımızın öz müqəddəratını təyin etməsinə əlverişli şərait yaratmış, həmçinin gender tarazlığına nail olmaq istiqamətində operativ tədbirlərin görülməsini təmin etmişdir.

O dövrdə Azərbaycan bir sıra beynəlxalq təşkilatlara qoşularaq, onların qadın məsələlərini əhatə edən konvensiyalarını, protokollarını qəbul etmiş və qanunvericiliyimizdə qadınların hüquqlarının müdafiəsini təkmilləşdirmişdir. Bu baxımdan BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası və bu konvensiyanın əlavə protokolunun imzalanması xüsusi əhəmiyyətə malikdir.

2003-cü ildən etibarən Prezident İlham Əliyev qadınların cəmiyyətdə fəal iştirakını, hüquq və azadlıqlarının yüksək səviyyədə təminatını, gender bərabərliyinin qorunmasını insan hüquqları sahəsində həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən biri kimi uğurla davam etdirir. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli sərəncamı ilə gender sahəsində vahid dövlət siyasətini həyata keçirən komitənin adı dəyişdirilmiş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmışdır. Bu təşkilatın ümumən Cənubi Qafqazda gender sahəsində fəaliyyət göstərən yeganə dövlət strukturu olduğu da xüsusi qeyd edilməlidir.

Ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanda yeni siyasi və iqtisadi sistem qurulmuş, respublikamız sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmişdir. Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində yeniliklərə imza atmış, qanunvericilik daha da təkmilləşdirilmişdir. 2006-cı ildə Azərbaycanın qanunverici orqanında gender bərabərliyi haqqında, 2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilmişdir. Gender bərabərliyi bilavasitə cəmiyyətdə

kişi və qadın bərabərliyinin təmin olunmasına xidmət edirsə, məişət zorakılığı ilə bağlı qanun müəyyən stereotiplərin qarşısının alınmasında əhəmiyyətli rola malikdir.

Dövlət qadın siyasətinin reallaşmasında Azərbaycanın qeyri-hökumət təşkilatları da fəallıq nümayiş etdirirlər. Ölkəmizdə qadın problemləri üzrə ixtisaslaşmış təxminən 100-ə yaxın QHT fəaliyyət göstərir və onlar dövlət tərəfindən yüksək səviyyədə dəstəklənirlər.

Birmənalı şəkildə demək olar ki, respublikamızda gender bərabərliyinin təminatına dövlət qayğısı sayəsində bu gün Azərbaycan qadını ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayır; lider qadınlar, sahibkar qadınlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə, bunu hər sahədə görmək olar. Hökumətdə, nazirliklərdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bələdiyyə orqanlarında qadınların təmsilçiliyi 39 faizə, parlamentdə qadın millət vəkillərimizin sayı 22 nəfərə çatıb. Bu, ictimai fəaliyyətə qadınların marağının artmasının göstəricisidir. Sevindirici haldır ki, müstəqil

> **"Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar".**
>
> **Heydər Əliyev**

Azərbaycanın tarixində ilk dəfə Milli Məclisin Sədri xanım - Sahibə Qafarova seçildi.

Ölkəmizdə qadın hərəkatının və dövlət qadın siyasətinin inkişafında və yeni mərhələyə keçməsində, qadın hüquqlarının qorunması ilə bağlı qanunvericilik bazasının zənginləşməsində və qadınlarımızın dünyada ən yüksək səviyyədə təmsil olunmasında Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. O, özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə dövlətçilik tariximizdə "Birinci Xanım" İnstitutu formalaşdırmaqla Azərbaycan qadınlarına vətənə, xalqa xidmətdə örnəkdir. Mehriban xanım qısa müddətdə dünyada ən işgüzar qadın imicinə sahib olub, müasir Azərbaycan qadınının ideal obrazını yaradıb.

Mehriban Əliyevanın timsalında Azərbaycan qadını həm də fəal siyasi xadimdir, ölkəmizi dünyada tanıdan vətənpərvər vətəndaşdır. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Onun çoxşaxəli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif humanizm dayanır. Mehriban Əliyevanın humanizmi sərhəd tanımır, dünyanın ən ucqar bölgələrində onun xeyirxahlığından, humanizmindən danışırlar. Bunun nəticəsidir ki, Mehriban xanım onlarla dövlətin, beynəlxalq təşkilatın ən ali mükafatlarına, təltiflərinə layiq görülmüşdür. Onun fəaliyyətini

qiymətləndirən bir çox xarici ölkələrin tanınmış siyasətçiləri, ictimai xadimləri qeyd edirlər ki, "Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir".

100 il bundan əvvəl Azərbaycan Şərqdə qadınlara seçki hüququ verilən ilk ölkə kimi tarixə düşmüşdür. Fəxrlə deyə bilərik ki, bu gün, yəni 100 il sonra Mehriban xanımın simasında Azərbaycan dünyaya yeni lider qadın, siyasətçi qadın, rəhbər qadın obrazı təqdim edir.

Bəli, taleyin xoşbəxtliyidir ki, Azərbaycan xalqının Mehriban Əliyeva kimi övladı, Azərbaycan cəmiyyətinin şansıdır ki, Mehriban Əliyeva kimi qadın xadimi, Azərbaycan qadınlarının şansıdır ki, Mehriban Əliyeva kimi lideri və müstəqil Azərbaycan dövlətinin uğurudur ki, Mehriban Əliyeva kimi Birinci vitse-prezidenti vardır. Mehriban xanım ailə başçısı, ictimai fəal, mənəvi-əxlaqi dəyər təmsilçisi və dövlət idarəçiliyində yüksək vəzifə sahibi kimi bir nümunədir.

Vurğulanan kontekstdə Prezident İlham Əliyevin aşağıdakı fikri çox aktualdır: "Tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər". Mehriban xanım Əliyeva məhz bu qüdrətdə olan Azərbaycan qadını nümunəsidir. Bəli, Mehriban xanım Əliyeva hər bir Azərbaycan qadını üçün örnəkdir.

Mehriban xanım Əliyeva Azərbaycanın Birinci xanımı və Birinci vitse-prezidenti kimi milli səviyyədəki işləri ilə dünya miqyasındakı fəaliyyətini uyğunlaşdırır və bu əsasda bütün dünyada böyük nüfuz qazanıb.

Amma birinci xanım statusunu daşıyan bəzi qadınlar öz məsuliyyətlərini dərk etmirlər və başqalarına nümunə olmaları bir yana, hərəkətləri ilə qınaq obyektinə çevrilirlər. Onlar qadınlara xas olan mərhəmət, xeyirxahlıq, humanizm, sülhsevərlik hisslərini unudub, özlərini terrorçu kimi aparırlar. Əlbəttə ki, ancaq faşizmi dövlət siyasəti səviyyəsinə qaldıran ölkənin "birinci ledi"si öz terrorçu təfəkkürü ilə işğal etdikləri torpaqlardakı qanunsuz hərbi birləşmələrin təlimlərinə qatıla, avtomatla müharibəyə çağırış xarakterli şəkil çəkdirib paylaşa bilər. Yalnız etibarsız, siyasətdə riyakar bir baş nazirin xanımı, Sorosun "gəlini" hərbi paltarda, bir neçə qadını da başına yığıb əlində Kalaşnikov avtomatı sülhü hədəf alaraq bölgədə sabitliyi, 30 ilə yaxındır aparılan sülh danışıqlarını və ATƏT-in Minsk qrupunun bütün səylərini ayaqlar altına salıb puç edə bilər. Halbuki, cəmi 2 il əvvəl azərbaycanlı qadınlardan sülhə töhfə vermələrini istəyən Ermənistanın birinci xanımı indi də hərbi geyimdə 10-15 erməni qadınla bərabər işğal etdikləri Azərbaycan ərazisi olan Qarabağda silahı bizə tuşlayıb, gizli hədəfə alıb. Doğrudan da, "Ərlə arvadın torpağı bir yerdən götürülüb". Anna Akopyan bir daha sübut etdi ki, onlar "sülh göyərçini" deyil, müharibə qırğılarıdır. "Birinci ledi"nin sülh fəlsəfəsinə zidd olan bu maskaradı, hətta öz ölkəsində haqlı olaraq gülüş hədəfinə çevrildi. Çünki o, dünyada hərbi forma geyərək, əldə avtomat "sülh kampaniyası" təşkil edən ilk şəxsdir.

Mehriban Əliyevanın timsalında Azərbaycan qadını həm də fəal siyasi xadimdir, ölkəmizi dünyada tanıdan vətənpərvər vətəndaşdır. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır.

Müharibə sözü analığın fəlsəfəsinə ziddir. Azərbaycan qadınları da müharibə istəmirlər. Azərbaycanın Birinci vitse-prezidenti və Birinci xanımı Mehriban Əliyeva deyir ki, "gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Ən yüksək qələbələri əldə etmək, ən böyük zirvələrə qalxmaq üçün məhz bu mənəvi dəyərlər uca tutulmalıdır".

Dünya ümumi düşmənlə – COVID-19-la savaşda

Rəşad Mahmudov
Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini

Ötən ilin dekabrında Çinin Hubey əyalətinin Uhan şəhərində aşkarlanmış və dünyanı bürüyən yeni növ koronavirusa 31 milyondan çox insan yoluxmuş və pandemiya səbəbindən indiyədək 960 mindən artıq insan həyatını itirmişdir. "Röyters" agentliyi tərəfindən aparılan son hesablamalara əsasən, hər gün koronavirusdan 5900-ə yaxın insan həyatını itirir. Başqa sözlə, dünyada saatda 247 və hər 15 saniyədə isə 1 nəfər ölür.

Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, bu dəhşətli ölüm kabusu 188 ölkəni bürümüşdür və onun nə vaxt qurtaracağı məlum deyildir. Dünyadakı pandemik situasiya o dərəcədə ciddi və ağırdır ki, artıq bir sıra ölkələr daha böyük fəlakətlə üzləşməmək üçün mühüm tədbirlər görmək məcburiyyətində qalıblar və bu barədə ÜST-ün baş direktoru Tedros Qebreyesus da Cenevrədəki son brifinqində dünya üçün həyəcan təbili çalıb. O, COVID-19-u dünya səhiyyəsi üçün ən ağır situasiya adlandırıb. Baş direktor brifinqdə bildirib ki, dünya səhiyyəsində qlobal fövqəladə vəziyyət altıncı dəfə baş verir və bu virus ən ağırı hesab olunmalıdır. Onun sözlərinə görə, son altı həftədə yoluxmaların sayı nəzərəçarpacaq dərəcədə çoxalıb, ölənlərin və yoluxanların sayı iki dəfə artıb. ÜST rəhbəri hesab edir ki, koronavirusun sürətlə yayılmasının qarşısını almaq, yaxud onu zəiflətmək üçün yoluxanların təcrid edilməsi, davamlı test aparılması və düzgün müalicə vacibdir. "Məsafə saxlayın, əllərinizi yuyun, ictimai yerlərə, qapalı məkanlara girməyin, tövsiyə olunan yerlərdə maska taxın", - deyə baş direktor söyləyib. Onun bəyanatında bu tədbirlər həyata keçirilməsə, bizi daha böyük fəlakətlər və ölüm gözlədiyi ilə bağlı xəbərdarlığı dünya dövlətlərini narahat etməyə başlayıb. Elə bu səbəbdən son vaxtlar Avropa ölkələrinin əksəriyyətində, hətta təmiz havada belə qoruyucu maskalardan istifadə məcburi olub. Əlbəttə, bu da təbiidir. Axı COVID-19 virusu əsasən yaxın məsafədə olarkən ötürülür, öskürmə, asqırma zamanı xırda damcılar öz yoluxucu "işini" görür, ara məsafənin az olduğu hava boşluqlarını sürətlə doldurur və yayılır. Koronavirusa yoluxan adam simptomları ilk üç gün müddətində hiss edir, bəzən simptomlar olmadan da yoluxma baş verə bilir. Buna görə də profilaktik tədbirlər çərçivəsində verilən tövsiyələrə əməl etmək hamımızın vətəndaşlıq borcudur.

Bu gün bütün dünyada hakimiyyət orqanları profilaktik tədbirlər görür və yoluxmanın artmaması üçün karantin tədbirləri həyata keçirir, riskli sahələrə nəzarəti gücləndirirlər.

Azərbaycan da dünyanın bir parçası olaraq yoluxmadan qaça bilmədi, ümumi bəla bizi də ağuşuna aldı. Lakin qətiyyətlə bildirirəm ki, əgər biz vaxtında preventiv tədbirlər görməsəydik, bəzi ölkələrdəki kimi itkilərimiz qat-qat çox olardı. Pandemiya daha ciddi sosial-iqtisadi böhrana, psixoloji sarsıntılara gətirib çıxara bilərdi. Bu fəsadlarla indiyə qədər ən ciddi müqavimət gücü nümayiş etdirən ölkələr sırasında Azərbaycan Respublikasının adı müsbət mənada fərqlənən və öndə gedən ölkələrdəndir.

Koronavirusun yayılmağa başladığı ilk gündən ölkəmizin bütün

resursları səfərbər edildi. Dövlət başçımız İlham Əliyevin tutduğu xətt və siyasət təkcə rəhbəri olduğu xalqın deyil, həm də bütün bəşəriyyətin xilasına yönəlmiş məqsədyönlü siyasi strategiya oldu; bu addım indi də beynəlxalq qurumlar tərəfindən təqdir edilməkdədir.

Virusun kütləvi şəkildə yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının maksimum dərəcədə qorunması istiqamətində qəbul edilən mühüm qərarlar, bu istiqamətdə uğurla həyata keçirilən davamlı, düşünülmüş tədbirlər ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri arasında dərin razılıq hissi ilə qarşılandı; bu isə o deməkdir ki, dövlətlə xalq birlikdədir, xalqın müdrik liderinin real gücü tarixin ən çətin dönəmlərində üzə çıxır və bu ağır dövrdə bir daha sübut etdik ki, "biz birlikdə güclüyük!"

Bu gün də bu dəhşətli fəlakətlə mübarizəyə öndərlik edən ölkə rəhbərinin və Birinci xanım Mehriban Əliyevanın titanik səyləri öz nəticəsini verməkdədir.

Pandemiya dövründə Milli Məclis Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və nəzarəti altında Azərbaycanda koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlərdə yaxından iştirak etdi, əhalinin sağlamlığı naminə üzərinə düşən böyük məsuliyyəti yüksək səviyyədə ortaya qoydu. Azərbaycan parlamenti bir daha cəmiyyətlə, dövlətlə, möhtərəm Prezidentlə birlikdə olduqlarını nümayiş etdirdi və buna görə də başda spiker Sahibə Qafarova olmaqla bütün deputat həmkarlarıma, Milli Məclis Aparatının əməkdaşlarına minnətdarlığımı bildirirəm.

Qlobal bəla ilə mübarizənin əsas prinsiplərindən biri insan qruplarını virusa yoluxmaqdan təcrid etməkdir. Bunun üçün ölkəmizdə ilk öncə "Evdə qal, Azərbaycan!" şüarı fəal şəkildə təbliğ olundu və maarifləndirmə işlərinə başlanıldı. Bütün proses boyunca müşahidə etdiyim əsas məqam ondan ibarət idi ki, dövlətimiz insanların bu prinsiplərə şüurlu şəkildə riayət etməsi, təhlükənin miqyasını başa düşməsi üçün bütün imkanlarını səfərbər etmişdir. Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi qadağa və məhdudiyyətlərin tətbiq olunma səbəbləri, prinsipləri geniş şəkildə cəmiyyətə izah edilməkdədir.

Bütün qonşu ölkələrlə sərhədlərin bağlanması və martın 24-də tətbiq olunan karantin rejimi əsas iqtisadi fəaliyyətlərin dayanması ilə nəticələndi. Dövlət və büdcə təşkilatlarında çalışanlar öz əmək haqlarını almağa davam etsələr də, bəzi müəssisələrdə maaşlar dövlət yardım paketi ilə kompensasiya olunsa da, karantin rejimi rəsmi əmək müqaviləsi olmayan işçilərə, qeydiyyatsız çalışanlara, rəsmi işçi statusu olmayanlara mənfi təsir etdi.

Pandemiya Azərbaycanda səhiyyə sahəsində də sürətli remodelləşdirmə proseslərini gündəmə gətirdi. Bizim səhiyyə siyasətimiz yalnız Azərbaycan vətəndaşının sağlamlığının qorunmasına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə deyil, eyni zamanda, fövqəladə və gözlənilməz hadisələrdən müdafiə edilməsinə hesablanıb.

Qeyd etdiyim kimi, virusla bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılandan sonra dərman preparatlarının alınmasına 10 milyon manat vəsait ayrıldı. Xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi öz həllini tapdı. Həmçinin apteklərdə maskaların çatışmazlığı kimi halla-

Qlobal bəla ilə mübarizənin əsas prinsiplərindən biri insan qruplarını virusa yoluxmaqdan təcrid etməkdir. Bunun üçün ölkəmizdə ilk öncə "Evdə qal, Azərbaycan!" şüarı fəal şəkildə təbliğ olundu və maarifləndirmə işlərinə başlanıldı. Bütün proses boyunca müşahidə etdiyim əsas məqam ondan ibarət idi ki, dövlətimiz insanların bu prinsiplərə şüurlu şəkildə riayət etməsi, təhlükənin miqyasını başa düşməsi üçün bütün imkanlarını səfərbər etmişdir.

rı yaradanlara, süni şəkildə qiymət artımına yol verənlərə qarşı ən ciddi cəza tədbirləri tətbiq edildi.

Pandemiya ilə bağlı vəziyyətin gedişatı, müşahidələr və gerçəklər onu deyir ki, Azərbaycan səhiyyəsi və səhiyyə işçiləri bu sınaqdan daha alnıaçıq çıxdılar və hazırda bu sahədə ciddi irəliləyişlər görünməkdədir.

Ölkədə yeni modul tipli xəstəxanalar sürətlə inşa edildi, xaricdən müasir avadanlıqlar gətirildi, demək olar ki, bütün ölkə xəstəxanaları pandemiya ilə mübarizəyə qoşuldu. Həkimlərimiz, tibb işçilərimiz - bütün personal öz bacarıq və qabiliyyətlərini, həyatlarını ortaya qoydular, fədakar hərəkətləri ilə bir daha isbatladılar ki, onlar üçün insan sağlamlığı, həyat eşqi ən müqəddəs işdir. Bu günə kimi həftələrlə evinə getməyən, doğmalarını görməyən həkimlərimiz var. Onlar qorxulu virusa yoluxan xəstələri sağaltmaq üçün gecə-gündüz çalışırlar.

Heç şübhəsiz ki, səhiyyə sahəsində kadr islahatları və tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi və həkimlərə göstərilən dövlət qayğısı da mühüm rol oynadı.

Pandemiyaya qədər ölkəmizdə 750-dən artıq yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış tibb müəssisəsi müasir avadanlıqlarla təmin olunmuşdu. Tibb müəssisələrinin sürətli təmiri, bərpası, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsindəki islahatların əsas istiqamətləri idi. Aparılan islahatlar, maddi-texniki bazanın təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən işlər də pandemiya dövründə öz bəhrəsini verdi. Məhz bu amillərin nəticəsidir ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə atılan addımları təqdir etdi. Ölkəmizin təcrübəsi digər ölkələrə nümunə göstərildi.

Cənab Prezidentimiz tibb işçilərinin pandemiya dövründəki gərgin və yorulmaz fəaliyyətlərini yüksək dəyərləndirib və çıxışlarının birində vurğulayıb: "Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır". Bu sözlər bizim məsuliyyət hissimizi daha da artırır, gələcək fəaliyyətimizi daha düzgün və məqsədyönlü qurmağa səsləyir.

Dövlət başçımız İlham Əliyevin tutduğu xətt və siyasət təkcə rəhbəri olduğu xalqın deyil, həm də bütün bəşəriyyətin xilasına yönəlmiş məqsədyönlü siyasi strategiya oldu; bu addım indi də beynəlxalq qurumlar tərəfindən təqdir edilməkdədir.

Bununla belə, qeyd etməliyəm ki, COVID-19 virusu ilə mübarizədə qısa müddətdə əldə edilən dərslərdən biri sağlamlıq sistemlərini istənilən gələcək təhdidlərə hazırlamaqdır. Buraya logistik planlaşdırmadan tutmuş, xəstəxanalarda xalat, maska, əlcək, oksigen və dərman maddələrinin konservasiya edilməsi də aiddir. Gələcəkdə vaksinlərin ölkəyə gətiriləcəyi və onun həyata keçiriləcəyi dönəmdə bu sahədə xüsusi hazırlıqlı tibb işçilərinə ehtiyac yaranacaq.

Yeni virusun meydana çıxması, hətta bu sahədə təcrübəsi olan güclü dövlətlərin də səhiyyə sistemində boşluqların olmasını göstərdi. Buna görə də düşünürəm ki, arxayınlaşmaq qətiyyən yolverilməzdir, çünki bəşəriyyətin canına işləmiş bu qorxulu koronavirus hələ bundan sonra daha çox sosial-iqtisadi problemlərə təkan verə bilər, dünyada siyasi və sosial gərginliklər mənbəyi kimi çıxış edə bilər, xalqların sağlam həyat tərzi üçün əlavə risklər yarada bilər.

Hazırkı durum belədir və zənnimcə, koronavirus pandemiyasının ikinci dalğası da qaçılmazdır. Son günlər dünya ölkələrindən gələn həyəcanlı xəbərlər də bunu deməyə əsas verir. Səhiyyəsinə, iqtisadiyyatına və ümumiyyətlə, həyat səviyyəsinin göstəriciləri-

nə görə ən qabaqcıl dövlətlər belə yoluxmanın sürətlə artmasının qarşısında aciz qalırlar. Doğrudur, vaksinlərin yaradılması istiqamətində də sürətli işlər gedir. Lakin hələ ki, bu kabus bəşəriyyətin başı üstündə dolaşmaqda davam edir.

Azərbaycanda karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olsa da, son vaxtlar bəzi yumşaldılma tədbirləri epidemioloji situasiyanın pisləşə biləcəyi ehtimalını ortaya qoyur. Biz geniş xalq kütlələrinin intensiv məlumatlandırılması, əhalinin tibbi maarifləndirilməsinin davam etdirilməsi kimi tədbirləri gücləndirməliyik, xəstəliyin yayılma sürətinin artmaması üçün, səhiyyə sistemini pandemiyanın kəskin arta biləcəyi hallar üçün hazır vəziyyətə gətirmək məqsədi ilə əlavə tədbirlər həyata keçirməliyik.

Bundan başqa, epidemioloji vəziyyətə nəzarət etmək üçün ən effektli vasitə əhalinin həssas qrupunun vaksinasiyasıdır. Hesablamalar göstərir ki, əhalinin ilkin olaraq 20-30%-nə peyvənd vurulması epidemioloji vəziyyətə effektiv nəzarət etmək üçün kifayətdir. Lakin aparıcı vaksin istehsalçıları artıq çoxsaylı sifarişləri əvvəlcədən qəbul etdiklərindən və bu tələbin həcminin onların istehsal imkanlarından çox olmasını nəzərə alsaq, növbəti sifarişləri tezliklə tam təmin etmək mümkün olmaya bilər. Buna görə də, vaksinlərin əlçatanlığını təmin etmək məqsədi ilə 2010-cu il sentyabrın 15-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVİ (Global Alliance for Vaccines) təşkilatı arasında saziş imzalanıb. Bu sazişə əsasən bütün tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda başqa üzv ölkələr kimi Azərbaycan da peyvəndlə təmin olunacaqdır.

Dövlətimizin virusla mübarizədə müəyyənləşdirdiyi əsas taktiki yol bəllidir - insanların özlərini qorumaqla dövlətə dəstək olmaq! Bir çox ölkələrdən fərqli olaraq Azərbaycan dövləti əhalini təhlükə qarşısında tək qoymaq niyyətindən tamam uzaqdır. Xüsusən yaşlı nəslin qorunması, diqqət mərkəzində saxlanılması bu qarışıq dünyanın amansız epidemik çağında əsl humanizm nümunəsidir.

Azərbaycan vətəndaşı bilməlidir ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Buna görə də hamı öz dövlətinin yanında olmalı, hamının ürəyi vətənlə birgə döyünməli və nəhayət, hamı öz vətəndaş məsuliyyətini anlamalı, mövcud karantin qaydalarına, şəxsi gigiyenaya, zəruri profilaktik qaydalara əməl etməlidir.

Banklara etimad artacaq

Tahir Mirkişili
Milli Məclisin İqtisadi siyasət,
sənaye və sahibkarlıq komitəsinin sədri

Milli Məclisdə banklarla bağlı geniş qanun paketi hazırlanır. Bu paketə bir sıra vacib məsələlər daxil edilmişdir və nəticədə vətəndaşların banklara etimadı yüksələcəkdir.

2020-ci ilin əvvəllərində koronavirus infeksiyasının yayılması müxtəlif ölkələrdə əhalinin sağlamlığı ilə bağlı risklər yaratdı, dünyanın iqtisadi-siyasi həyatında ciddi dəyişikliklərə yol açaraq iqtisadiyyatın bütün sektorlarına öz təsirini göstərdi. Turizm sektorunun çətin vəziyyətə düşməsi, neft qiymətlərinin enməsi, dünya üzrə həm istehsal, həm də istehlak həcminin azalması və digər bu kimi faktorlar iqtisadiyyatın qan damarları hesab edilən bank sektoruna da öz təsirini göstərdi.

Banklara nəzarət mexanizmlərində yeni təkmil metodların tətbiq olunması artıq günümüzün tələbidir. Banklarda toplanan vəsaitlərin iqtisadiyyatın real sektoruna asan şəkildə transmissiya edilməsi iqtisadi inkişaf üçün əsas mənbədir.

Vəziyyətə iqtisadi tərəfdən baxaraq ölkədə atılmış addımlar üzrə təhlil aparsaq, icra edilən işlərin əhatəsinin geniş olduğunu görərik. Bu il ərzində dünya bazarlarında neftin qiymətinin düşməsi fonunda ikinci rübdə manata olan təzyiq bir qədər yüksəldi, əhalinin müəyyən hissəsi dərhal özlərində olan vəsaitləri xarici valyutaya çevirməyə başladı. Lakin peşəkar şəkildə təşkil edilmiş mexanizmlər - bankların valyutaya olan tələbinin vaxtında qarşılanması, sui-istifadə hallarının qarşısının alınması müəyyən insanlarda manatın məzənnəsi ilə bağlı yaranmış ajiotajı dayandırdı. Fikrimcə, bu, əldə edilməli olan nəticələrdən ən vacibi idi. Hazırda iqtisadiyyatda makroiqtisadi sabitliyin möhkəmlənməsi üçün müvafiq tədbirlər həyata keçirilməkdədir.

2016-cı ildən başlayaraq banklara və milli valyutaya olan etimadı yüksəltmək üçün atılan addımlar öz müsbət nəticələrini göstəriblər. Belə ki, banklardakı əmanətlərin xarici valyutada olan payı son 4 ildə 80%-dən 53%-ə qədər enmişdir. Dövlət başçısının apardığı islahatların əhatə etdiyi bank sektoru da bu dövrdə təkmilləşmələrə məruz qalmışdır. Banklarda davamlı sağlamlaşdırma tədbirləri həyata keçirilmişdir.

İqtisadi islahatların sürətlə aparılması, struktur dəyişikliklərinin baş verməsi, iqtisadi münasibətlərdə texnologiyaların xüsusi əhəmiyyət kəsb etməsi bank sahəsində mövcud olan qanunverici aktların da təkmilləşməsini tələb edir. Bir neçə bankın ləğvi prosesində ortaya çıxan məsələlərin həlli üçün mövcud mexanizmlərin təkmilləşdirilməsi vacibdir.

Eyni zamanda, banklara nəzarət mexanizmlərində yeni təkmil metodların tətbiq olunması artıq günümüzün tələbidir. Banklarda toplanan vəsaitlərin iqtisadiyyatın real sektoruna asan şəkildə transmissiya edilməsi iqtisadi inkişaf üçün əsas mənbədir. Post-pandemiya dövründə Azərbaycanın iqtisadi inkişafını təmin edəcək əsas amillər özəl sektorun inkişafı və investisiyalar olacaqdır. Bu iki amil arasında sürətli və əhatəli əlaqənin təminində bankların müstəsna rolu olmalıdır. Buna görə hesab edirik ki, bank sahəsində qanunvericilik bazasının təkmilləşməsi iqtisadiyyatın sürətli inkişafı üçün dövlət tərəfindən reallaşdırılan islahatların effektivliyini yüksəldəcək, iqtisadi artımın davamlılığının təminində bu sektorun real təsir imkanlarını daha da artıracaqdır.

Lombardların fəaliyyəti qanunla tənzimlənəcək

Lombard fəaliyyətində olan neqativ halların çoxluğunu nəzərə alaraq bu sektorun səmərəliliyinin artırılması məqsədi ilə, eləcə də istehlakçıların hüquqlarının qorunması üçün "Lombardlar haqqında" qanun layihəsi hazırlanıb və 2019-cu il sentyabrın 30-da Milli Məclisdə ikinci oxunuşda qəbul edilib. Qanun layihəsini üçüncü oxunuşa hazırlamaqdan ötrü işçi qrupu yaradılıb və layihə üzərində əsaslı iş gedib.

Əli Məsimli
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini

Lombard dedikdə, daşınar əşyaların girov qoyulması müqabilində fiziki şəxslərə qısamüddətli kreditlərin verilməsini həyata keçirən hüquqi şəxs başa düşülür. Adətən əhalinin aztəminatlı təbəqəsi təcili pula ehtiyacı olduğu zaman əsasən qızıl-zinət əşyalarını girov qoyub, müqabilində lombardlardan pul götürürlər. Sosioloji sorğuların nəticələri göstərir ki, lombardlara münasibətdə mənfi rəylər müsbət məqamlardan qat-qat çoxdur. Buna baxmayaraq, onların xidmətinə bütün dövrlərdə tələbat var və son vaxtlar lombard kreditlərinin həcmində artım da müşahidə edilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli 1616 saylı sərəncamı ilə maliyyə bazarlarında fəaliyyət göstərən subyektlərə nəzarət və tənzimləmə funksiyası Mərkəzi Banka həvalə edilib. Bununla əlaqədar qanun layihəsi bir daha Mərkəzi Bankla birgə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvləri ilə müzakirə edilib, layihə ilə bağlı Mərkəzi Bankın, habelə deputatların ikinci oxunuş zamanı səsləndirdikləri rəy və təkliflər nəzərə alınaraq təkmilləşdirmə işləri aparılıbdır. İşçi qrupu həm ikinci oxunuş zamanı qaldırılan məsələləri analiz edib, həm də mövcud vəziyyətin tam araşdırılması üçün lombard işlədənlərin özü ilə də görüşlər keçirib. Bu prosesdə lombardların fəaliyyətini tənzimləyən xarici qanunvericilik də bir daha nəzərdən keçirilib; əldə olunan məlumatlar və müzakirələr nəticəsində ikinci oxunuşla müqayisədə qanun layihəsində xeyli dəyişiklik edilib.

Layihə üzərində əsasən iki istiqamətdə təkmilləşdirmə işləri aparılmışdır.

Birincisi, lombard xidmətlərindən istifadə edən borcalanın hüquqi müdafiəsinin gücləndirilməsi:

- kreditin aylıq faiz dərəcəsi ilə yanaşı, illik faiz dərəcəsinin də borcalana bildirilməsi tələbinin müəyyən edilməsi;
- faiz dərəcələri və digər ödənişlərin yalnız borcun qalıq məbləğinə hesablanması tələbinin təsbit olunması;
- lombard tərəfindən kənar şəxslərdən maliyyənin yalnız təminat müqabilində cəlb edilə bilməsi;
- nağdsız qaydada da kreditlərin alınması imkanlarının yaradılması;
- kreditlər üzrə müştərinin öhdəliyinin xarici valyutaya indeksə olunmasının qadağan edilməsi;
- verilən kreditlərə görə faizdən başqa hər hansı ödənişin, xərcin tələb olunmasının qadağan edilməsi;
- qüvvədə olduğu müddətdə kredit müqaviləsinin şərtlərinin müştərinin ziyanına dəyişdirilməsinə yol verilməməsi;
- lombardın kredit müqavilələrindən yaranan tələb hüququnu yalnız lombarda və ya digər kredit təşkilatına güzəşt edə bilməsi tələbinin müəyyən edilməsi;

- lombardın ali idarəetmə orqanın təsdiqlədiyi kreditlərin verilməsi qaydalarına əməl olunması tələbinin müəyyən edilməsi.

İkincisi, lombardların fəaliyyətinin təhlükəsizliyinin gücləndirilməsi və dövlət nəzarəti altına alınması ilə əlaqədar tənzimləmə və nəzarət proseslərinin sadələşdirilməsi:

- lombard fəaliyyətinə icazənin lisenziyalaşdırma yolu ilə deyil, Mərkəzi Bankda xüsusi reyestrə daxil edilməsi və lombard şəhadətnaməsi verilməsi ilə dövlət nəzarətinə götürülməsi;
- vətəndaş qüsursuzluğuna dair tələblərin lombardın bütün təsisçilərinə (iştirakçılarına) şamil edilməsi;
- filialların açılmasına icazənin ləğvi, əvəzində nəzarət orqanına fliallarn fəaliyyəti ilə bağlı qanunda nəzərdə tutulan məlumat və sənədlərin təqdim olunması tələbinin irəli sürülməsi (lombardın filiallarının sayının nizamnamə kapitalına dair prudensial tələblərlə tənzimlənməsi nəzərdə tutulur);
- lombard tərəfindən girovların və girov biletlərinin uçotunun aparılması, habelə müvafiq sənədlərin saxlanması tələbinin müəyyən edilməsi;
- lombardların fəaliyyətinin prudensial tənzimlənməsində qanunda nəzərdə tutulmuş normativ və tələblərdən başqa bu sahədə beynəlxalq təcrübədə qəbul olunan normativ və tələblərin tətbiq edilməsi imkanlarının yaradılması.

Beləliklə, "Lombardlar haqqında" qanun layihəsinə əsasən lombardlar fəaliyyət göstərə bilmək üçün lisenziya almaq əvəzinə Mərkəzi Bankda qeydiyyata alınaraq xüsusi reyestrə daxil edilməli, onların məqbul məbləğdə nizamnamə kapitalı olmalı, kredit üçün qəbul edilən girovlar sığortalanmalıdır və s. "Lombardlar haqqında" qanun layihəsi üzərində sözügedən istiqamətlərdə aparılan işlər bu sahədə açıq qalan aşağıdakı bir sıra vacib məqamlara aydınlıq gətirməyə imkan verir:

1. Azərbaycanda lombardlara nəzarətdəki boşluq aradan qalxacaq, onların fəaliyyəti qanunla tənzimlənəcək. "Lombardlar haqqında" qanun layihəsinin 6-cı maddəsinin 2-ci bəndinə görə lombardın nizamnamə kapitalının minimum miqdarına dair tələblər Mərkəzi Bank tərəfindən müəyyən olunacaq.

2. Hazırda Azərbaycanda qeydiyyatdan keçmiş 700-dən artıq lombard fəaliyyəti ilə məşğul olan təsərrüfat subyekti müəyyən edilsə də, onların real sayı məlum deyil. Bu məsələyə münasibətdə maddə 28.1-in tələbinə görə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən lombardlar Mərkəzi Bankda qeydiyyatdan keçib reyestrə daxil ediləcək.

3. Lombardlar bankdan krediti götürüb əhaliyə istədiyi formada - 50-60%, bəzən isə daha yüksək faizlə kredit verirlər. Qızıl-zinət əşyaları çox vaxt real dəyərindən çox

aşağı qiymətləndirilərək girov götürülür. Beləliklə, lombardlar həm girov qoyulan zinət əşyalarının öz real dəyərindən aşağı qiymətləndirilməsindən, həm də yüksək faizlər hesabına böyük gəlirlər əldə edirlər. Büdcəyə məcmu ödənişləri isə 1 milyon manatın altında olmaqla, simvolik xarakter daşıyır. Sözügedən problemlə bağlı qanun layihəsinin 7.1-ci maddəsi vətəndaşların girov qoyduğu əşyaların obyektiv meyarlar əsasında qiymətləndirilməsinə imkan verəcək.

4. Hazırda girov qoyulan əşyanın itməsi, zədələnməsi və sair ilə bağlı etibarlı sığorta mexanizmi yoxdur. Qanun layihəsinin 8-ci maddəsində göstərilir ki, lombard girova qoyulmuş əşyanı girovda olduğu müddət ərzində bu qanunun 7-ci maddəsinə əsasən müəyyənləşdirilmiş qiymətinin tam məbləğində öz vəsaiti hesabına müştərinin xeyrinə əşyanın zədələnməsi, məhv olması və itkisi risklərindən sığortalamalıdır. Lombard öz vəsaiti hesabına girov qoyulmuş əşyaları digər risklərdən də sığortalaya bilər.

5. Məlumdur ki, borcalan pulu qaytarmadıqda kredit verən əmlakı hərraca çıxararaq satır və öz pulunu götürür. Lombardlarla bağlı narazılıqların xeyli hissəsi onunla bağlıdır ki, müştəri kredit ödənişini gecikdirən kimi, bir çox lombardlarda dərhal onun qoyduğu girov satışa çıxarılır. Bu problemlə bağlı qanun layihəsinin 13-cü maddənin 1-ci bəndində deyilir ki, müştəri kredit müqaviləsi üzrə öhdəliklərinin icrasını gecikdirərsə, gecikmənin birinci günündən etibarən 30 təqvim günü müddətində lombard tərəfindən girov qoyulmuş əşyaya tutma yönəldilməsinə yol verilmir. Həmin müddətdən sonra girov qoyulmuş əşya satıldıqda isə maddə 15.3-ün tələblərinə görə, "girov qoyulmuş əşyanın satışından əldə olunan pul vəsaiti lombardın müqavilə üzrə tələb hüququndan artıq olduqda, artıq qalan vəsait "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müştəriyə ödənilir. Lombard girovun satılmasından sonra 5 iş günü müddətində müştərini girovun satışından götürülmüş məbləğin bölüşdürülməsi barədə yazılı formada məlumatlandırmalıdır".

"Lombardlar haqqında" qanun layihəsinə əsasən lombardlar fəaliyyət göstərə bilmək üçün lisenziya almaq əvəzinə Mərkəzi Bankda qeydiyyata alınaraq xüsusi reyestrə daxil edilməli, onların məqbul məbləğdə nizamnamə kapitalı olmalı, kredit üçün qəbul edilən girovlar sığortalanmalıdır ...

Beləliklə, "Lombardlar haqqında" qanun layihəsi üçüncü oxunuşa hazırdır və Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən parlamentin 2020-ci il payız sessiyasında baxılmaq üçün iş planına daxil edilib. Bu qanunun qəbulu və səmərəli fəaliyyət göstərən işlək reallaşdırma mexanizminin işə salınması Azərbaycanda lombardların ənənəvi xüsusiyyətlərini nəzərə alaraq lombard fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi, bu xidmətlərdən istifadə edən istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi sahəsində irəliyə doğru mühüm bir addım olacaq.

Dördüncü Sənaye İnqilabı və Azərbaycan

Elnur Allahverdiyev
Milli Məclisin deputatı

Rəqəmsal texnologiyaların həyatımızın bütün sferalarına sirayət etməsi ilə meydana çıxan "Dördüncü Sənaye İnqilabı" anlayışı insanın iqtisadi fəaliyyətinin növbəti fazasıdır. Texnoloji tərəqqi hesabına inqilab olaraq dəyərləndirdiyimiz mərhələlər bir-birini qısa zaman kəsiyində əvəzləməyə başlayıb. Əgər əl əməyindən maşınla istehsala keçid prosesi bir neçə onilliyi əhatə edən dövrü özündə ehtiva edirsə, XXI əsrin əvvəllərində elan olunmuş Üçüncü Sənaye İnqilabı yerini daha mükəmməl və qabaqcıl "dördüncü"yə təslim edir. Dördüncü Sənaye İnqilabı elə bir prosesdir ki, qabaqcıl texnologiyaların tətbiqi ilə mövcud sənaye sahələrini yeniləri ilə əvəzləyən vasitələr bütövlükdə cəmiyyətdə köklü dəyişikliklərə səbəb olur. Bu inqilabi keçidi daha yaxından şərh etmək üçün ötən üç mərhələyə qısa nəzər yetirməliyik.

Beləliklə, Birinci Sənaye İnqilabı XVII əsrdə buxar mühərrikinin kəşfi ilə başlayır və o dövrün qabaqcıl ölkələrində XVIII-XIX əsrlərdə davam edir. Prosesin əsası bundan ibarət idi: manufakturaları zavodlar əvəzləyirdi. İkinci mərhələ XX əsrdə istehsalın avtomatlaşdırılması və konveyerləşməsini əks etdirir. Sənaye inqilabları bir qayda olaraq elm və texnikanın inkişafı ilə yanaşı, cəmiyyətin strukturu, onun daxilindəki münasibət və proseslərin dəyişməsinə, yeni-yeni peşələrin meydana gəlməsinə səbəb olur. XXI əsrin əvvəlində elan olunan üçüncü mərhələnin əsas fəlsəfəsi faydalı qazıntılardan imtina, bərpa edilən enerji mənbələrindən istifadə, kompüter texnologiyalarının istehsal sahələrində geniş tətbiqi və rəqəmsal texnologiyaların həyatımızın bütün sferalarında dominant mövqe tutması ilə xarakterizə olunur. "Time" ("Taym") jurnalı bu dövrü "3.0 sənayesi" adlandırırdı.

Düşünmək olardı ki, bu istehsal mərhələsi müəyyən dövrü əhatə edəcək, ancaq rəqəmsal texnologiyaların iqtisadiyyatda və cəmiyyətdə belə yüksək sürətli dəyişikliklərə səbəb olacağını görmək, güman ki, bəşəriyyətin özü üçün də bir sürpriz oldu. Baxmayaraq ki, "3.0 sənayesi" hələ dünyanın əksər bölgələrinə qədəm qoymayıb, qabaqcıl texnoloji mərkəzlər "4.0 sənaye"sinin dünyaya "göz açması"ndan danışırlar.

Dördüncü Sənaye İnqilabı Almaniyada meydana gəlib. Burada hesab edirlər ki, əsas istehsal mərkəzinin Asiyaya keçməsi şəraitində Almaniya sənayesinin müqəddəratı

bu inqilabın reallaşma səviyyəsindən asılı olacaq. "4.0 sənayesi" özündə nəyi ehtiva edir? Kiberfiziki sistemlərin (CPS-lərin) zavodlarla çulğalaşmasını. Qısa şəkildə bu prosesi belə izah etmək olar: istehsal gücləri istehsal olunan məhsulla əlaqəli şəkildə istehlakçıların arzu və tələbatlarından hər zaman xəbərdar olacaqlar. Bu proses həyatımıza sürətlə daxil olan "məhsullar interneti"nin tərkib hissəsidir. Məsələn, "Tesla" avtomobilləri smatrfon və internet vasitəsi ilə istehlakçının sevdiyi marşrutları, onun təqvimi və hətta adətlərindən xəbərdar olub, bunları həyatda tətbiq etmək funksiyasına malikdir.

Hazırda tək Almaniya deyil, Qərbin digər aparıcı dövlətləri də "4.0 sənayesi" yolu ilə addımlamağa başlayıblar. Bu prosesin dünya iqtisadiyyatı üçün çox mühüm 2 nəticəsi olacaq:

1. Məşğulluğun strukturu prinsipial şəkildə dəyişikliyə uğrayacaq. Yeni sənaye inqilabı rəqəmsal qurğulara imkan verəcək ki, insansız istehsal prosesinə müdaxilə edə bilsinlər. Bu, bütün dünyada, o cümlədən Azərbaycanda yüz minlərcə mütəxəssisin işsiz qalması deməkdir;

2. "4.0 sənayesi" dünya iqtisadiyyatında dövlətlərin rolu və mövqeyinə bir daha nəzər salınmasına səbəb olacaq. Bu halda bizim yerimiz və rolumuz nədən ibarətdir? Güman ki, bu, qarşımızda duran ən vacib məsələlərdən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev elmdə və texnologiyada baş verən yeniliklərin milli iqtisadiyyatımızda tətbiqi ilə innovativ istehsal sahələrinə start verilməsi prosesinə ciddi önəm verir. Hər il Davos İqtisadi Forumunda dövlət başçısının görüşdüyü nüfuzlu şirkət rəhbərlərinin arasında rəqəmsal və qabaqcıl texnologiyalarla məşğul olan transmilli qurumların rəhbərləri olur. Bu dairələrin Azərbaycana və iqtisadiyyatımıza maraqları pandemiya dövründə də azalmayıb ki, artıb. Belə mürəkkəb bir zamanda Prezident CİSCO (SİSKO), "Signify" ("Siqnifay") və "Microsoft" ("Maykrosoft") şirkətlərinin rəhbər heyətləri ilə görüşlər keçirib. Bu şirkətlər, şübhəsiz ki, yeni inqilabın əsas simalarından olacaqlar. Bu maraq onu göstərir ki, birincisi, Azərbaycan "4.0 sənayesi"nə hazırlıq prosesinə start verib, ikinci isə bu inqilabın aparıcı aktorları bizim bu keçid üçün potensiala malik olduğumuzu görür və prosesin iştirakçısı olmaq istəyirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev elmdə və texnologiyada baş verən yeniliklərin milli iqtisadiyyatımızda tətbiqi ilə innovativ istehsal sahələrinə start verilməsi prosesinə ciddi önəm verir.

Təbii ki, yeni inqilabi mərhələ tam fərqli inkişaf strategiyasının hazırlanmasını tələb edir. Məsələn, Prezidentin fərmanı ilə yaradılmış İqtisadi Şuranın qarşısında iqtisadiyyatımızın müasir çağırışlardan irəli gələrək qarşıdakı illər üçün, özü də kifayət qədər həssaslaşan, siyasi, iqtisadi və hətta tibbi təlatümlərə dözümsüzləşən həm dünya, həm də milli iqtisadiyyatlar fonunda yeni strategiyanın hazırlanması vəzifəsi durur. Bu strategiya təkcə dövlət büdcəsinə daha çox gəlirlərin gəlməsini təmin etməməli, həm də dövrümüzün qabaqcıl və innovativ dəyişikliklərini proqnozlaşdırıb, yeni iqtisadi inqilabın tələblərinə cavab verməlidir.

Söhbət hansı iqtisadi sahələrdən gedir?

- süni intellekt və robot texnologiyası;
- məhsullar interneti;
- pilotsuz nəqliyyat sferası;
- nanotexnologiyalar və s.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu yeniliklər iqtisadiyyatın ən müxtəlif sahələrində - sənaye-

dən tutmuş kənd təsərrüfatına qədər tətbiq olunacaq və biz də bu prosesdən geri qalmamalıyıq. Dövlətimizin iri kapital yatırımı tələb edən bu prosesi maliyyələşdirmək üçün imkanları var. Eyni zamanda, Azərbaycanın ödəmə qabiliyyətindən irəli gələrək beynəlxalq maliyyə institutları və iri korporasiyalar da ölkəmizdə bu sferaların inkişafında maraqlı ola bilərlər. Ancaq fikrimcə, biz daha bir mühüm məqamı unutmamalıyıq: kadrların hazırlanması və kadr bankı. Bunun üçün göstərilən amilləri nəzərə almaq əlahiddə önəmlidir:

Mühəndislik və sənaye dizaynı sahələrində kadr hazırlığına diqqət yetirməliyik. Müasir texnologiyalarla təmin olunmuş ali məktəb texnoparklarının yaradılmasına nail olmalıyıq. Ölkədə mühəndislik məktəbinin yüksək səviyyəsi bizim yeni mərhələ sənaye inqilabına keçidimizin başlıca şərtidir.

- xüsusi proqramlar vasitəsi ilə gəncləri və uşaqları baş verən yeni sənaye inqilabının tələblərinə hazırlamaq lazımdır. Avropada belə proqramlar artıq uşaq bağçalarında da tətbiq olunmağa başlanılıb. Bu proqramlar övladlarımızda texniki sahibkarlıq və yaradıcılıq bacarıqlarını inkişaf etdirməlidir;

- orta və ali məktəblərdə texniki elmlərə və riyaziyyata xüsusi önəm verilməlidir;

- mühəndislik və sənaye dizaynı sahələrində kadr hazırlığına diqqət yetirməliyik. Müasir texnologiyalarla təmin olunmuş ali məktəb texnoparklarının yaradılmasına nail olmalıyıq. Ölkədə mühəndislik məktəbinin yüksək səviyyəsi bizim yeni mərhələ sənaye inqilabına keçidimizin başlıca şərtidir.

Azərbaycan tək regionumuzun deyil, daha geniş coğrafiyanın iqtisadi lideridir. Pandemiya dövründə qonşu dövlətlərdən fərqli olaraq minimum iqtisadi itkilərlə çıxan ölkəmizin texnoloji liderlik istiqamətində ciddi perspektivləri var. "4.0 sənayesi"nə hazırlıq bu liderliyimizi şərtləndirən əsas faktor olacaq.

Peşə təhsilinin inkişaf etdirilməsi XXI əsrin çağırışı və milli vəzifədir

Fatma Yıldırım
Milli Məclisin deputatı

Hər bir ölkənin tərəqqisini şərtləndirən mühüm amillərdən biri onun təhsilinin inkişafıdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər saldıqda görürük ki, təhsil sahəsində sistemli və kompleks xarakterli tədbirlərin həyata keçirilməsi ümumi inkişafa xidmət edir, qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir. Bu baxımdan təhsil sahəsində Azərbaycanın təcrübəsi də nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyevin "neft kapitalının insan kapitalına çevrilməsi" tezisi əsasında görülən genişmiqyaslı işlər ölkədə təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun inkişafını təmin edir. Ümumiyyətlə, ölkədə həyata keçirilən islahatlar, müasir infrastrukturun yaradılması nəticəsində təhsil sahəsində də yeni keyfiyyət dəyişiklikləri yüksək səviyyədə təmin olunub. Təsadüfi deyil ki, son illər ərzində təhsilin maddi-texniki bazasının əsaslı şəkildə yenilənməsi artıq həll edilib, 3500-dən çox məktəb ya yenidən tikilib və ya əsaslı təmir olunub.

Azərbaycanda təhsil infrastrukturunun yenilənməsi bilavasitə dövlət əsaslı vəsait qoyuluşu hesabına həyata keçirilir. Ölkəmizin iqtisadi potensialının, maliyyə imkanlarının artmasına adekvat olaraq, təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən vəsaitlərin həcmi də getdikcə artırılır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, respublikamızda təhsil infrastrukturunun yenilənməsi çətin pandemiya şəraitində də diqqət mərkəzində saxlanılır. Dövlət başçımız son vaxtlarda bir çox rayonlarda ümumtəhsil məktəblərinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncamlar imzalayıb. Bu istiqamətdə regionlarda intensiv iş aparılır.

Ölkəmizdə təhsil infrastrukturunun yenilənməsindən söhbət açarkən bu sahədə Heydər Əliyev Fondunun rolunu xüsusi vurğulamaq lazımdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi reallaşdırılır. İndiyədək bu layihə üzrə ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı müasir standartlara cavab verən 400-dək məktəb binası inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub. Eyni zamanda, peşə təhsili və ali təhsil müəssisələrinin yeni dövrün tələblərinə uyğun modernləşdirilməsinə xüsusi diqqət və qayğı göstərilir.

> **Ölkəmizin iqtisadi potensialının, maliyyə imkanlarının artmasına adekvat olaraq, təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən vəsaitlərin həcmi də getdikcə artırılır.**

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın cari ildə bir sıra yeni tikilən təhsil müəssisələrində yaradılan şəraitlə tanış olmaları da ölkəmizdə təhsilin inkişafına yüksək diqqət və qayğı göstərildiyinin bariz nümunəsidir. Bu sırada dövlətimizin başçısının və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ADA

Universitetinin iki yeni korpusunun açılışını, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusunun və Sumqayıt Kimya Sənaye Parkı nəzdində Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsini qeyd edə bilərik.

Bu fonda XXI əsrin çağırışları və yeni trendlərinə müvafiq olaraq təhsil sahəsində islahatlar çərçivəsində peşə təhsilinin müasirləşdirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Bir müddət öncə Azərbaycanda peşə təhsilinin inkişafı üçün yeni dövlət agentliyi təsis edilib. Dövlət peşə təhsili müəssisələrinin büdcədənkənar gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasının təmin edilməsi və peşə təhsilinin inkişafında maliyyələşmə mexanizmi rolunu oynamasının həyata keçirilməsi məqsədi ilə Peşə Təhsilinin İnkişafı Fondu yaradılıb, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktlar hazırlanıb. Peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması qarşıya qoyulan mühüm vəzifələrdəndir.

Bu baxımdan Təhsil Nazirliyinin Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı ilə birlikdə Azərbaycanda peşə təhsili və təlimi sistemində keyfiyyətli kadr hazırlığına dəstək verilməsi və bu təhsil pilləsinin nüfuzunun artırılması məqsədi ilə yeni layihəyə başlaması təqdirəlayiqdir. Layihənin məqsədi müəyyən edilmiş pe-

şə təhsili mərkəzlərində innovativ layihələrin tətbiqi ilə infrastruktur və avadanlıqların müasirləşdirilərək, Azərbaycanda belə müəssisələrin potensialını yüksəltməkdir. Qeyd olunan mərkəzlərdə təhsil alan 5 mindən çox tələbə bu təşəbbüsdən faydalana biləcəkdir.

Ümumiyyətlə, peşə təhsilinin inkişafı həm də müxtəlif sahələrdə kadr təminatı siyasətinin uğurla həyata keçirilməsinə imkan verir. Azərbaycanda kənd təsərrüfatı, sənaye, habelə yüksək texniki bilik tələb edən bir sıra sahələrdə kadr potensialına ciddi ehtiyac var. Bu ehtiyacı qarşılamaq üçün peşə təhsilinin inkişafı vacibdir.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə bu reallıq özünü əks etdirir. Bir sıra Avropa ölkələrinə nəzər saldıqda görürük ki, orta məktəbdə şagirdlər artıq müəyyən yaşdan sonra peşə ixtisası üzrə maarifləndirilir və istədiyi halda şagirdlər bu istiqaməti seçə bilir. O ölkələrdə peşə təhsili alanlar da ali təhsil almış şəxslər qədər əmək bazarında yüksək qiymətləndirilirlər. Bu isə cəmiyyətdə "hər kəs ali təhsil almalıdır" stereotipinin qırılmasında mühüm rol oynayır. Eyni zamanda, əmək bazarında fəallıq və canlanmanı, məşğulluq səviyyəsinin və sosial rifahın artmasını şərtləndirir.

Peşə təhsili həm də xüsusi peşəkarlıq səriştəsinə malik olmaq deməkdir. Cəmiyyətimizdə mövcud mənzərəyə nəzər saldıqda görürük ki, zavodlarda, fabriklərdə, tikinti sahələrində çalışan işçilər yetərli bilgiyə və lazımi peşəkarlığa malik olmadıqda insan sağlamlığına və təhlükəsizliyinə təhdidlər yaradan ciddi fəsadlar ortaya çıxa bilir. Çünki müxtəlif peşələrə sahib olan insanlar müvafiq xüsusi peşə biliklərinə yiyələnmədən əmək fəaliyyətlərinə başlayırlar. Ona görə də ölkəmizdə belə müasir standartlara cavab verən peşə məktəblərinin açılması gənclərimizin peşə ixtisaslarına marağını artıracaq və çalışdıqları dövrdə işlərinin effektivliyini yüksəldəcəkdir.

Peşə təhsilinə marağı artırmaq məqsədi ilə həm də yeni innovativ vasitələrdən, mütərəqqi modellərdən istifadə etmək lazımdır. Burada ilk növbədə iki istiqamət fərqləndirilməlidir: birincisi, müasir trendlərə uyğun və yaxud zamanın tələb etdiyi peşələri müəyyənləşdirmək, onları inkişaf etdirmək, ikincisi isə peşə təhsilini stimullaşdırmaqdır. Ölkəmizdə bu istiqamətdə müvafiq addımların atılması bu sahədə dinamizmin təmin olunmasına xidmət edəcək.

Ölkəmizdə belə müasir standartlara cavab verən peşə məktəblərinin açılması gənclərimizin peşə ixtisaslarına marağını artıracaq və çalışdıqları dövrdə işlərinin effektivliyini yüksəldəcəkdir.



Yeri gəlmişkən, millət vəkili olaraq təmsil etdiyim Bərdə rayonunda da müasir dövrün tələblərinə cavab verən, bütün istiqamətləri əhatə edən, yüksək tədris potensialına malik olan yeni bir peşə məktəbi inşa olunmaqdadır. Əminəm ki, bu məktəbin açılışından sonra Bərdə və ətraf rayonlardan regionun tələblərinə uyğun hər bir sahə üzrə gənc, peşəkar mütəxəssislər yetişdiriləcək. Bu, eyni zamanda, bölgələrin sosial-iqtisadi inkişafına mühüm töhfə kimi olduqca böyük önəm kəsb edəcək.

Bütövlükdə, peşə təhsilinin inkişafı XXI əsrin çağırışı və milli vəzifə kimi qarşımızda durur. Bu sahədə ardıcıl və məqsədyönlü tədbirlərin davam etdirilməsi üçüncü minillikdə dayanıqlı inkişafa xidmət edən strateji amil olacaq.

Məhkəmə-hüquq islahatları:

dövlətin əsas hədəfi humanizm və insan hüquqlarının müdafiəsidir

Əminə Ağazadə
Milli Məclisin deputatı

Daimi mütərəqqi islahatların aparılması hər bir hüquqi dövlətin əsas atributlarından biridir. Çünki məhz islahatlar sayəsində inkişaf və tərəqqi mümkündür. Azərbaycan Respublikası bu baxımdan nəinki inkişaf etmiş dövlətlərdən geri qalır, hətta mübaliğəsiz demək olar ki, bəzi hallarda öz çevikliyinə və dinamikasına görə onlardan irəlidədir.

Əgər əvvəllər biz müstəqilliyimizi yenicə əldə etmiş bir dövlət kimi bir çox sahələrdə inkişaf etmiş dövlətlərin təcrübəsindən faydalanırdıqsa, bu gün vəziyyət başqadır. "ASAN", "DOST", "ABAD" kimi qurumlar artıq Böyük Britaniya və bir sıra digər inkişaf etmiş ölkələrdə Azərbaycan brendi kimi tanınır və bu təcrübədən istifadə edilir.

Bu gün ölkəmizdə islahatlar sosial, iqtisadi, hüquqi, struktur və kadr islahatları da daxil olmaqla, demək olar ki, bütün sahələri əhatə edir və biz hər gün onların müsbət nəticələrini görürük. Bu islahatlar sırasında hüquq islahatları xüsusilə önəmlidir. Çünki bilavasitə vətəndaşın hüquqlarının qorunmasında onların müstəsna əhəmiyyəti vardır.

Qeyd edək ki, Azərbaycanda hüquq islahatları daimi xarakterli olub və zamanla mövcud qanunvericilik aktları həm Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq qanunvericilik aktlarına, həm də müasir ictimai münasibətlərə uyğunlaşdırılır.

Bu illər ərzində demək olar ki, Azərbaycan Respublikasının bütün məcəllələri yenidən hazırlanıb, yeni ictimai münasibətləri tənzimləyən yüzlərlə normativ akt qəbul edilib.

Hüquq islahatlarının ən əhəmiyyətli hissəsi isə birmənalı şəkildə məhkəmə-hüquq islahatlarıdır. Belə ki, məhz məhkəmələr vətəndaşların öz aralarında, eyni zamanda, onların dövlətlə olan münasibətlərinin tənzimlənməsində əsas dövlət təsisatıdır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin anonsunu verdiyi məhkəmə-hüquq islahatları dövlət başçısının 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Sərəncamı ilə rəsmi müstəviyə keçid aldı.

Cənab Prezidentin özünün də dəfələrlə dediyi kimi, Azərbaycan Respublikasının rəhbərliyinin əsas siyasəti humanizm, vətəndaşların sağlamlığının, hüquq və azadlıqlarının qorunmasına yönəlmişdir. Bu baxımdan məhkəmələrin fəaliyyətinin kadrlar, təşkilati və struktur baxımından yenilənməsi, normativ hüquqi bazasının təkmilləşdirilməsi olduqca vacibdir.

Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə onlarla yeni, müasir tələblərə cavab verən məhkəmə binası istifadəyə verilmiş, həbsdə olan və ya azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslərin hüquqlarının qorunması məqsədi ilə yüksək səviyyədə saxlanma şəraiti olan istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri inşa edilmişdir. Bu günədək dövlət başçısının imzaladığı əfv sərəncamlarına əsasən 4871 nəfər əfv olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları 40412 nəfər şəxsə şamil olunmuş, onlardan 8580 nəfər azadlıqdan məhrum etmə yerindən azad olunmuşdur.

Eyni zamanda, xüsusi qeyd edilməlidir ki, dövlət başçısı İlham

“Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk”

İlham Əliyev

Əliyevin həyata keçirdiyi siyasətin təzahürü kimi məhkumları cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi diqqətdə saxlanılaraq mart ayının 26-da 200-dən çox məhkum cəzalarının çəkilməmiş hissəsindən azad edilərək həbsdən buraxılmış, həmçinin 2020-ci il aprel ayının 6-da karantin rejimində yaşı 65-dən yuxarı daha 176 məhbusun azad olunması barədə əfv sərəncamı imzalanmışdır.

Qeyd olunanlardan da göründüyü kimi, bu gün Azərbaycan dövlətinin siyasətində əsas prioritet humanizm və insan hüquqlarının müdafiəsidir. Həmçinin qeyd edilməlidir ki, bu siyasət formal yox, real xarakter daşıyır. Əsas diqqətəlayiq məqamlardan biri isə bu siyasət və islahatların davamlı, ardıcıl, mərhələli şəkildə uğurla davam etdirilməsidir.

Məhkəmələrin fəaliyyətinin daha da şəffaflaşdırılması, işlərin aşkarlıq, hüquq bərabərliyi və yüksək keyfiyyətlə baxılmasının təmin olunması məqsədi ilə müasir innovasiyalardan istifadə edilməsi, o cümlədən elektron məhkəmə sisteminin yaradılaraq proses iştirakçılarının ixtiyarına verilməsi də məhkəmə-hüquq islahatlarının müsbət mənada ən fərqləndirici cəhətlərindən biridir.

Bu islahatlar zamanı VI çağırış Azərbaycan Respublikasının Milli Məclisi də öz üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Yeni tərkibdəki parlament müasir çağırışlara cavab verərək məhkəmə-hüquq islahatlarının sürətinə uyğun şəkildə bu islahatların ən mühüm elementi olan normativ hüquqi bazanın genişləndirilməsi, qanunvericilik aktlarına əlavə və dəyişikliklərin, həmçinin yeni qanunların operativ şəkildə və tam müzakirəsi aparılaraq qəbul edilməsi üçün bütün gücü ilə çalışır.

Sonuncu dəfə həm Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə, həm də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilən dəyişikliklər məhkəmə-hüquq islahatlarının daha da uğurla həyata keçirilməsində müstəsna əhəmiyyətə malikdir.

Qeyd edək ki, 25 iyun 2020-ci il tarixli qanunla Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə edilmiş dəyişikliklər bütövlükdə cinayət mühakimə icraatında innovativ üsullardan istifadə etməklə obyektivliyin və effektivliyin yüksəldilməsi, habelə məhkəməyə müraciət imkanlarının genişləndirilməsi məqsədi ilə həyata keçirilmişdir.

Belə ki, cinayət mühakimə icraatı qaydasında aparılan işlərin təhlili və həmin qəbildən olan işlər üzrə edilmiş şikayətlərin təhlilləri göstərirdi ki, vətəndaşların əsas narazı qaldıqları hallar məhkəmə prosesləri zamanı tərtib edilmiş

protokolların reallıqla üst-üstə düşməməsi, təhrif edilməsi ilə və ya cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda cinayət təqibinə məhkəmənin hazırlıq iclasında xitam verilə bilməsi imkanlarının cinayət prosesində məhdud olması ilə bağlıdır.

Eyni zamanda, bütün dünyanı öz cənginə almış COVID-19 pandemiyası ilə bağlı ölkədə elan olunmuş karantin zamanı məhkəmə proseslərinin daha təhlükəsiz

və elektron məhkəmənin verdiyi imkanlardan istifadə etməklə videokonfrans vasitəsi ilə aparılması zəruri hala çevrildi. Lakin bunun üçün normativ bazaya ehtiyac var idi və həmçinin cinayət mühakimə icraatı zamanı kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin həddindən artıq uzun olması sürüdürməçiliyə və məhkəmə proseslərinin həddindən artıq uzanmasına da gətirib çıxarırdı.

Buna görə də Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə 25 iyun 2020-ci il tarixli qanunla edilmiş son dəyişikliklərlə cinayət mühakimə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılması qaydası, cinayət prosesi iştirakçılarının məhkəmə iclasına və istintaq orqanına gəlmədən videokonfrans vasitəsi ilə prosesdə iştirakı, məhkəmə iclaslarının fasiləsiz audio yazısının aparılması, məhkəmə icraatı uzadılmadan hazırlıq iclasında cinayət təqibinə xitam verilməsi imkanlarının genişləndirilməsi, kassasiya protesti və kassasiya şikayəti verilməsi müddətlərinin azaldılması, habelə onların verilməsi və baxılması qaydasının təkmilləşdirilməsi, iqtisadi sahədə olan cinayətlərə görə zərərçəkmiş şəxslə barışma, ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi şərti ilə cəzadan azad etmə qaydası, xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraatın nizamlanması qaydaları müəyyən edilmişdir.

Bu dəyişikliklər çox vacib və aktual olmaqla həm günün tələblərinə cavab verir, həm də sadalanan problemləri həll edir ki, bu da məhkəmə baxışının keyfiyyətinin artırılmasına xidmət edəcəkdir.

Bununla yanaşı dövlət başçısının dekriminallaşdırma və cəza siyasətinin humanistləşdirilməsi siyasətinin davamı olaraq 2020-ci il mayın 1-də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən 35 cinayət əməli dekriminallaşdırılmış, 3 cinayət əməlinə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 30 cinayət əməlinə görə sanksiyalara azadlıqdan məhrum etməyə alternativ cəzalar (cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması) daxil edilmiş, 60 cinayətə görə cərimə və ya azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, məhkumluğun götürülməsi ilə bağlı mövcud olan hüquqi boşluq da aradan qaldırılmış, həmçinin törədilmiş cinayət əməli ilə vurulmuş ziyanın hər bir şəxsin cinayətdə iştirakının faktiki xarakterindən asılı olaraq ödənilməsinin təmin edilməsi institutu yaradılmış, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınmasının 3 növündən ən ağırı olan cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərilməsi müddəası ilə ləğv edilmiş, azadlığın məhdudlaşdırılmasının daha liberal cəza növləri ilə əvəz edilməsi imkanları, eyni zamanda, alternativ cərimə növü müəyyən olunmuşdur.

Dəyişikliklər çox vacib və aktual olmaqla həm günün tələblərinə cavab verir, həm də sadalanan problemləri həll edir ki, bu da məhkəmə baxışının keyfiyyətinin artırılmasına xidmət edəcəkdir.

Əsas odur ki, Azərbaycan xalqı bu islahatları müsbət qarşılayır. Çünki onlar Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, hüquqlarının daha etibarlı müdafiəsini təmin etmək məqsədi daşıyır. Əminəm ki, bu islahatlar pozitiv istiqamətdə inkişaf edəcək və ölkəmizin vətəndaşlarına öz müsbət töhfəsini verəcəkdir.

Nigar Arpadarai:

“Mən hər zaman yeni çağırışlar axtarışında olmuşam”

“Milli Məclis” analitik informasiya jurnalının millət vəkili **Nigar Arpadarai** ilə müsahibəsi

- Nigar xanım, siyasi fəaliyyətə başlamazdan öncə siz bir sıra vəzifələrdə çalışmısınız. İctimaiyyət sizi daha çox Formula 1 yarışlarının piar-meneceri kimi tanıyır. Millət vəkili olaraq bu populyarlığı saxlaya bilirsinizmi?

- Mənə bu sual veriləndə ilk öncə “tanınma” anlayışının müəyyənləşdirilməsindən başlayıram. Tanınmaq deyəndə nəyi başa düşürük? Mən, ilk növbədə, Səbail rayonunu təmsil etdiyim üçün Səbail sakinləri tərəfindən tanınmağımın önəmli olduğunu hesab edirəm, çünki millət vəkili öz seçiciləri ilə daim sıx əlaqədə olmalıdır.

Digər tərəfdən, ölkə miqyasında tanınmaq məsələsidir ki, bu işdə fəaliyyət istiqamətlərimi, təşviq və həll etmək istədiyim mövzuları seçmişəm və məhz bu mövzular üzrə tanınmağımı düzgün hesab edirəm. Mənim üçün bu, qadınların məşğulluğu, təhsil, əhalinin həssas qruplarının sosial müdafiəsi kimi məsələlərdir. Millət vəkilliyi isə mənim üçün məşhurluq yeri deyil, iş görmək yeridir. Tanınmaq isə məqsəd deyil, məsələlərin həlli üçün “alət” ola bilər. Hesab edirəm ki, millət vəkili insanların həyatına müsbət təsir edəcək qanunvericilik təşəbbüsləri ilə və eyni zamanda, bu istiqamətdə xüsusi layihələr təqdim etməklə tanınmalıdır.

Qeyd etməliyəm ki, həyatımın çox hissəsini Bakının mərkəzində yaşayıb, işləmişəm, ona görə Səbail rayonu mənə doğmadır. Burada kifayət qədər çox adam tanıyıram. Formula 1 Azərbaycan Qran Prisində çalışdığım zaman ünsiyyətdə olduğum və məni tanıyanların sayı daha da çoxaldı. İndi də artıq deputat kimi, səbaillilərin məni tanımaları üçün, seçicilərimlə şəxsi tanışlığımın olması üçün əlimdən gələni edirəm, mütəmadi olaraq onlayn və üz-üzə görüşlər təşkil edirəm, məhəllələri gəzərək insanların problemlərinin həllində yardımçı olmağa çalışıram.

> 18 illik iş təcrübəm var, beynəlxalq təşkilatlarda, korporativ sahədə çalışmışam və harada işləməyimdən asılı olmayaraq, işimə, çalışdığım şirkətə hər zaman bağlı olmuşam.

- Ümumiyyətlə, siyasətə gəlmək fikri sizdə haradan yarandı?

- Mən hər zaman yeni çağırışlar axtarışında olmuşam. 18 illik iş təcrübəm var, beynəlxalq təşkilatlarda, korporativ sahədə çalışmışam və harada işləməyimdən asılı olmayaraq, işimə, çalışdığım şirkətə hər zaman bağlı olmuşam. Gənc yaşlarımda kifayət qədər aktiv gənc olaraq bir neçə qeyri-hökumət təşkilatlarının işinə töhfəmi vermişəm. Sonradan biznes sahəsinə, korporativ dünyaya addımlamışam və orada uğur qazanmağı bacarmışam.

Ötən il Milli Məclisin yenidən formalaşmasına dair məlumatı eşidəndə bu xəbər diqqətimi çəkdi və gənclik illərimdə məni maraqlandıran sahəyə üz tutmaq həvəsim yarandı. Dövlət başçısının apardığı islahatlar prosesinə kiçik töhfəmi vermək istədim.

Siyasətə gəlişimlə bağlı onu deyə bilərəm ki, siyasət çox geniş

və mürəkkəb bir anlayışdır. Onu mərhələlərə, istiqamətlərə, sahələrə bölmək olar. Mən bu anlayış çərçivəsində özümü harada görürəm, bu istiqamətləri qısa qeyd edim:

İlk növbədə, icma siyasəti. Yəni öz seçki dairəm, doğma məkanım olan Bakının mərkəzini təmsil etməklə yanaşı, icmadaxili məsələlərin həlli üçün burada yaşayan sakinlərə dəstək olmaq istəyirəm. Onların səsi, təmsilçisi olmaq, paytaxtımız Bakının daha çox inkişafına töhfəmi verərək, onun yaşayış üçün daha da rahat olmağı naminə çalışmaq niyyətindəyəm.

İkinci istiqamət, təhsil və sosial siyasətdir. Bu, ölkəmizdə olan həssas qrupların müdafiəsi sisteminin həm qanunvericilikdə, həm də praktikada işləməsi ilə bağlıdır.

Digər istiqamət beynəlxalq siyasətdir: ölkəmizin beynəlxalq aləmdə yeri. Burada ən önəmlisi, Qarabağ münaqişəsinin həlli məsələsidir ki, işğal olunmuş Qarabağın və ətraf rayonların qaytarılması işinə deputat olaraq töhfə vermək istəyirəm.

Partiya siyasətinə gəlincə isə mənim partiya mənsubiyyətim yoxdur və ümumilikdə desəm, partiya işi, partiya siyasəti mənim üçün prioritet sahə deyil.

- Bir millət vəkili kimi bu gün cəmiyyətimizdə sizi ən çox narahat edən məsələlər hansılardır?

- Mən bir millət vəkili kimi məsələlərə əsasən üç fərqli sferadan baxmağa çalışıram. İlk olaraq məni ən çox narahat edən əsas məsələ Səbail rayonundan olan seçicilərimin üzləşdiyi problemlərdir. Həm seçki ərəfəsində, həm də seçkidən sonra onların arasında keçirdiyimiz sorğuların nəticələrinə əsasən deyə bilərəm ki, seçicilərimi ən çox narahat edən məsələlər şəhər infrastrukturunun yaxşılaşdırılması, təhsilin keyfiyyətinin artırılması və yeni iş imkanlarının yaradılmasıdır. Bu istiqamətlərlə bağlı mütəmadi olaraq iş aparırıq.

İkinci planda, ölkə miqyasında həlli zəruri olan məsələlərə diqqətimi yönəltmişəm. Xüsusən əhalinin həssas qruplarının sosial müdafiəsinin yaxşılaşdırılması yönündə layihələrlə çıxış etməyə çalışıram.

- Bu gün cəmiyyətin və dövlətin deputatların fəaliyyətindən gözləntiləri böyükdür. Bu məsuliyyəti reallaşdırmaq yüksək bacarıq, kifayət qədər güc və zaman tələb edir. Bu işin öhdəsindən necə gəlirsiniz?

- Gəlin əvvəlcə anlayışdan başlayaq, bu gözləntilərin nələr olduğunu müəyyənləşdirək. Sizə bu gözləntiləri mən necə gördüyümü deyəcəyəm. Çünki hər bir millət vəkilinin bu məsələyə baxışı fərqli ola bilər və bu da çox normaldır.

Hesab edirəm ki, indiki məqamda biz bir dövlət, bir xalq olaraq hələ güclü parlament ənənəsini qurmamışıq, bu yolda irəliləyirik. Elə ölkələr var ki, onların parlament ənənələri yüzillərlə ölçülür. Bizdə isə ilk parlament XX əsrin əvvəlində çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdi və qısaömürlü oldu. Həmin parlamentdə bir çox məsələ ortaya

qoyuldu, lakin, təəssüf ki, əksəriyyəti o zaman həyata keçə bilmədi.

Yeni müstəqil dövlətimiz artıq 30 illik ənənəyə malikdir. Bu, o deməkdir ki, həyat kateqoriyaları ilə düşünsək, ikinci nəsil parlamentini görürük. Birinci nəsil parlamentimizin nailiyyətləri, bacardığı və bacarmadığı hədəfləri var idi. Biz indi ikinci parlament nəslinin aparıcıları olaraq, onun necə olacağını düşünməliyik. Hər birimiz nəyi geridə qoyacağımızı, nəyi ərsəyə gətirəcəyimizi və yeni nəsil parlamentində hansı xüsusiyyətlər yaradacağımızı düşünərək, üzərimizdə olan məsuliyyəti dərk etməliyik. Bu gözlənti bütün millət vəkillərinə aiddir. Bu işdə həmkarlarım bir olmalıdırlar, həm təcrübəli deputatlar, həm də yeni deputatlar birgə işləməliyik ki, güclü parlament ənənəsi yarada bilək.

Mən özüm haqda danışsam, artıq qeyd etdiyim kimi, töhfə vermək istədiyim və fayda gətirə biləcəyim sahələrdən biri kimi, məhz beynəlxalq münasibətlər sahəsini önə çəkərdim. Fəaliyyətimi də bu istiqamətdə cəmləmək niyyətindəyəm. Çünki indiyədək bir sıra beynəlxalq qurum və təşkilatlarda, o cümlədən Avropa Komissiyasının nümayəndəliyində, həmçinin qlobal brendlərdə çalışmışam. Korporativ sahədə qazandığım təcrübəni indiki fəaliyyətimə tətbiq etmək istəyirəm, xüsusən də bizim üçün ən önəmli olan Qarabağ məsələsində. Korporativ yanaşmada səmərəlilik, effektivlik əsas məsələdir ki, indiki fəaliyyətimdə onun faydası olacağına əminəm.

Bir məqama da toxunum. Uğurlu fəaliyyətin əsas elementlərindən biri də fikrin bir yerə cəmlənməsidir, bir istiqamətin seçilməsi və o istiqamət üzrə çalışmaqdır. Mən mərhələli yanaşmanın tərəfdarıyam - problemi müəyyən etmək, məlumat toplamaq, problemin həlli üçün çalışmaq və bu prosesdə qazandığım təcrübəni qanunvericilik təşəbbüsünə çevirmək kimi mərhələlərdən keçməyi özüm üçün bir yol kimi seçirəm. Bir yandan problemin həllini görmək, digər yandan bu həllin qanunvericilikdə yer almasına şahid olmağı ən böyük uğur kimi qiymətləndirirəm.

- Lider qadın dedikdə, ilk olaraq hansı prioritetlər ortaya çıxır? Necə düşünürsünüz, bizim cəmiyyət bu obrazı qəbul etməyə hazırdırmı?

- Qadın liderləri qəbul etməyə hazır olmayan bir cəmiyyət müasir dövrdə çox irəliləyə bilməz. XXI əsr qadınların cəmiyyətdəki rolunun dəyişdiyi bir əsrdir. Bu, artıq yeni bir reallıqdır. Bizim cəmiyyətdə hələ də qadın-kişi bərabərliyi ilə bağlı problemimiz olsa da, biz bu istiqamətdə də irəliləyirik. Məsələn, ölkəmizin Birinci vitse-prezidenti və Milli Məclisin Sədri qadındır.

Digər tərəfdən, mənim üçün lider qadın kişi geyiminə bürünən və özünü kişi kimi aparan birisi deyil. Həmçinin kişilərlə qarşıdurmaya gedən xanımları da dəstəkləmirəm. Bu işin nə mənası, nə də faydası var. Mənə görə qadın "yumşaq güc" daşıyıcısıdır. Cəmiyyətimiz inkişaf etdikcə, sərt kişi gücünə (məsələn, hərbi) ehtiyac azalacaq, "yumşaq güc"ün təmsilcisi olan qadınlara isə geniş imkanlar açılacaqdır.

Mənim üçün lider qadın kişi geyiminə bürünən və özünü kişi kimi aparan birisi deyil. Həmçinin kişilərlə qarşıdurmaya gedən xanımları da dəstəkləmirəm. Bu işin nə mənası, nə də faydası var. Mənə görə qadın "yumşaq güc" daşıyıcısıdır.

Məndən soruşsanız ki, qanunda qadın və kişi arasında bərabərlik varmı? Qanunda olsa da, real həyatda hələ də yoxdur. Ona görə də biz müvafiq mexanizmləri tətbiq edərək mövcud əksikliyi düzgün qayda və qanunlarla tamamlamalıyıq. Yeni mexanizmlərdə biz qanunda qadınlarla kişilər arasında olan fərqliliyi tezliklə aradan qaldırmalıyıq. Düzdür, bu proses illər çəkəcək, ancaq ən azından biz indiki məqamda bunu sürətləndirə bilərik.

Onu da xüsusi qeyd etmək istərdim ki, cəmiyyətdə qadının liderliyi konstruktiv fəaliyyətlə olmalıdır, mübahisələr, davalar və ya qışqırıqlarla dolu feminist mitinqlər ilə yox. Mən bu yanaşmanın tərəfdarıyam və gənc qızlarımıza bu yolla nümunə olmaq istəyirəm. Ona görə də hər zaman gənclərimiz, tələbələrimiz ilə görüşə böyük həvəslə gedirəm və onları bu yanaşmamla ruhlandırmağa çalışıram.

- Hazırda COVID-19 pandemiyası ilə əlaqədar cəmiyyətdə bir

sıra sosial məsələlər ortaya çıxır. Bu məsələlərin həllində millət vəkili kimi üzləşdiyiniz çətinliklər hansılardır?

- Koronavirus pandemiyası dünyanın düzənini, insanların həyat tərzini dəyişdi, cəmi dövlətlərdə bütün sahələrə - iqtisadiyyat, səhiyyə, təhsil və s. çox ciddi təsir etdi. Ən çətini isə odur ki, gözlənilməz olaraq başladı və nə zaman bitəcəyi indi də bəlli deyil. Hamımız ümidli idik ki, bu xəstəliyi qısa müddətdə aradan qaldıra biləcəyik, lakin belə olmadı.

Pandemiya ilə əlaqədar tətbiq edilən karantin tədbirlərinin ilk günlərindən etibarən əsas diqqətimi xüsusi qayğıya ehtiyac duyan yaşlı və tənha insanlara yönəltdim. Çünki onların həyatları hamıdan çox risk altında idi. Biz də əlimizdən gəldiyi, gücümüzün çatdığı qədər onlara köməklik göstərməyə çalışdıq.

Digər tərəfdən, risk altında olan digər bir qrup insan - həkimlərin həyat sığortasının önəmi mövzusunu, tibb personalımızın və xəstələrlə ünsiyyətdə olan peşə sahiblərinin virusa yoluxma halında maliyyə dəstəyi almalarının vacibliyini gündəmə gətirməyə çalışdım. Bu mövzu ilə bağlı qanunvericilik təklifimi Milli Məclisin müvafiq komitəsinə yönləndirdim, komitə mövzunu icraata götürdü.

Pandemiya uzandıqca, digər narahatlıqlar da artmağa başladı. Bildiyiniz kimi, COVID-19-dan başqa digər xəstəlikdən əziyyət çəkənlər - onkoloji xəstələr, diabetiklər, orqan transplantasiya əməliyyatı keçirmiş insanlar və s. də böyük risklə üzləşmişdilər. Mən indiki məqamda orqan köçürülmüş vətəndaşların dərman ehtiyaclarının operativ şəkildə qarşılanmasına diqqətimi yönəltmişəm. Məlum olduğu kimi, ölkəmizdə orqan transplantasiyası əməliyyatı keçirmiş və xüsusi qayğıya ehtiyac duyan 1000-dən çox vətəndaşımız var. Dövlət dərmanların təminatını öz üzərinə götürüb. Amma onların verilmə proseduruna yenidən baxılmasına ehtiyac var. Bu mövzu ilə bağlı aidiyyatı qurumlara müraciət etmişəm.

Pandemiya zamanı görünməyən problemlərin həlli olduqca əhəmiyyətlidir və onlara da nəzər salmaq, mümkün olduğu qədər qısa müddətdə aradan qaldırmaq lazımdır.

- Nigar xanım, ictimai-siyasi fəaliyyətlə bərabər, təbii ki, şəxsi həyat da önəmlidir. Bu iki zəhmət və vaxt tələb edən sahələri necə uzlaşdırırsınız?

- Həmişə şəxsi həyatla karyera arasında balansı qorumağa çalışmışam. İki övladım var. Hazırda onların təhsilinin düzgün təşkil olunması mənim üçün ən vacib məsələdir. Davam edən pandemiya şəraitində həyata keçirilən onlayn təhsillə əlaqədar olaraq hər bir valideyn kimi mən də evdə övladlarımın dərslərinin səmərəli keçməsi üçün onlara xüsusi diqqət ayırmağa çalışıram. Asan olmasa da, bir ana kimi yeni şəraitə uyğunlaşmalıyam. Çünki valideynlər, müəllimlər, uşaqlar - hər kəs yaranmış vəziyyəti anlayışla qarşılamalıdır.

Digər tərəfdən, yenə pandemiya ilə bağlı olaraq bir millət vəkili kimi fəaliyyətimi bir az da genişləndirmişəm. Çalışıram ki, bu dövrdə mümkün olduğu qədər çox insanın problemi ilə məşğul olum, onlara lazımi dəstəyi göstərim. Bir sözlə, həm ailədə, həm də ictimai-siyasi fəaliyyətimdə iş yüküm çoxalıb. Lakin müəyyən plan üzrə hərəkət edəndə hər birinə geniş vaxt ayırmaq mümkün olur. Günümü, həftəmi planlaşdırmağa öyrənmişəm, hamıya da tövsiyə edirəm.

Ülviyyə Abdullayeva
"Milli Məclis" jurnalının baş redaktoru

Müasir çağırışlara uyğun və əsaslandırılmış su balansı hazırlanmalıdır

Anar Məmmədov
Milli Məclisin deputatı

Son illər ölkəmizdə əkin sahələrinin suvarma suyu ilə təminatının daha da yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı çoxsaylı sərəncamlara əsasən istər paytaxt Bakıda, istərsə də respublikanın regionlarında əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsi üçün irimiqyaslı layihələr həyata keçirilir.

Dövlət səviyyəsində əhalinin su ilə təmin olunmasına və suların çirklənməsinin qarşısının alınmasına xüsusi diqqət yetirilir. Lakin bütün bunlara bahəm çaylarımızın və sularımızın çirkləndirilməsi prosesi davam etməkdədir. Görülən genişmiqyaslı tədbirlərə baxmayaraq, su çatışmazlığı mərkəzi şəhərlərdə hələ də qalmaqdadır. Bu problem özünü yay aylarında daha qabarıq göstərir. Bəzən təmiz su həftələrlə kanalizasiyalara axır və yaxud sahibinin işlətmədiyi irihəcmli su çənlərinə və hovuzlara doldurulur. Əhalinin bir hissəsi isə içmək üçün suya həsrət qalır. Böyük bağ sahibləri həftələrlə içməli su ilə ağac sulayırlar. Belə hallar görülən davamlı işlərə kölgə salır. Bu problemi aradan qaldırmaq üçün bir sıra adekvat tədbirlərin görülməsi artıq günümüzün tələbatıdır.

Ölkədə su mövsümlər üzrə, qeyri-bərabər və əlverişsiz paylandığından su anbarlarının tikintisi həmişə vacib məsələ olmuşdur. Hazırda da bu iş öz əhəmiyyətini itirməmişdir. Yaxşı olardı ki, su anbarlarının tikintisi daha geniş vüsət alsın. Tikilən su anbarlarından isə bir çox məqsədlər üçün istifadə edilməsi daha səmərəli olardı. Bu anbarlardan yalnız suvarma və ya hidroelektrik enerji hasilatı məqsədi ilə yox, bütün sahələrdə suya olan tələbatların ödənilməsi üçün istifadə edilməsi vəziyyəti yaxşılaşdırardı.

Digər bir tərəfdən ağac əkmək, bağ salmaq çox əhəmiyyətli işdir, amma yaxşı olardı ki, bağ-bağçaya verilən su ilə içməli su fərqləndiriləydi. Hətta içməli suya qoyulan qiymət fərqi də israfçılığın qarşısını ala bilər.

Məlum olduğu kimi, Azərbaycanın su ehtiyatlarının çox hissəsi Mingəçevir su anbarında cəmlənib və anbarda suyun səviyyəsi 83 metrə çatanda həcmi 16 kub kilometr olur. Hazırda su anbarındakı suyun səviyyəsi 16 metr aşağı düşüb və cəmi 67 metrdir. Yəni suyun həcmi demək olar ki, yarıya enib.

Azərbaycan əhaliyə nisbətdə içməli su ehtiyatının çox az olduğu ölkələrdəndir və bu su ehtiyatının da 70 faizi ölkədən kənarda formalaşır. Əgər dünyada su böhranı başlasa, biz

Artıq ölkəmizdə su ehtiyatlarının yaradılması üçün bir çox tədbirlər həyata keçirilib: ümumi su tutumu 456 milyon kubmetr olan 4 su anbarı - Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları tikilib, həmçinin Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib. Azərbaycanda içməli su təminatı yüksək faiz dərəcəsi ilə göstərilir, Bakı şəhəri ilə yanaşı, bütün şəhər, rayon və qəsəbələri əhatə edir.



çox ağır vəziyyətə düşəcəyik. Qonşu ölkələr sadəcə olaraq suyun respublikamıza keçməsinin qarşısını alacaq və o suyu özlərinə sərf edəcəklər. Belə olan halda isə vəziyyətdən çıxış yolu kimi bir neçə təklif irəli sürmək olar:

1. Xəzər sahilində su şirinləşdirici zavodlar tikilməli, onların emal etdikləri su yaşıllıqların suvarılmasında, çoxlu su israf edən broyler fakriblərində və digər müəssisələrdə texniki istifadəyə yönəldilməlidir ki, Bakıya gələn təbii şirin su kanalları yüklənməsin.

2. Ölkəmizin yeraltı su hövzələrindən səmərəli istifadə üçün bütün mümkün zonalarda çoxlu artezian quyuları qazılmalıdır. Bu yolla həm əhali, həm də təsərrüfatlar daimi su əldə edə bilər və bu da aqrar sektorun inkişafına səbəb olar.

3. Xüsusi şirkətlərə, müəssisələrə, iri təsərrüfatlara və digər məntəqələrə suyun sayğacsız verilməsi yığışdırılmalı, belə biabırçılıqların qarşısı alınmalıdır.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda alternativ mənbələrdən, o cümlədən qrunt, təmizlənmiş tullantı, kollektor-drenaj sularından, balıqçılıq təsərrüfatlarında istifadə olunan sulardan və Xəzər dənizinin suyundan istifadə, subartezian və artezian quyularının qazılması, həmçinin 10 yeni su anbarının tikilməsi nəzərdə tutulur.

Artıq ölkəmizdə su ehtiyatlarının yaradılması üçün bir çox tədbirlər həyata keçirilib: ümumi su tutumu 456 milyon kubmetr olan 4 su anbarı - Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları tikilib, həmçinin Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib. Azərbaycanda içməli su təminatı yüksək faiz dərəcəsi ilə göstərilir, Bakı şəhəri ilə yanaşı, bütün şəhər, rayon və qəsəbələri əhatə edir. Nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişib.

Onu da qeyd edək ki, son illər 96 saylı Goranboy-Naftalan seçki dairəsi üzrə su təsərrüfatının yaxşılaşdırılması sahəsində də xeyli işlər görülüb. Təkcə cari ildə Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Goranboy rayonunun əhalisi 30378 nəfər olan 16 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün qazılması nəzərdə tutulan 60 ədəd subartezian quyusunun artıq 17-nin qazılması prosesi başa çatıb.

Dövlətin gördüyü tədbirlər vəziyyəti dəyişsə də, bu prosesdə vətəndaşların iştirakı olmadan uğur qazanmaq çətin olacaq. Buna görə də müasir çağırışlara uyğun və əsaslandırılmış su balansı hazırlanmalı, vətəndaşlar vəziyyətin ciddiliyini anlamalı, sudan istifadədə diqqətli olmalı və suya qənaət etməlidirlər. Əlbəttə, bu işlər həyata keçirilsə, ölkəmizdə su problemi olmayacaq.

Suvarmada yeni qənaətcil texniki qurğular tətbiq olunmalıdır. Bir çox ölkələrdə hətta yağış suyunu yığıb istifadə edirlər. Bu problemin həlli üçün innovativ texnologiyalar tətbiq olunmalıdır. Təbii balansı pozmamaq şərti ilə mümkün olan bütün yerüstü və yeraltı su mənbələrindən faydalanmaq lazımdır.

İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin fəaliyyəti çoxşaxəlidir

Rüstəm Mahmudov
Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri

Son dövrlər ölkəmizdə gedən ümumi islahatlar prosesi dövlətçilik tarixi-mizdə yeni bir mərhələnin başlanğıcı olmuşdur. Cənab Prezidentin rəhbər-liyi ilə aparılan sosial-iqtisadi, eləcə də struktur islahatlarının əsas məq-sədi bütövlükdə ölkə əhalisinin rifah halının yüksəldilməsi, idarəetmədə çevikliyin və səmərəliliyin artırılması, cəmiyyətdə formalaşan yeni çağırış-lara adekvat uyğunlaşmanın təmin edilməsidir. Bütün bunlar - ortaya qoyulan güclü iradə, həyata keçirilən siyasət və əldə olunan nəticə demə-yə əsas verir ki, Azərbaycan dinamik inkişaf yolundadır.

İslahatların tərkib hissəsi olaraq Azərbaycan Respubli-kası Milli Məclisinə növbədənkənar seçkilər keçirilmiş və VI çağırış Azərbaycan Respublikası Milli Məclisi yeni tərkibdə formalaşmışdır. Prezident İlham Əliyevin 2020-ci il martın 10-da yeni çağırılmış parlamentin ilk iclasındakı nitqi ümumilikdə Milli Məclisin və hər bir millət vəkilinin gələcək beşillik fəaliyyəti üçün "yol xəritəsi"ni müəyyənləşdirmişdir.

Milli Məclisin deputat korpusunda baş vermiş dəyişiklik-lərin məntiqi davamı olaraq Azərbaycan Respublikası Milli Məclisinin Sədri xanım Sahibə Qafarovanın rəhbərliyi və təşəbbüsü ilə Milli Məclisin Aparatı da bu prosesə qoşulmuş-dur. Aparatda aparılan struktur və kadr islahatları nəticə-sində ölkəmizdə gedən ümumi islahatlara uyğun dayanıqlı inkişaf, yeni güc, yeni təfəkkür və həssas yanaşma mühiti yaradılmışdır. Aparatın və İşlər İdarəsinin işi daha da təkmil-ləşdirilmiş, yeni çağırışlara və müasir idarəetmə üsullarına cavab verən struktur modeli formalaşdırılmışdır.

Bu xüsusda Milli Məclisin Sədri xanım Sahibə Qafarova-nın 1 may 2020-ci il tarixli sərəncamı ilə Milli Məclis Apa-ratında İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsi yeni struktur bölməsi olaraq yaradılmışdır. Şöbənin yaradılması qanunvericilik, icra hakimiyyəti və vətəndaş müstəvisində əlaqələrin daha səmərəli, hesabatlı və məsuliyyətli qurulması məqsədini daşıyır. Şöbə nəzdində fəaliyyət istiqamətlərinə uyğun olaraq iki sektor - Yerli və mərkəzi icra orqanları ilə iş və Təhlil və analitika sektorları yaradılmışdır.

Qeyd etməliyəm ki, kollektivimiz gənc kadrlardan iba-rətdir və bu da öz növbəsində Milli Məclis rəhbərliyinin bizə göstərdiyi çox böyük etimaddır. Dövlətçiliyə sadiq və dövlət qulluğunda təcrübəsi olan, həmçinin çevikliyi və operativliyi ilə seçilən əməkdaşlarımızın qarşısında dayanan vəzifələrin layiqincə yerinə yetirilməsi üçün hər cür şərait yaradılmış-dır. Bu mənada bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, şöbəmiz yarandığı gündən Milli Məclis rəhbərliyinin hərtə-rəfli qayğısı ilə əhatə olunmaqla bütün müasir texniki ava-danlıqlarla təchiz edilmişdir. Elə bu səbəbdən də fəaliyyətə başladığımız ilk gündən məqsədimiz bizə göstərilən etimadı hər zaman doğrultmaq, qarşıya qoyulan vəzifələri vaxtında, məsuliyyətlə və keyfiyyətlə yerinə yetirməkdən ibarətdir.

İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin fəaliy-yəti çoxşaxəlidir. Şöbənin əsas fəaliyyət istiqamətlərindən biri mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı

əlaqədə konstruktiv əməkdaşlığın qurulmasıdır. Bu əlaqələrin təmin edilməsi məqsədi ilə şöbə tərəfindən fəaliyyət mexanizmlərinə dair təkliflər hazırlanaraq Milli Məclis rəhbərliyinə təqdim olunmuş və "Azərbaycan Respublikasının Milli Məclis Aparatı və İşlər İdarəsi haqqında Əsasnamə"də müvafiq qaydada öz əksini tapmışdır.

qeydə alınaraq şöbənin hazırladığı hesabatlara daxil edilir. Həmin hesabatlar təhlil olunaraq və ümumiləşdirilərək hər hesabat dövrünün sonunda tərtib edilir.

Şöbə daxilində aparılmış bölgüyə əsasən əməkdaşların deputatların seçildikləri dairələrdə vətəndaşlarla görüşlərin təşkil edilməsində iştirakı, habelə prosesin gedişatını müşahidə etməsi nəzərdə tutulur. Bütün bu fəaliyyət mexanizminin təşkil olunmasında deputat köməkçiləri ilə aparılan işin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Çünki KİV-də və seçicilərlə fəaliyyətə dair hesabatların hazırlanmasında deputat köməkçilərinin şöbəyə təqdim etdikləri məlumatlar xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək istərdim ki, şöbə son zamanlar vətəndaşlardan daxil olan çoxsaylı müraciətləri, eləcə də deputat sorğuları ilə bağlı bir sıra məqamları nəzərə alaraq Milli Məclis rəhbərliyinə vətəndaş müraciətlərinin həllinə dair təkliflər paketi hazırlamışdır ki, bu da, öz növbəsində, düşünürəm ki, müraciətlərin aidiyyəti qurumlar tərəfindən vaxtında cavablandırılması və onların həlli istiqamətində mühüm önəm kəsb edir.

Gələcəkdə şöbənin fəaliyyət istiqamətləri daha da təkmilləşdiriləcək və inanıram ki, Milli Məclisin Sədri hörmətli Sahibə xanımın rəhbərliyi altında bütün potensialımızı və gücümüzü səfərbər etməklə vətəndaş məmnunluğunun təmin edilməsi, o cümlədən deputat-vətəndaş münasibətlərinin daha da inkişaf etdirilməsi və əhalini narahat edən problemlərin səlahiyyətlərimiz daxilində operativ həll olunması sahəsində yeni uğurlara imza atacağıq. Əlbəttə ki, bu işdə və qarşımızda duran digər vəzifələrin keyfiyyətlə icra olunmasında qanunverici və icra hakimiyyətlərinin səmərəli əməkdaşlığı effektiv və dayanıqlı format olaraq mühüm əhəmiyyət kəsb edəcəkdir.

Şöbənin funksiyalarından biri də ölkə başçısının VI çağırış Milli Məclisin ilk iclasında hesabatlılıqla bağlı səsləndirdiyi fikirlərini rəhbər tutaraq deputatların fəaliyyətinin vahid formada hesabatlılığının təmin edilməsi prosesini həyata keçirməkdir.

Şöbənin funksiyalarından biri də ölkə başçısının VI çağırış Milli Məclisin ilk iclasında hesabatlılıqla bağlı səsləndirdiyi fikirlərini rəhbər tutaraq deputatların fəaliyyətinin vahid formada hesabatlılığının təmin edilməsi prosesini həyata keçirməkdir. Belə ki, millət vəkillərinin seçicilərlə işi və KİV-də müntəzəm hesabatlılıq sisteminin yaradılması ölkə başçısının siyasi iradəsidir və Milli Məclisin yeni tərkibdə keçirilən ilk iclasında söylədiyi fikirlərin təzahürüdür. Bu baxımdan bildirmək istərdim ki, deputatların fəaliyyətlərini əks etdirən və onların köməkçiləri tərəfindən həftəlik və aylıq əsasda şöbəyə təqdim olunan məlumatlar, eləcə də Milli Məclisin plenar, komitə və komissiya iclaslarında onların irəli sürdükləri təkliflər və səsləndirdikləri fikirlər

Azərbaycanda
hakimiyyətin mənbəyi xalqdır...
H.ƏLİYEV
01:54 Əliyev Bəxtiyar H.
1. Paşayeva Qənirə Ə.
2. Mirzəzadə Aydın B.
3. Mustafa Fazil Q.
4. Möhbəliyev Səttar S.
5. Oruc Zahid M.
6. Cəfərov Nizami Q.
7. Rzayev Tahir M.
8. Səfərov Nizami A.
9. Nurullayev Razi Q.

QARABAĞ!
AZƏRBAYCANDIR!